Xalqın qəzeti!

# Xalq qəzeti

№ 119 (30523) 7 iyun 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Azərbaycana kənar baxışlar: əməkdaşlıq məmnunluğu və etimad

### Dünya liderlərinin ölkəmizlə bağlı fikirlərindəki spesifik cəhətlər



**"Rusiya–Azərbaycan münasibətləri uğurlu, etibarlı və çox praqmatik inkişaf edir". Fikrin müəllifi Rusiya Prezidenti Vladimir Putindir. Kreml rəhbəri nitqində, kifayət qədər, konkret və korrektdir. Əslində, cənab Putinin ölkəmizlə əlaqədar səsləndirdiyi başqa tezislərdə də qeyd etdiyimiz cəhət özünü göstərməkdədir. Ümumən, o, bütün məsələrlə birmənalı yanaşması ilə seçilən liderlərdən, siyasətçilərdəndir. Nəzərə alaq ki, bu yanaşma asanlıqla formalaşmır...**

Onu da bildirək ki, diqqətə çatdırdığımız sitatdakı fikir Kreml rəhbərinin Sankt-Peterburq beynəlxalq forumu çərçivəsində Azərbaycanla bağlı səsləndirdiyi xoş sözlərdən yalnız biridir. Böyük siyasətdə isə xoş sözlər heç də boş yerə dilə gətirilmir və onların hamısının reallıqla dərin uyğunluğu var. Ancaq söhbətimiz yalnız Rusiya Prezidentinin ölkəmizlə əlaqədar hansı məqamları qabartması barədə deyil. Yazımızda dünya liderlərinin son vaxtlar Azərbaycanla, daha doğrusu, respublikamızla münasibətlər haqqında söylədiklərinə diqqət yetirəcəyik.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan dünya miqyasında olduqca dərin düşünülmüş siyasət xətti gerçəkləşdirməkdədir. Balanslaşdırılmış xassəyə malik bu xətt hadisə və proseslərə münasibətdə neytrallığı əsas götürmür. Axı Cənubi Qafqaz coğrafiyasında soyuq bitərəflilik prinsip etibarilə mümkünsüzdür. Bu səbəbdən ölkəmiz özünün balanslı mövqeyini yaşadığımız region və ümumən dünya ilə bağlı proseslərin episentrində dayanaraq tutur. Belə mövqe qlobal siyasətin sərt oyun qaydaları çərçivəsindəki fəaliyyətə əsaslanır. Deməli, həm ön planda dayanmaq, həm də balanslı siyasət ampluasına sadiqlik. Elə bir siyasətə sadiqlik ki, onda passivlik təmayülü qətiyyən yoxdur.

(ardı 7-ci səhifədə)

# Türk birliyinin potensialı dünyada böyük gücə çevrilir

## Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul edib.**

Görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

-İlk növbədə, xoş gəlmisiniz. Sizin hamınızı səmimiyyətlə salamlayıram. Əminəm ki, TÜRKPA-nın növbəti plenar iclası yaxşı nəticələr verəcək. Belə toplantılar bir qayda olaraq Türk dünyasının birliyinin təzahürü olur, əminəm ki, Bakı toplantısı da istisna olmayacaq. Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir.

Bildiyiniz kimi, mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Mən hesab etdim ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etməz. Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda, hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. O görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı olacaq. Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. Orta Dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılması göz önündə olan məsələlərdir. Burada Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərir. Mən hesab etdim ki, indiki zəmanədə Orta Dəhlizin potensialına dünyada daha böyük ehtiyac var. Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq.

(ardı 3-cü səhifədə)

## Rusiya "Antey"in qüdrətini rəmzləşdirib



Səhifə ⇨ 7

## Avropada türk kökənli tərəfdaşımız



Səhifə ⇨ 7

## Modi Hindistana 5 il də rəhbərlik edəcək

**Hindistanda ölkə hakimiyyətinin "dünya tarixində ən uzun və ən böyük səsvermə" adlandırdığı ümumi seçkilərin nəticələri açıqlanıb. Çərşənbə axşamı gününə olan məlumata görə, səsvermə Hindistanın hakim Bharatiya Janata Partiyasına (BJP) böyük uğur vəd edən exit-poll proqnozlarına zidd olub. Səslərin hesablanması davam edir, lakin məlum olub ki, baş nazir Narendra Modinin tərəfdarları parlamentin aşağı palatasına nəzarəti saxlasalar da, 5 il əvvəlkindən daha az üstünlüyə malikdirlər. Bu, hətta ucuzlaşmağa başlayan birjada da özünü göstərib. Belə proqnoz verilir ki, Modinin üçüncü baş nazirlik dövrü onun ən çətini olacaq.**



Çərşənbə axşamı Hindistanda parlamentin 543 yerlik aşağı palatası Lok Sabhanın yenidən seçildiyi ümumi seçkilərin nəticələri "dünyanın ən böyük demokratiyası"nın siyasətinə gözlənilməz intriqa gətirib. Belə ki, BJP-nin rəhbərlik etdiyi Milli Demokratik Alyans olan NDA 543 yerlik parlamentin aşağı palatasında mandatların əksəriyyətini (298 yer) qazanıb. Bu, Narendra Modinin üçüncü müddətinə yeni hökumət qurmağa imkan verir. Hindistan baş nazirinin Milli Demokratik Alyansdakı əsas müttəfiqləri "Janata Dal" və "Teluqu Desam" artıq üçüncü müddətə onun namizədliyini dəstəkləyəcəklərini və iqtidar partiyası ilə birlikdə hökumət quracaqlarını təsdiqləyiblər.

(ardı 11-ci səhifədə)

## Revanşistlər dalana yuvarlandıqlarını görsələr də, anlamaq istəmirlər

**Ermənistanda radikal müxalifət təmsilçilərinin aprelin 19-da Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası sahəsində əldə olunan razılaşmaya etiraz əlaməti olaraq yaratdıqları "Vətən naminə Tavuş" hərəkatının fiaskoya uğradığını radikallar özləri də getdikcə dərk etməkdədirlər. Hərəkatın başlanmasından artıq ay yarımdan çox vaxt keçir və revanşistlər başa düşürlər ki, "Vətən naminə Tavuş" uğur qazanmağı bacarsaydı, bunu indiyədək edərdi.**



Artıq nəinki etiraz aksiyalarının sıravi iştirakçıları, onun rəhbəri, erməni apostol kilsəsinin Tavuş yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyan da jurnalistlərə açıqlamasında Nikol Paşinyan iqtidarını tezliklə devirəcəyini bəyan etməklə tələskənliyə yol verdiyini etiraf edib. Onun bu açıqlaması radikalların işlərinin rəvan getmədiyinin göstəricisi sayıla bilər: "Mənə çox deyirlər ki, uğur qazanmaq üçün 7-10 günə ehtiyac olduğunu demisən. Bəli, demişəm. Çünki bizim düşüncəmiz belə idi. Amma biz həmin 7-10 günlük müddətdə anladıq ki, hakimiyyəti dəyişməkdən daha ciddi problemlərimiz var".

Baqratın digər etirafı hakimiyyət dəyişikliyinə nail olmağa yol açacaq kütləvilik yarada bilmədikləri ilə bağlı olub: "Qarşımıza min cür problem çıxdı, indi də var. Əlbəttə, istəyimiz hədəfə çatmaq idi. Biz heç kimi aldatmamışıq, aldatmırıq və aldatmayacağıq".

(ardı 8-ci səhifədə)

## Şimal-Cənub Nəqliyyat Dəhlizi dünya qütblərini yaxınlaşdırır

**Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.**

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.



Nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilib, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilib, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihəsi gerçəkləşdirilib.

(ardı 5-ci səhifədə)

## “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində, 4.5-ci maddəsinin birinci, dördüncü və beşinci cümlələrində, 4.6-cı maddəsinin birinci abzasında, 4.6.2-ci maddəsinin birinci cümləsində, 4.6.3-cü, 4.6.4-cü, 4.8-ci (hər iki halda), 5.1-ci, 5.2-ci, 6.3-cü maddələrində, 7.4-cü maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 8.4.1-ci maddəsinin ikinci cümləsində, 8.5-ci maddəsinin birinci cümləsində və 9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.8-ci (ikinci halda), 5.1-ci, 5.2-ci, 6.3-cü və 9-cu maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4.1-ci maddəsində, 4.5-ci maddəsinin birinci, dördüncü və beşinci cümlələrində, 4.6-cı maddəsinin birinci abzasında və 4.8-ci maddəsində birinci halda “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

1.4. həmin Qanunun 4.6.2-ci maddəsinin birinci cümləsində, 7.4-cü maddəsinin ikinci (ikinci halda) cümləsində, 8.4.1-ci maddəsinin ikinci cümləsində və 8.5-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4.6.3-cü maddəsində, 7.4-cü maddəsinin birinci və ikinci (birinci halda) cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 4.6.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 9-cu maddəsinə uyğun olaraq, süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə və süni torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləğini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir tələblərə cavab verən yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında işləməsinin təşviqi, onların bilik və bacarıqlarının ölkənin sosial-iqtisadi inkişafına istiqamətləndirilməsi, habelə bu sahədə çevik idarəetmə və əlaqələndirmə mexanizminin formalaşdırılması məqsədilə **qərara alıram:**

**1.** Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı (bundan sonra – Proqram) təsis edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış yüksəkixtisaslı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (bundan sonra – yüksəkixtisaslı miqrant) və onların ailə üzvlərinə münasibətdə tətbiq ediləcək güzəştləri (ölkədə olmaq, yaşamaq və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun əldə edilməsi üçün tələb olunan sənədlər və onların sayı, icazələrin müddəti, iş icazəsi tələbindən azad olunma, müraciətlərə baxılma müddəti və s.) müəyyən edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarlarını və qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulan portal haqqında əsasnaməni və həmin portala inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısını üç ay müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti:

3.1. Proqram iştirakçılarının müraciətlərinin qəbulunu və cavablandırılmasını “bir pəncərə” prinsipi əsasında təmin edən portalın (bundan sonra – portal) yaradılmasını iki ay müddətində təmin etsin;

3.2. portala daxil olan müraciətlərə baxılmanı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan “Yüksəkixtisaslı miqrantlar” altsistemi vasitəsilə həyata keçirsin;

3.3. portalda olan fərdi məlumatların və portal vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

**5.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə Proqramın təbliğ və təşviq olunmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 61 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə “102.1.33-cü,” sözlərindən sonra “102.1.33-1-ci,” sözləri, “106.1.28-ci,” sözlərindən sonra “106.1.28-1-ci, 106.1.28-2-ci,” sözləri, “164.1.49-cu,” sözlərindən sonra “164.1.49-1-ci (hər iki halda),” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.43-2-ci bənd əlavə edilsin:

“1.43-2. həmin Məcəllənin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2517 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2517 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 182 (Cild I) birinci hissəsi ilə təsdiq edilmiş “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Müşahidə Şurasının sədri**

Rəhman Hümmətov – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

**Müşahidə Şurasının üzvləri**

Ədalət Əliyev – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturun maliyyəsi şöbəsinin müdiri

Xəyyam Məmmədov – Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.6-cı maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “68.4-1-ci maddəsində” sözləri “68.4-1, 68.6-cı maddələrində” sözləri ilə əvəz edilsin;

3.2. 2.3-1-ci bəndə “65.5,” rəqəmlərindən sonra “68.6,” rəqəmləri əlavə edilsin;

3.3. 2.4-cü bənddən “68.6,” rəqəmləri çıxarılsın;

3.4. 2.4-1-ci bənddən “179,” rəqəmləri çıxarılsın;

3.5. 2.4-2-ci bəndə “163.2” rəqəmlərindən sonra “,179” rəqəmləri əlavə edilsin;

3.6. 2.11-ci bənddə “155.5, 178.2-ci” sözləri “155.5-ci” sözləri ilə əvəz edilsin;

3.7. 2.18-ci bənddən “rayon (şəhər)” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## R.F.İsmayılovun Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Fail oğlu İsmayılov Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 78 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci hissə üzrə:

1.1. 5.2-ci bəndin dördüncü cümləsi çıxarılsın;

1.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“5.4. Fond razılıq barədə qərarını elektron sistemdə yerləşdirdiyi gündən 7 iş günü müddətində müraciət edən şəxs yaşayış sahəsini seçir və yaşayış sahəsi onun tərəfindən seçildiyi gündən 7 iş günü müddətində kirayə müqaviləsinin rəsmiləşdirilməsi həyata keçirilir.”;

1.3. 5.6-cı bənddə “müddətə” sözü “müddətlərə” sözü ilə əvəz edilsin;

1.4. 5.7-ci bəndə “5.2-ci” sözlərindən sonra “, 5.4-cü” sözləri əlavə edilsin.

**2.** 9-cu hissə üzrə:

2.1. 9.3-cü bəndin birinci abzasında “verir” sözü “verilməsi ilə bağlı tədbirlərə başlayır” sözləri ilə əvəz edilsin;

2.2. 9.5-ci bəndə “verilməsi” sözündən sonra “ilə bağlı tədbirlərə başlanılması” sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 9.6-cı bənd əlavə edilsin:

“9.6. Bu Qaydanın 9.3.3-cü yarımbəndində müəyyən edilən əsasla Fond kirayə müqaviləsinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı tədbirlərə başladıqda kirayəçi kirayə müqaviləsi üzrə yaranmış borc məbləğini kirayə münasibətlərinə xitam verilənədək (məhkəməyə müraciət edildiyi halda – məhkəmə qətnaməsi çıxarılanadək) tam ödəyərsə, Fond kirayəçi ilə kirayə münasibətlərini (məhkəməyə müraciət edildiyi halda – barışıq sazişi bağlamaqla) davam etdirir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

## A.Ə.Ağayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyun 2024-cü il**

# Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib

(əvvəli 1-ci səhifədə)



İqlim məsələləri isə bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, Azərbaycan bu il COP29 konfransına ev sahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir.

Zirvə görüşünün Şuşada keçirilməsi təbii ki, böyük rəmzi məna daşıyır. Şuşa 4 ilə yaxındır ki, işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Yəni bütün bunlar bir daha birliyimizi göstərir. Bu fürsətdən istifadə edərək mən qardaş ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Onu da qeyd etməliyəm ki, azad edilmiş ərazilərdə bu gün geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir. Yəni biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir.

Azad edilmiş torpaqlarda həyat bərpa olunur. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. Yeddi mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, TÜRKPA-nın bugünkü toplantısı böyük əhəmiyyət daşıyır. Əminəm ki, müzakirə ediləcək məsələlər bizim birliyimizi daha da gücləndirəcək. Eyni zamanda, hər dəfə qardaş ölkələrdən yüksəkvəzifəli şəxslər ölkəmizə gələndə, bu, bizi sevindirir. Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması – bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur.

Bir daha sizi salamlayıram, xoş gəlmisiniz! Sizə xoş səfər arzulayıram!

***

Özbəkistan Ali Məclisi Senatının sədri xanım **Tənzilə Narbayeva** çıxış edərək dedi:

– Əvvəlcə, bütün həmkarlarım adından və şəxsən öz adımdan dəvətə görə böyük minnətdarlığımı ifadə etmək istəyirəm. Bizi fəxri qonaq qismində dəvət ediblər, amma, hər halda, türk xalqlarının parlament hərəkatının fəal iştirakçısıyıq.

Cənab Prezident, Sizə öz Prezidentimizin, Sizin dostunuzun, qardaşınızın salamlarını və Qarabağın bərpası üzrə böyük quruculuq işlərinizdə, yaradıcı fəaliyyətinizdə ən xoş arzularını çatdırmaq istəyirəm. Sizin yaradıcı əməyiniz sayəsində bu gün Azərbaycanın dünya səviyyəsində nüfuzu artır. Sosial-iqtisadi potensial, beynəlxalq nüfuz artır. Demək istərdim ki, TÜRKPA-nın yaradılması ideyanız öz müsbət nəticələrini verir. Biz onun işində həmişə fəal iştirak edirik. Xüsusilə bu il Cenevrədə Parlamentlərarası İttifaqın 148-ci sessiyasında iştirak etdik və orada hörmətli Sahibə xanım Sizin göstərişinizlə TÜRKPA-nın xüsusi iclasını təşkil etdi. Bütün parlamentarilər oraya toplaşdı və biz məsələləri fəal şəkildə müzakirə etdik. Mən Özbəkistan parlamentariləri adından ideyanıza görə Sizə təşəkkür etmək istəyirəm.

Demək istəyirəm ki, parlament meyarının, parlamentin bu proseslərə təsirinin gücləndirilməsi ilə bağlı Sizin ideyalarınızı hər zaman dəstəkləyəcəyik, təbii ki, ikitərəfli formatda da. Biz ilk yol xəritəsini böyük uğurla həyata keçirdik. Bizim çox yaxşı münasibətlərimiz var, bu gün ikinci yol xəritəsini imzalayırıq və bütün səylərimiz, möhtərəm cənab Prezident, mənim Prezidentimlə birgə əldə etdiyiniz razılaşmaların həyata keçirilməsinə yönəldiləcəkdir.

Sizə bir daha təşəkkür etmək və böyük uğurlar arzulamaq istəyirəm. Siz böyük tarixi işlər görmüsünüz və uzaqgörənliyiniz, yüksək peşəkarlığınız və təşkilatçılıq bacarığınızla bütün dünyanı heyran qoymaqda davam edirsiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun! Əziz qardaşım Şavkat Miromonoviçə ən xoş arzularımı çatdırın, onunla tezliklə görüşməyə ümid edirəm. Bilirsiniz, ilin sonuna qədər bizim görüşlərimiz olacaq – həm mənim səfərim, həm də bilirəm ki, Şavkat Miromonoviç bu ilin noyabrında keçiriləcək iqlim konfransında iştirak etməyi planlaşdırır. Bizim hələ beynəlxalq platformalarda da əlaqələrimiz olacaq. Siz də yaxşı bilirsiniz ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri necə uğurla, deyərdim ki, inanılmaz sürətlə inkişaf edir. Yəqin 7-8 il əvvəl kimsə desəydi ki, biz belə bir əməkdaşlıq səviyyəsinə çatacağıq, buna inananlar az olardı. Bu, əlbəttə ki, böyük nailiyyətdir. Mən də hamını dəvət etmək istərdim – COP29 çərçivəsində burada Parlamentlərarası İttifaqın iclası keçiriləcək və biz qardaş ölkələrin bütün parlament rəhbərlərini dəvət edirik. Bu da mühüm hadisə olacaq. Ümumiyyətlə, iqlim konfransı çərçivəsində çoxlu tədbirlər keçiriləcək. Amma ən əlamətdarlarından biri Parlamentlərarası İttifaqın toplantısı olacaq. Beləliklə, ilin sonuna qədər hələ daha çox görüşəcəyik.

**Tənzilə Narbayeva**: Çox sağ olun! Buraya gəlişimiz həmişə xoşdur.

***

Türkiyə Böyük Millət Məclisinin sədri **Numan Kurtulmuş** çıxış edərək dedi:

– Çox hörmətli Əliyev cənabları, hörmətli Prezident!

Mən də Türkiyə Respublikası adından cənab Prezidentimizin və türk xalqının salamlarını, sevgilərini Sizə çatdırmaq istəyirəm.

İlk növbədə, həqiqətən də, Azərbaycan tarixinin fövqəladə önəmli dönüş nöqtələrindən biri olan Qarabağın işğaldan azad edilməsindəki Zəfəriniz münasibətilə Sizi bir daha təbrik edirik. Tarixi bir uğur əldə edilmişdir. Otuz il işğal altında qalan Qarabağ torpaqları azad edilmişdir.

İndi sevinirik, görürük ki, azad edilən Qarabağ torpaqları abadlaşdırılır, yenidən dirçəldilir. Köçkünlərin oraya qayıtmaları da olduqca sevindirici bir xəbərdir. Qarabağın ən qısa müddətdə qeyri-adi dərəcədə böyük bir cazibə mərkəzi olacağını bilirik, görürük. Allah işinizi avand eləsin. Türkiyə Cümhuriyyəti olaraq, türk xalqı olaraq bütün gücümüzlə hər zaman hər yerdə sizin yanınızda olduğumuzu bir daha ifadə etmək istəyirəm.

Təbii ki, Zati-alinizin də ifadə etdiyi kimi, qarşımızda, əslində, dünya tarixi baxımından yeni bir dövrün qapıları açılıb. Sovet İttifaqının dağılması ilə ikiqütblü dünya sistemi geridə qaldı. Amerikanın Əfqanıstandan çıxması ilə də Amerikanın birqütblü dünya sistemi geridə qaldı. İndi qarşımızda çoxqütblü bir dövrün başlanğıcı var. Orta Asiya dediyimiz Özbəkistandan, Qazaxıstandan başlayan, Qafqazdan Anadoluya, oradan da Avropaya – ta Macarıstana qədər uzanan coğrafiyada təxminən 300 milyon türk yaşayır. Bu, böyük bir potensialdır. Həm insan gücü baxımından, həm də yeraltı, yerüstü sərvətlər baxımından qeyri-adi böyük bir potensialdır. İnşallah, türk dövlətləri bunu öz aralarında ən doğru şəkildə istifadə edərək yeni dünyada böyük bir güc mərkəzinə çevriləcək. Türk dünyasının önəmli bir güc balansı olması dünyada sülhə əsla təhdid deyil, tam əksinə, dünyada sülhün təmin edilməsi üçün bir imkan, bir fürsətdir. Qarşıdakı dövr hər halda biz Türk Dövlətləri Təşkilatının üzv ölkələri və digər qardaşlarımızla birlikdə Türk dünyasının böyük bir güc mərkəzi olması üçün bütün imkanlarımızı səfərbər edəcəyik, birliyimizi, bərabərliyimizi, qardaşlığımızı gücləndirəcəyik, ortaq layihələrlə "Qazan-qazan" prinsipi çərçivəsində dünyanın bu bölgəsində haqqın, ədalətin yenidən hakim olacağı bir strukturun formalaşması üçün səy göstərəcəyik. Bu çərçivədə son dərəcə ümidvar olduğumuz bir dövrün tam başlanğıcındayıq. Yetər ki, üzərimizə düşən vəzifələri yerinə yetirək və bundan sonrakı nəsillərə daha güclü bir Türk dünyasını ötürə bilək.

Dediyiniz kimi, bizim ailəmiz Türk dünyasıdır. Bu ailənin çox güclü kökləri olduğunu hər münasibətimizdə daha yaxından görür, müşahidə edirik. Bu əlaqələrimizin xalqlarımız tərəfindən də qəbul edildiyi və gücləndirildiyi fəaliyyəti həyata keçirməyimiz, Qaspıralının dediyi kimi, "dildə, fikirdə və işdə birliyi" təmin etməyimiz şərtdir. Bu istiqamətdə atılacaq addımlarda da Türkiyə olaraq bütün gücümüzlə bu işlərdə birlikdəyik.

Evsahibliyinə görə bir daha təşəkkür edir, ehtiramımızı bildiririk.

***

**Prezident İlham Əliyev** dedi:

– Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Türkiyə hər zaman Azərbaycanın yanında olub və İkinci Qarabağ müharibəsi başlayarkən cənab Prezident Rəcəb Tayyib Ərdoğanın çox açıq və dəqiq sözləri, – "Türkiyə Azərbaycanın yanındadır", – bizə əlavə güc verdi. Bu siyasi və mənəvi dəstək bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil və Türkiyə 44 gün ərzində bizim yanımızda oldu. Hər gün həm Prezident, həm digər vəzifəli şəxslər açıqlamalar verərkən imkan yaratdı ki, biz bu haqlı davamızı Zəfərlə başa vuraq. Çünki siz də yaxşı bilirsiniz ki, 44 gün ərzində Azərbaycana müxtəlif güc mərkəzlərindən çox böyük təzyiqlər olmuşdu. Hətta bəzi ölkələr bizi hədələyirdilər və belə bir çətin durumda Türkiyənin birmənalı dəstəyi, yenə də deyirəm, bizə əlavə güc verdi, inam verdi və bu dəstəyə görə biz minnətdarıq. Bütün Azərbaycan xalqı bunu bilir və qiymətləndirir.

Qeyd etdiyiniz kimi, – mən çox şadam ki, bu, artıq ümumi bir yanaşmadır, ümumi bir fikirdir, – Türk dünyasının gücləndirilməsi, birləşməsi Türk dünyasını, Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirəcək. Çünki siz də qeyd etdiyiniz kimi, mövcud olan güc mərkəzləri böhran içindədir. Hərəsinin öz böhran çərçivələri var. Bizim isə əksinə, potensialımız gündən-günə çiçəklənir. Qeyd etdiyim kimi, böyük coğrafiyadır, xəritəyə baxsaq görərik ki, Türk dünyasının ucu-bucağı yoxdur, böyük coğrafiyanı əhatə edir. Artan əhali, gənc əhali, təbii sərvətlər, nəqliyyat yolları, aramızdakı birlik. Bu birlik təbiidir, bu birliyin təməlində ortaq köklər var. Ona görə bu birlik bütün başqa birliklərdən daha qüvvətli, daha güclüdür. Yəni bizim birləşməyimiz etnik, mədəni köklər üzərindədir və biz təbii ki, praktiki addımlarla bu birliyi gücləndirməliyik.

Bu gün nəqliyyat, energetika, ticarət, mədəniyyət sahələrində və digər sahələrdə çox geniş əlaqələr var. Bu gün təhlükəsizliklə, hərbi, hərbi-texniki sahə və təhlükəsizliklə bağlı olan digər sahələr də mütləq diqqət mərkəzində olmalıdır. Çünki dünyanın müxtəlif yerlərində gedən proseslər göstərir ki, beynəlxalq hüquq normaları inkar edilir, işləmir. Biz bunu Azərbaycanın timsalında 28 il görmüşük. Minsk qrupu 28 il guya Qarabağ problemini həll etməyə çalışırdı. Əslində isə bunu dondurmağa çalışırdı və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız parçasından başqa bir şey deyildi. Biz isə ona görə bu gün öz haqqımızı, ərazi bütövlüyümüzü döyüş meydanında, güc yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll etdik. Ancaq o da həqiqətdir, sənin gücün olmalıdır ki, öz haqqını müdafiə edə biləsən.

Ermənistan–Azərbaycan prosesi ilə bağlı onu deyə bilərəm ki, biz hesab edirik, bir neçə açıq olan məsələ hələ də qalmaqdadır. Onlardan biri Ermənistanın Konstitusiyasıdır ki, orada Azərbaycana qarşı ərazi iddiaları var. İkincisi, Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarına son qoyulmalıdır. Təbii ki, biz artıq bunu Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure – hüquqi cəhətdən bu, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir.

Bildiyiniz kimi, bu yaxınlarda sərhədlərin müəyyən edilməsi istiqamətində önəmli hadisələr baş vermişdir. Azərbaycan 1990-cı və 1992-ci illərdə itirdiyi dörd kəndi – Qazax bölgəsində yerləşən dörd kəndi bir güllə atılmadan geri qaytardı. Bu, onu göstərir ki, məsələlər sülh yolu ilə həll oluna bilər. Əgər Ermənistan 2020-ci ildə bizim sözümüzə qulaq assaydı və sülh yolu ilə bizim torpaqlarımızı qaytarsaydı, İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına ehtiyac qalmazdı. Yəni o, onlar üçün dərs olmalıdır və mən görürəm ki, o dərsdən onlar, necə deyərlər, nəticə çıxarırlar. Çünki dörd kəndin sülh yolu ilə, danışıqlar yolu ilə bizə qaytarılması və o bölgədə sərhədlərin müəyyən edilməsi göstərir ki, biz məsələləri danışıqlar yolu ilə həll edə bilərik. Əlbəttə, növbəti mərhələdə, – əminəm ki, Şuşa Zirvə görüşü bu istiqamətdə önəmli addım olacaq, orada həm birliyimiz nümayiş etdiriləcək, həm də konkret məsələlər müzakirə olunacaq, – dövlət başçıları, parlament sədrləri, vətəndaş cəmiyyəti, cəmiyyətin bütün təbəqələri birgə səylərlə bir nöqtəyə vurmalıdırlar ki, Türk dünyası güclənsin. Mən əminəm gün gələcək ki, dünyanın bütün məsələlərini Türk Dövlətləri Təşkilatı ilə məsləhətləşmə yolu ilə həll edəcəklər. Yəni, biz ancaq xoş niyyət göstəririk və hörmətli sədr Numan Kurtulmuşun dediyi kimi, bizim istəyimiz işbirliyidir, əməkdaşlıqdır, dostluqdur. Biz heç kimə qarşı heç bir hərəkət etmirik. Biz heç kim üçün təhdid mənbəyi deyilik və heç vaxt olmayacağıq. Öz haqqımızı tələb edirik, qoruyuruq, bir-birimizi dəstəkləyirik,

Bir-birimizi qoruyuruq. Baxın, Türkiyə və Azərbaycan 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışlar və rəsmi müttəfiq olmuşlar. Yəni bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır. Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq. Bir məsələ çıxan kimi, necə deyərlər, avtomatik rejimdə, gözüyumulu bir-birimizin yanındayıq. Bu birlik bütün Türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz.

***

Qazaxıstan Parlamenti Məclisinin sədri **Yerlan Koşanov** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, səmimi qəbula görə çox sağ olun. Mən də Sizə Prezidentimiz Kasım-Jomart Kemeleviç Tokayevin salamlarını və səmimi arzularını çatdırmaq, həmçinin Sizi bu yaxınlarda qeyd olunan Azərbaycanın Müstəqillik Günü münasibətilə təbrik etmək istərdim.

Həqiqətən, Azərbaycan müstəqillik illərində çox böyük uğurlar qazanıb. Biz buna sevinirik, bunu görürük və qazax qardaşlarınız olaraq buna həqiqətən də şadıq. Bu gün Azərbaycan gələcəyə inamla baxan dinamik dövlətə çevrilib. Bakı bunun bariz nümunəsidir. Biz buraya səfər etməyi sevirik, qazaxlar Bakıya gəlməyi xoşlayırlar. Bilirsiniz, bir çox soydaşımız buraya tez-tez gəlir, onlar təkcə dincəlmək üçün gəlmirlər, burada əsl dost və qardaşlarla görüşürlər. Buna görə də qazaxıstanlılar bura gəlməyi sevirlər, bunu mən də sevirəm, ailəm də buraya gəlir. Bu səbəbdən də bu gün Bakıya səfər etməyimə çox şadam. Bakı bu gün həqiqətən də Azərbaycanın qüdrətini, firavanlığını göstərir və təcəssüm etdirir.

Sizin düşünülmüş strategiyanızın əsas nailiyyəti ölkənizin ərazi bütövlüyünün tam bərpası olub. Bu gün bu barədə danışıldı, Prezidentimiz burada olanda da bu barədə danışdı. Biz də Qazaxıstanda bu hadisəyə ürəkdən sevinirik.

Bu gün həm Qazaxıstan, həm də Azərbaycan arasında qarşılıqlı əlaqələr, deyə bilərəm ki, nümunəvidir. Uğurumuzun açarı Sizinlə Prezidentimiz Kasım-Jomart Kemeleviç Tokayev arasında etimada əsaslanan dialoqdur. Siz artıq iki dəfə Qazaxıstanda olmusunuz, bu il Prezidentimiz dövlət səfərində olub. Nümayəndə heyətimiz çox xoş təəssüratla qayıtdı. Həqiqətən də Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın iclasının keçirilməsi tarixi hadisə oldu. Bu, doğrudan da böyük hadisə idi.

Sizi tezliklə Şanxay Əməkdaşlıq Təşkilatının toplantısında gözləyirik və Mərkəzi Asiya liderlərinin məşvərət görüşü də olacaq. Sizin həmkarlarınız da orada olacaq. Prezidentimiz Türk Dövlətləri Təşkilatının iclasında, eləcə də bu gün müzakirə edilən COP29 sammitində iştirak etməyi planlaşdırır. Qazaxıstan və Azərbaycan parlamentləri də bütün həmkarlarımızla olduğu kimi çox sıx əməkdaşlıq edirlər. Sahibə Əli qızı ilə həmişə əlaqə saxlayırıq və bütün dövlətlərarası çoxtərəfli görüşlərdə, tədbirlərdə demək olar ki, eyni mövqedən çıxış edirik. Həqiqətən də, Sahibə Əli qızı ilə çox sıx əməkdaşlıq edirik.

Bu il Azərbaycan TÜRKPA-ya sədrlik edir. Sizə uğurlar, nailiyyətlər, səmərəli sədrlik və qarşıya qoyduğunuz məqsədlərə çatmağınızı arzulayıram.

Ölkələrimiz də ardıcıl, sülhsevər siyasət yürüdürlər. Bu yaxınlarda Almatıda Azərbaycanla Ermənistan arasında birbaşa danışıqlar aparılıb. Qazaxıstan belə bir platforma təqdim etməkdən məmnun idi. Biz gələcəkdə bütün bu məsələlərdə əlavə yardım göstərməyə hazırıq. Biz də sizin kimi regionda sülhün və sabitliyin bərqərar olmasında maraqlıyıq.

Bir daha Sizə minnətdarlığımı bildirmək və qardaş Azərbaycanın möhkəmlənməsinə və tərəqqisinə yönəlmiş yüksək missiyanızda uğurlar arzulamaq istərdim. Çox sağ olun!

***

**Prezident İlham Əliyev** dedi:

– Sağ olun. Hörmətli Kasım-Jomart Tokayevə mənim ən xoş arzularımı çatdırın.

Sizin də qeyd etdiyiniz kimi, onun Azərbaycana dövlət səfəri çox uğurla, yaxşı nəticələrlə keçdi. Biz həmçinin, bildiyiniz kimi, səfər çərçivəsində Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini açdıq. Bu, artıq qardaş ölkələrin Füzuli şəhərinə ikinci hədiyyəsidir. Birincisi – ötən ilin avqustunda biz Şavkat Miromonoviçlə Uluqbəy adına məktəbin açılışını etmişdik. Ona görə də indi Füzulidə uşaqlar Uluqbəy adına məktəbə, dərsdən sonra isə Kurmanqazı adına Yaradıcılıq Mərkəzinə gedirlər. Bilirsiniz, bunlar məhz bizim danışdıqlarımız və istədiklərimizdir: qoy xalqlarımız daim bir-birinin dəstəyini hiss etsinlər. Heç də az olmayan vəsaitə başa gələn bu iki çox böyük təhsil ocağı qardaşlarımızın hədiyyəsidir, həmişəlik orada qalacaq. Kim orada təhsil alacaqsa, orada yaradıcılıq hazırlığı keçəcəksə, qardaş ölkələrlə bu əlaqələr onları əbədi olaraq bağlayacaq. Bax bu, bizim birlikdə qoyduğumuz mirasdır.

Əlbəttə, mən Qazaxıstan Prezidenti ilə yeni görüşləri səbirsizliklə gözləyirəm. Qeyd etdiyiniz kimi, bu il Qazaxıstanda iki tədbir var, mən də onlara dəvət almışam. Çox minnətdaram. Kasım-Jomart Kemeleviçin iştirak edəcəyi iki tədbir də var – Şuşada və Bakıda. Ancaq bununla yanaşı, başqa platformalarda da əlaqələrimiz olacaq. Biz razılaşdıq ki, mütəmadi səfərlər edək. Əlbəttə ki, dövlət səfəri xüsusi statusdur, amma həm də işgüzar səfərlər çərçivəsində əlaqələri daim davam etdirməliyik.

Mən, həmçinin Qazaxıstan tərəfinin Azərbaycan ilə Ermənistan arasında danışıqlara imkan yaratmaq təşəbbüsünə görə minnətdarlığımı bildirirəm. Biz bunu dərhal böyük minnətdarlıqla qarşıladıq. Bildiyiniz kimi, danışıqlar prosesi müəyyən nəticələrlə davam edir. Demək olmaz ki, biz bütün məsələlərdə razılığa gəldik. Amma yəqin ki, belə qısa müddətdə bunu gözləmək çətin olardı. Çünki 28 ildir ki, ATƏT-in Minsk qrupu bir santimetr belə irəli getməyib, 28 il ərzində bir məsələ də razılaşdırılmayıb. Ona görə də indi, il yarımdan sonra bütün məsələlərin razılaşdırılacağını gözləmək, təbii ki, bir qədər sadəlövhlük olardı. Ancaq vacibdir ki, proses olsun, onun dinamikası olsun və bir çox məsələlər razılaşdırılsın. Amma yenə də deməliyəm ki, bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim heç vaxt heç bir ölkəyə, o cümlədən Ermənistana qarşı ərazi iddiamız olmayıb və yoxdur. Onların bizə qarşı ərazi iddiaları var idi. Məhz onların konstitusiyasına sonradan daxil olan müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var. Məhz onların ideologiyasında, siyasətində və ictimai diskursunda Türkiyəyə qarşı ərazi iddiaları davamlı olaraq eşidilir. Azərbaycanlılar və türklər məhz onların cəmiyyətində kiçik yaşlarından düşmən obrazında təqdim edilirlər. Millətçilər və hərbi cinayətkarlar tərəfindən zəhərlənən onların cəmiyyətidir. Ona görə də onlar bu məsələlərlə məşğul olmalıdırlar. Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil. Biz bu sualı qaldıranda mən dedim və yenə də demək istəyirəm, ona görə yox ki, biz onların daxili işlərinə qarışırıq, qətiyyən yox, amma bu, bizə aiddir. Onların bizə qarşı ərazi iddiaları olduğu bir vaxtda biz Ermənistanla sülh sazişi bağlaya bilmərik. Həm də, bilirsiniz, daha sonra deməliyəm ki, sırf praktiki baxımdan, hətta xəritəyə baxın, Ermənistan orada hansı yeri tutur, Türkiyə hansı yeri tutur. Sadəcə olaraq, iki ölkənin hərbi potensialını, demoqrafik potensialını, iqtisadi potensialını müqayisə edib sonra Türkiyəyə qarşı ərazi iddiası irəli sürmək intihar etmək deməkdir. Yaxud, 2020-ci və 2023-cü illərin hadisələrindən sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək də, ümumiyyətlə, intihara yaxındır. Ona görə də onlar öz ideologiyalarını, cəmiyyətdəki əhvali-ruhiyyəni dəyişməlidirlər. Bu, zaman tələb edir. Onlar revanşizm ideyalarından tamamilə imtina etməlidirlər və biz görürük ki, belə ideyalar təkcə müxalifətdə deyil, iqtidarda da var. Bütün bu məsələlər, təbii ki, aydınlaşdırılmalı və tənzimlənməlidir. Ancaq yenə də demək istəyirəm ki, biz sülh sazişinin bütün bəndlərinin BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq razılaşdırılması istiqamətində konstruktiv işə sadiqik.

Bu prosesi dəstəklədiyinə və belə görüşlərin keçirilməsinə gözəl şərait yaratdığına görə Qazaxıstan tərəfinə bir daha təşəkkürümü bildirirəm.

**Yerlan Koşayev:** Dövlət başçısına çatdıracağam.

**Prezident İlham Əliyev:** Zəhmət olmasa, çatdırın.

**Yerlan Koşayev:** Çox sağ olun!

***

Macarıstan Milli Assambleyası sədrinin müavini xanım **Marta Matrai** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident!

Mən də Sizi salamlamaq istərdim. Sizə parlamentin spikeri Laslo Köverin salamlarını çatdırmaq istərdim. Təəssüflər olsun ki, o, gələ bilmədi. Çünki Macarıstanda Avropa Parlamentinə seçkilər keçirilir və əhalinin 98 faizi sülhün tərəfdarıdır. Ona görə də parlamentin spikeri, təəssüflər olsun ki, gələ bilmədi, bu görüşdə iştirak edə bilmədi. Eyni zamanda, bizim Baş nazirimiz cənab Viktor Orbanın salamlarını çatdırıram. O da Şuşa şəhərindəki Zirvə görüşündə iştirak edəcək.

Mən onu qeyd edim ki, biz TÜRKPA ölkələri ilə qardaşlıq əlaqələri qururuq. Bizim köklərimiz, soyumuz birdir. Bundan sonra da biz bütün səyləri göstərəcəyik ki, bu təşkilatın üzvü olan dövlətlərlə qardaşlıq əlaqələrimizi təmin edək, onu möhkəmləndirək.

Biz, eyni zamanda, gələcək nəsillər üçün mirasın yaradılmasında iştirak edirik. Biz, həmçinin Qarabağda da bərpa işlərində iştirak edirik. Azərbaycan Macarıstan üçün strateji tərəfdaşıdır. 2023-cü ildə Siz Macarıstanda səfərdə oldunuz və o zaman strateji tərəfdaşlıq haqqında da sənəd imzalandı. Bu da o deməkdir ki, biz Azərbaycan ilə Macarıstan arasında təkcə iqtisadiyyat sahəsində deyil, mədəniyyət və humanitar sahələrdə də ən yüksək səviyyədə əməkdaşlıq qura bilmişik. Bizim müxtəlif layihələrimiz ən yüksək səviyyəyə qaldırılır. Biz müxtəlif istiqamətlərdə – sənaye, energetika, informasiya texnologiyaları sahələrində təcrübə mübadiləsi aparırıq. Biz çox sevinirik ki, gənclərimiz də təmaslara can atırlar. Mən çox şadam ki, Sizin də tələbələriniz Macarıstana gəlir. İki yüzə yaxın azərbaycanlı tələbə hər il Macarıstanda təhsil alır. Bizim üçün çox sevindiricidir ki, Azərbaycandan olan tələbələr orada təhsil alırlar.

(ardı 4-cü səhifədə)

# Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib

(əvvəli 3-cü səhifədə)

Gələn aydan etibarən Macarıstan altı ay ərzində Avropa İttifaqında sədrlik edəcəkdir. Ona görə də türk dövlətləri ilə əlaqələrimizi qurmaqda, gücləndirməkdə davam etmək bizim üçün çox vacibdir. Biz bu əlaqələrə xüsusi olaraq diqqət yetirəcəyik. Biz Azərbaycanı ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməsi ilə bağlı təbrik edirik və Sizi əmin edirəm ki, bundan sonra da bizim dəstəyimizə arxalana bilərsiniz. Ölkələrimiz arasında birbaşa uçuşlar var. Bu uçuşlar "Wizz Air" şirkəti tərəfindən həyata keçirilir. Ümidvarıq ki, gələcəkdə də belə müxtəlif fürsətlərdən istifadə edəcəyik.

Cənab Prezident, Sizə işlərinizdə uğurlar arzulayıram. Ümid edirəm ki, biz tezliklə yenə də görüşəcəyik. Müşahidəçi qismində biz burada olmağımızdan çox böyük məmnunluq duyuruq.



***

**Prezident İlham Əliyev** dedi:

– Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı həm Baş nazirə, həm parlament sədrinə çatdırasınız. Macarıstanın Türk Dövlətləri Təşkilatına müşahidəçi olması bizi çox sevindirdi. Bu gün Macarıstan bu təşkilatda çox fəaldır. Bilirəm ki, Macarıstanın həm Azərbaycanla, həm də digər Türk dövlətləri ilə çox genişmiqyaslı əməkdaşlığı var. Bir çox investisiya layihələri icra edilir, ticarət dövriyyəsi artır, yəni biz Macarıstanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndiririk.

Dediyiniz kimi, Azərbaycan ilə Macarıstan strateji tərəfdaşlardır, müvafiq sənədlər də imzalanıb. Eyni zamanda, biz bir çox sahələrdə fəal işləyirik. Macarıstan bizim Avropa İttifaqındakı bir nömrəli tərəfdaşımızdır və bəzi hallarda Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüləndə birinci bizim müdafiəmizə Macarıstan qalxır. Bilirəm ki, buna görə Macarıstan da bəzi Avropa ölkələri tərəfindən təzyiqlərlə üzləşir. Ancaq Macarıstanın prinsipial mövqeyi, haqqın, ədalətin yanında olması, beynəlxalq hüquqa hörmətlə yanaşması onun beynəlxalq nüfuzunu böyük dərəcədə artırır.

Düzdür, bizim Avropa İttifaqı ilə münasibətlərimiz müsbət xarakterizə oluna bilər. Ancaq İkinci Qarabağ müharibəsindən və xüsusilə keçən ilin antiterror əməliyyatından sonra bəzi Avropa ölkələri bizə qarşı əsassız və vicdansız hücumlara başlayıb. Azərbaycanı ləkələmək, bizim işimizə kölgə salmaq, ağa qara, qaraya ağ demək, işğalçını dəstəkləmək, işğala məruz qalanları isə ləkələmək Avropa İttifaqının bəzi üzv ölkələri üçün həyat tərzinə çevrilib. Bunun təməlində heç də beynəlxalq hüququn normaları deyil, şəxsi xəstə ambisiyalar dayanır. Əfsuslar olsun ki, Avropada xüsusi yerə malik olmaq üçün can atan bəzi ölkələr anti-Azərbaycan qruplaşmanı da yarada bilmişlər. Avropa İttifaqına üzv olan ən azı üç ölkə bu gün Azərbaycana qarşı soyuq müharibə elan edib. Onların adları bəllidir. Macarıstan burada təkcə öz dostunu müdafiə etmir, haqqı, ədaləti müdafiə edir. Mən Avropadan gələn qonaqlara dəfələrlə demişəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, o ərazi bütövlüyünü ki, siz də onu tanımısınız, bütün dünya da tanıyıb. O ərazi bütövlüyünü ki, BMT Təhlükəsizlik Şurası işğala son qoyulması üçün 4 qətnamə qəbul edib. Ancaq BMT bir şey edə bilmədi, Avropa İttifaqı bir şey etmək istəmədi, ATƏT və onun Minsk qrupu faktiki olaraq işğalçı Ermənistanın əlində bir anti-Azərbaycan alətə çevrilmişdi. Biz 28 il gözlədik. Biz sülh yolu ilə bunu həll etmək istədik. Amma biz gördük ki, bizə qarşı çıxanlar bu işğalı əbədi etmək istəyirlər. Onlar Ermənistandan Cənubi Qafqazda bir alət kimi istifadə etmək istəyirdilər ki, Ermənistan bütün qonşularına qarşı hücumlara keçsin. Biz haqqı bərpa etdik, öz ərazi bütövlüyümüzü müdafiə etdik, suverenliyimizi bərpa etdik. Yəni Macarıstan buna görə bizi müdafiə edir. Azərbaycan olmasın, istənilən başqa ölkə olsun, əgər o, haqq yolundadırsa, əminəm ki, bugünkü Macarıstan Hökuməti onun yanında olacaq.

Bilirəm ki, Avropa İttifaqında siz böyük təzyiqlərə məruz qalırsınız. Bu da Avropa məkanındakı elan edilmiş demokratik prinsiplərin tamamilə pozulmasıdır. Macarıstana qarşı sanksiyalar tətbiq edildi? Edildi. Macarıstana çatacaq vəsaitdən Macarıstan məhrum edildi? Edildi. Nə üçün? Çünki Macarıstan ənənəvi dəyərləri müdafiə edir. Öz əhalisini müdafiə edir. Zərərli təsirdən öz gənclərini qoruyur. Ailə dəyərlərini ən yüksək dəyər kimi bəyan edir. Buna görə bu ənənəvi dəyərlərə qarşı olanlar və dünyanı uçuruma aparanlar Macarıstana qarşı sanksiyalar tətbiq edirlər. Bu, ağlasığmaz bir məsələdir. NATO-nun üzvü olasan, Avropa İttifaqının üzvü olasan, Avropanın mərkəzində yerləşəsən, öz siyasətini aparmaq istəyən bir ölkəyə sanksiya tətbiq edilir. Bəs, demokratiya haradadır? Hamı eyni fikirdəmi olmalıdır? Hamı orada bəzi Qərb ölkələrində oturanların sözü iləmi oturub-durmalıdır? Kim onlara bu haqqı qazandırır? Onların keçmişi heç də onlara şərəf gətirmir. Onların keçmişi qanla doludur. Onların keçmişi müstəmləkəçilikdir. Onların keçmişi xalqlara əzab verməkdir, qanunsuz işğaldır. Bu gün də müstəmləkəçilik siyasəti Avropa İttifaqında davam edir. Amma kimsə onlara irad tutur? Yox. Ona görə Macarıstan mübarizənin ön cəbhəsindədir və mən dəfələrlə dostum Viktor Orbana demişəm ki, sizə daha çətindir. Biz burada yerləşmişik, biz Avropa deyilik, necə deyərlər, Avropa ailəsinə girmək də istəmirik, istəsəydik də heç kim bizi oraya buraxmazdı. Ona görə biz burada yaşayırıq, heç kimin, necə deyərlər, sözü ilə oturub-durmuruq, heç kimə imkan vermirik ki, gəlsin buraya bizim işimizə müdaxilə etsin. Mənə dəymə, mən də sənə dəymərəm. Sən mənə dəyəcəksənsə, onda gözlə, sənin də başın ağrıyacaq. Amma Macarıstan orada yerləşir və hər gün təzyiqlərə məruz qalmaq nə qədər çətindir, bunu mən bilirəm. İndi Macarıstan Avropa İttifaqına sədrlik edəcək. İndidən artıq Macarıstana qarşı plan cızılır ki, bu sədrlik, necə deyərlər, sarsılsın və bu sədrlikdən Macarıstan necə məhrum edilsin.

Biz bütün bunları görürük, bilirik və sizin hökumətinizə, ölkənizə bilin ki, nəinki Türk dünyasında, dünyada hörmət daha da artır. Sizə iradə, – o da var, qüvvət, – o da var, yaxşı dostlar, – o da var, – arzulayıram ki, siz necə varsınız, həmişə elə də qalasınız.

***

**Marta Matrai**: Çox sağ olun, cənab Prezident. İcazənizlə, sonda bir məqamı diqqətə çatdırım. Siz çox gözəl qeyd etdiniz ki, Macarıstan çətin vəziyyətdədir. Ancaq Allah bizim tərəfimizdədir. Biz sona qədər mübarizə aparacağıq. Bizim Viktor Orbanımız və hökumətimiz əlindən gələni son məqama qədər müdafiə edəcək. Sizin dostluğunuza ümid edirik.

***

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri **Zorlu Töre** çıxış edərək dedi:

– Hörmətli cənab Prezidentim İlham Əliyev.

İlk növbədə, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti cənab Ersin Tatardan və Kipr türk xalqından Sizə və digər Türk Dövlətləri Təşkilatında yer alan TÜRKPA üzvlərinə sevgilərimizi və salamlarımızı çatdırırıq.

Təbii ki, Kipr türk xalqı da türk millətinin bir hissəsidir. Biz hamımız türkük və türk millətiyik. Birik, bərabərik və hamımız qardaşıq. Ayrımız-qeyrimiz yoxdur, kədərdə, sevincdə, qayğıda bir və bərabər olmalıyıq.

Təbii ki, Türkiyə bizimlə kədərdə, sevincdə, qayğıda bir və bərabər olmasaydı, 20 iyulda, yəni 50 il əvvəl Mutlu Sülh Hərəkatı reallaşmazdı və bu gün Kiprdə bir türk dövləti qurulmazdı.

Mən Kiprin Larnaka şəhərində doğulmuşam və yunanlar Larnakada bir abidə inşa etdilər, bu, erməni abidəsidir. Onlar bu erməni abidəsini qəbul edirlər, soyqırımı olaraq qəbul edirlər və soyqırımını inkar edənləri suçlu elan edirlər və həbs edilmələri üçün qanun qəbul etdilər.

Təbii ki, 20 iyul Mutlu Sülh Hərəkatı həyata keçiriləndə, daha sonra Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyini elan etdikdə Türkiyəmiz çox təzyiqlərə məruz qaldı. Amma Türkiyə həmişə Şimali Kipr türk xalqının yanında yer aldı. Ruhdan düşmədik, davam edirik, azadlığımız davam edir.

İndi Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv oldu. Ümid edirəm, Şimali Kipr Türk Cümhuriyyəti ən yaxın zamanda əsl üzvlüyə də keçər. Çünki biz əsl üzvlüyə keçsək, bəlkə o zaman Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı, Amerika təzyiqdən vaz keçər və artıq Şimali Kipr Türk Cümhuriyyəti davamlı hala gələr. Belə olduqca onlar təzyiq göstərməkdə davam edirlər və Kiprdə bir federasiya formalaşmasını, birləşmiş Kipr olmasını, amma unitar bir Kipr olmasını istəyirlər ki, özləri hegemon ola bilsinlər, Kipr adasının hamısına nəzarət edə bilsinlər.

Bizə embarqolar tətbiq edirlər. Yəni bu gün iqtisadiyyatda embarqo var, idman sahəsində embarqo var. Bizim gənclərimiz idman edə bilmirlər. UEFA-nın, FIFA-nın təzyiqi altındayıq və Türkiyə burada gəlib futbol matçı da keçirə bilmir, məşq də edə bilmir. Bu utanc, əslində, beynəlxalq təşkilatlara, UEFA-ya, FIFA-ya aiddir. Beləliklə, ümid edirəm, inşallah, Türk Dövlətləri Təşkilatı arasında idman fəaliyyətləri olar və Şimali Kipr Türk Cümhuriyyəti də buna qatılar.

Mədəni sahədə əməkdaşlığımız artıq indi başlayıb. Amma bunu genişləndirmək, böyütmək lazımdır. İqtisadiyyat, enerji, təhsil sahələrində türk dövlətləri ilə birlikdə daha dərin əlaqələr içərisində olarıq və Şimali Kipr Türk Cümhuriyyəti də dayanıqlı şəkildə, sağ-salamat yoluna davam edər.

Təbii ki, biz Azərbaycana xüsusilə təşəkkür edirik. Çünki Şimali Kipr Türk Cümhuriyyəti parlamenti ilə dostluq qrupu yaradıldı. Bu dostluq qrupu bizə – Şimali Kipr Türk Cümhuriyyətinə səfər etdi, Türkiyə Cümhuriyyəti dostluq qrupu ilə birlikdə səfər etdilər.

Düşünürəm ki, bizim irəliyə yolumuz açıqdır. Qarabağda şəhidlər verdik, amma nəticədə oranı yenidən Vətən etdik. Sevincimiz çox böyükdür, xoşbəxtliyimiz çox yüksəkdir. İnşallah, gələcəyimiz daim birlikdə parlaq olacaqdır.

Türk Dövlətləri Təşkilatı birlik yaratdığı zaman bunu niyə pozmaq istəyirlər? Biz bu oyuna aldanmamalıyıq. Bizim aramıza təfriqə, ayrılıq-qeyrilik salmasınlar. Bir olaq, iri olaq, diri olaq və güclü olaq. Düşmənlərimiz bizdən çəkinsinlər. Nüfuzlu olaq. Biz güclü olsaq, bir olsaq, nüfuzlu olarıq və bizə hücum edə bilməzlər, təzyiq göstərə bilməzlər, təzyiqdən vaz keçərlər. Hamınıza çox dərin sevgilərimi, ehtiramımı bildirirəm. Bu günləri gördüyümüz üçün Allaha şükür edirəm. Sağ olun, var olun.

***

**Prezident İlham Əliyev** dedi:

– Sağ olun, təşəkkür edirəm! Mənim salamlarımı hörmətli Ersin Tatara çatdırın, lütfən. Onunla mən dəfələrlə görüşmüşəm, o cümlədən Bakıda. Siz bilirsiniz ki, burada Şimali Kipr Türk Cümhuriyyətinin mədəniyyət günləri keçirilmişdir və hörmətli Ersin Tatar gəlmişdi və görüşmüşdük. Onu mən Zirvə görüşünə də dəvət etdim və gələn ay bizim qonağımız olacaq. Bilirsiniz ki, Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatında müşahidəçi olması ilə əlaqədar Azərbaycan çox fəal çalışırdı, fəal diplomatik səylər göstərmişdir və çox şadam ki, artıq birinci addım atıldı. O ki qaldı, Şimali Kipr Türk Cümhuriyyətinin tamhüquqlu üzvə çevrilməsinə, Azərbaycan olaraq biz bunu dəstəkləyirik. Bu, təbii olar. Şimali Kipr Türk Cümhuriyyəti tarix nöqteyi-nəzərindən Türk dünyasının bir parçasıdır. Orada yaşayan türklər bizim qardaşlarımızdır. Azərbaycanın bu sahədəki siyasəti hər zaman birmənalı olub. Əminəm ki, Şuşadakı Zirvə görüşünə Ersin bəylə bərabər böyük heyət gələcək və orada müzakirə ediləcək məsələlər birliyimizi daha da gücləndirəcək.

Bilirsiniz, bugünkü Türk Dövlətləri Təşkilatının tarixçəsinə baxsaq görərik ki, bu, böyük yol keçmiş bir təşkilatdır. Sovet İttifaqı dağılanda Türkiyənin təşəbbüsü ilə belə bir əməkdaşlıq, işbirliyi çərçivəsi yaradıldı. Mən 20 ildir ki, ölkə Prezidenti kimi bu prosesdə fəal iştirak edirəm. Bu 20 il ərzində mən bizim təşkilatımızın müxtəlif mərhələlərini nəinki görmüşəm, bunu yaşamışam. Müxtəlif dövrlər var idi. Vaxt var idi ki, Zirvə görüşləri bir neçə il keçirilmirdi. Vaxt var idi müxtəlif səbəblərə görə ölkələrin bəziləri bu quruma o qədər də böyük maraq göstərmirdi. Ancaq mən bildirməliyəm, bunu indi hər kəs bilir, Azərbaycan olaraq bütün bu 20 il və ondan əvvəl rəhmətlik atamın dövründə Azərbaycan bu qurumun möhkəmləndirilməsi, birləşməsi və təşkilata çevrilməsi işində çox fəal idi. Təsadüfi deyil ki, bugünkü Türk Dövlətləri Təşkilatının təşkilata çevrilməsi prosesi də Naxçıvanda başladı. Mənim təşəbbüsümlə Zirvə görüşünün qədim Türk dünyası olan Naxçıvanda keçirilməsi böyük məna daşıyırdı. Orada əldə edilmiş qərarlar əsasında biz inkişaf edirik və ondan sonra bu şuranın təşkilata çevrilməsi müəyyən zaman tələb etmişdir. Amma bu gün Allaha şükürlər olsun ki, bu təşkilat var.

Bu təşkilatın gələcək fəaliyyəti üçün birinci təşəbbüsü yenə də Azərbaycan göstərdi. Biz bu yaxınlarda bəyan etmişdik ki, Türk Dövlətləri Təşkilatının fəaliyyətini gücləndirmək üçün mövcud büdcə yetərli deyil və Azərbaycan birtərəfli qaydada 2 milyon Amerika dolları əlavə töhfə, yəni ianə verib. Zirvə görüşünə, yəni gələn aya qədər bu vəsait Türk Dövlətləri Təşkilatının hesabına oturacaq. Bu, nəyi göstərir? Çünki biz bu təşkilatı gücləndirməliyik. Zirvə görüşləri təbii ki, ən yüksək səviyyəli tədbirdir, TÜRKPA önəmli tədbirdir. Bizim TÜRKSOY-umuz var. Bizim Türk Mədəniyyəti və İrsi Fondumuz var, digər təsisatlar var, akademiyamız var, ona görə təşkilat daha da böyüməlidir. Həm orada hər ölkədən daha çox insan çalışmalıdır, həm də bu təşkilatın beynəlxalq əlaqələri gücləndirilməlidir. Biz bütün beynəlxalq tədbirlərdə iştirak etməliyik. Yəni bizim yolumuz budur. Əminəm ki, gün gələcək Şimali Kipr Türk Cümhuriyyəti də təşkilatın tamhüquqlu üzvünə çevriləcək. Yenə də deyirəm, Azərbaycan bu gün buna ikiəlli səs verir və bu, birliyimizin nə qədər səmimi olmasını bir daha göstərəcək.

Bir çox ittifaqlar var, birliklər var. Bu, doğrudan da belədir. Onların tarixi bizimkindən daha böyükdür. Biz indi yeni addımlar atmağa başlamışıq. Ancaq bəlkə də tarixdə bu qədər sürətlə inkişaf edən ikinci bir təşkilat olmayıb. Ona görə bu gün biz birinci mərhələdəyik. Amma bütün səylərimiz, bu gün danışdığımız mövzular - bütün bunlar cəmiyyətlərə ciddi bir mesaj olacaq. Bax, bizim yolumuz budur və müstəqil ölkələr kimi rahat yaşamaq üçün birlik daha güclü olmalıdır. Sizi də salamlayıram, lütfən, Ersin bəyə də səmimi salamlarımı çatdırın.

***

Qırğızıstan Joqorku Keneşinin sədri **Nurlanbek Şakiyev** çıxış edərək dedi:

– Sağ olun, cənab Prezident! Qırğızısan parlamentinin nümayəndə heyəti artıq üç gündür ki, Bakıdadır. Səmimi qəbula və qonaqpərvərliyə görə hörmətli azərbaycanlı həmkarlarımıza dərin minnətdarlığımızı bildiririk.

Sahibə xanımla bizim parlamentlərarası əməkdaşlıq məsələlərinə dair çox geniş söhbətimiz oldu.

Dünən Qarabağda, Şuşa şəhərində olduq. Çox şad idik, bura çox gözəl, dünyanın ən gözəl torpaqlarıdır.

Bütün həmkarlarıma deyirəm ki, mütləq Şuşa şəhərində olun və hər şeyi öz gözlərinizlə görün. Bizdə belə bir atalar sözü var, "Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır".

Sizin qəhrəmanlığınızı yüksək qiymətləndirir və onunla fəxr edir, eyni zamanda, dəstəkləyirik.

Bu torpaq Ulu Tanrının köməyi ilə 30 il ərzində bütün Azərbaycan xalqının və rəhbərlərinin böyük dözümlülük nümayiş etdirməsindən sonra həqiqi, əsl sahiblərinə və qanunla ona məxsus olanlara qayıtdı.

Bu gün biz Azərbaycanda TÜRKPA-nın toplantısında iştirak etməyimizə görə çox şadıq və bu, Sizin böyük xidmətləriniz, töhfənizdir.

Təşkilatın fəaliyyətinin nəticələrinə əsasən, biz Sizin gördüyünüz böyük işlərin şahidi olur və onları yüksək qiymətləndiririk.

Hörmətli Prezidentimiz Sadır Japarov Sizə salamlarını göndərib, iki ay əvvəl onun çox səmərəli dövlət səfəri baş tutub.

O, burada imzalanmış sənədlərdən, Sizinlə əldə olunan razılaşmalardan danışdı, biz bu məlumatları məmnuniyyətlə qəbul etdik.

Bu gün Qırğızıstan–Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Biz münasibətlərimizin inkişafı üçün qarşılıqlı səy göstərməliyik və inanıram ki, gələcəkdə əlaqələrimiz daha da yüksək və yaxın olacaq.

***

**Prezident İlham Əliyev**: Mənim də salamlarımı hörmətli Sadır Nurqojoyeviçə çatdırın. Qeyd etdiyiniz kimi, Azərbaycanda dövlət səfərində idi və onunla bərabər Füzuli və Ağdam şəhərlərinə getmişdik. Bir aydan sonra yenə də bizim qonağımız olacaq, o da Şuşanı görəcək. Bilirəm ki, siz dünən Şuşada idiniz və qeyd etdiyiniz kimi, o görüntülər sizdə çox gözəl təəssürat yaradıb. Şuşa doğrudan da gözəl şəhərdir və indi də dirçəlir. İşğal dövründə – 28 il ərzində Şuşada bir daş daş üstə qoyulmadı. Orada gördüyünüz bütün o köhnə binalar sovet vaxtında inşa edilən binalardır və yeni binalar isə son üç ilin əsərləridir.

Qırğızıstanla bizim əlaqələrimiz qardaşlıq əsasındadır. Mənim Qırğızıstana dövlət səfərim çərçivəsində çox önəmli qərarlar qəbul edildi. Biz indi çox genişmiqyaslı əməkdaşlıq edirik. Bilirsiniz ki, Azərbaycan–Qırğızıstan İnvestisiya Fondu yaradıldı. Söz düşmüşkən onu da bildirməliyəm ki, bizim Özbəkistanla və Qazaxıstanla da buna oxşar investisiya fondlarımız var. Qırğızıstan Prezidenti öz təşəbbüsü ilə Ağdam rayonunda bir məktəbin tikintisinə də dəstək göstərdi və onun təməlini biz birlikdə qoymuşuq. Bütün bunlar qardaşlıq təzahürləridir.

Bu gün Qırğızıstanda aparılan islahatlar həm siyasi sahədə, həm də iqtisadi sahədə nəticə verir. Biz bunu görürük. Qırğızıstanda olarkən hörmətli Prezidentlə biz bəzi məktəblərdə də olmuşduq. Sonra o məktəblərin müəllimləri, şagirdləri Azərbaycana dəvət edildi. Yəni gənclər arasındakı mütləq təmaslar olmalıdır. Mən qeyd etmişdim ki, məsələn, Uluqbəy adına məktəb, Kurmanqazı adına İncəsənət Mərkəzi, indi qırğız məktəbi olacaq, macar məktəbi olacaq – bütün bunlar gənclər üçün bir yol göstəricisidir ki, bu birlik əməli işlərdə özünü göstərir.

Təbii ki, siyasi əlaqələr, bir-birimizə dəstəyin verilməsi, beynəlxalq təşkilatlarda bir-birimizə dəstək həddindən artıq önəmlidir, amma, eyni zamanda, digər layihələr də vacibdir. Əminəm ki, gələn ay bütün dövlət başçıları Şuşada birliyimizin yeni bir səhifəsini, inşallah, bərabər açacaqlar. Sizi bir daha salamlayıram. Bir daha xoş gəlmisiniz, sizə xoş səfər arzulayıram.

***

Sonda birgə foto çəkdirildi.

# Azərbaycan–Qırğızıstan əməkdaşlığı Türk birliyinin möhkəmlənməsinə töhfədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Qırğız Respublikasının Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi qəbul edib.**



Nurlanbek Şakiyev Qırğızıstan Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ötən ilin oktyabrında Qırğızıstana səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycan ilə Qırğızıstan arasında İnvestisiya Fondunun yaradıldığı və onun büdcəsinin hazırda daha da artırıldığı qeyd edildi.

Görüşdə Qırğızıstan Prezidentinin Azərbaycana səfəri və səfər çərçivəsində aparılmış müzakirələrin və imzalanmış sənədlərin əhəmiyyəti vurğulandı. Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonunda Qırğızıstan tərəfindən məktəbin inşasının həyata keçirilməsi ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsi kimi qiymətləndirildi.

Nurlanbek Şakiyev Azərbaycanın işğaldan azad olunmuş rayonlarına, xüsusən də Şuşa şəhərinə səfər etdiyini və həmin ərazilərin dünyanın ən gözəl guşələrindən biri olduğunu dedi. O, Azərbaycan xalqının səbirlə otuz ilə yaxın bir müddətdə torpaqlarımızın işğaldan azad edildiyi günü gözləməsinin və buna nail olmasının önəmini vurğuladı. Qonaq torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin inkişafında Prezident İlham Əliyevin liderliyinin yüksək qiymətləndirildiyini qeyd etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının inkişafı, beynəlxalq təşkilatlarda və təsisatlarda Azərbaycan–Qırğızıstan əməkdaşlığının və ölkələrimizin parlamentləri arasında əlaqələrin vacibliyi vurğulandı.

# Azərbaycanın Ümumdünya Ticarət Təşkilatı ilə əməkdaşlığı dərinləşir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edib.**

Görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

Qonaq Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri vurğuladı.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Ümumdünya Ticarət Təşkilatının baş direktoru bu tədbir çərçivəsində Ticarət və Sərmayə Gününün təşkil edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlıq imkanları müzakirə olundu.

***AZƏRTAC***

# Belarusla əlaqələr dinamikləşir

**İyunun 6-da Minskdə Azərbaycan ilə Belarus arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclası keçirilib.**



Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenkonun sədrliyi ilə keçirilən iclasda iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələri də iştirak ediblər.

İclasda tərəflər ikitərəfli əməkdaşlığın gündəliyində duran aktual məsələləri müzakirə ediblər. Azərbaycanın azad edilmiş ərazilərində iqtisadi-ticari, investisiya, sənaye və aqrar sahələrdə, eləcə də təhsil və birgə fəaliyyət istiqamətlərində dövlət başçılarının razılaşma və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib.

İclasın yekunlarına əsasən, Əli Əhmədov və İqor Petrişenko Azərbaycan ilə Belarus arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclasının protokolunu, habelə iki ölkə arasında əməkdaşlığın inkişafı üzrə 2024–2025-ci illər üçün yenilənmiş yol xəritəsini imzalayıblar.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram. Xalqınızın şücaətini, qətiyyətini və gücünü təcəssüm etdirən bu əlamətdar gün ölkənizin tarixində önəmli bir mərhələdir.

Azərbaycanın keçdiyi müstəqillik yolunu xatırlayarkən, dünya bu illər ərzində əldə etdiyiniz nailiyyətləri və irəliləyişləri yüksək qiymətləndirir.

Xalqlarımız arasında münasibətlər qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında qurulub.

Biz Azərbaycanın regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və rifahın təşviqi istiqamətində göstərdiyi səyləri təqdir edirik.

Bu əlamətdar günü qeyd edərkən, Azərbaycanı onun bütün vətəndaşları üçün daha parlaq və firavan gələcəyə aparan fəaliyyətinizdə müstəqillik ruhunun Sizi həmişə ilhamlandırmasını arzulayıram.

Sizi bir daha bu bayram münasibətilə təbrik edirəm.

Qarşıdan gələn illərdə Sizə və Azərbaycan xalqına sevinc dolu bayramlar və davamlı uğurlar diləyirəm.

Zati-aliləri, Sizə ən yüksək qardaşlıq ehtiramlarımı çatdırıram.

**Hörmətlə,**

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

# Baş nazir Əli Əsədovun Almaniyanın iş adamları ilə görüşü



**İyunun 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Almaniyanın "Knauf" Şirkətlər Qrupunun nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə "Knauf" şirkətinin Azərbaycanda uzunmüddətli uğurlu fəaliyyəti barədə məlumat verilib. Həmçinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə olunub.

***XQ***

# Şimal–Cənub Nəqliyyat Dəhlizi dünya qütblərini yaxınlaşdırır

**(əvvəli 1-ci səhifədə)**

Rusiya Prezidenti Vladimir Putin dünya xəbər agentliklərinin rəhbərləri ilə görüşdə Şimal-Cənub Nəqliyyat Dəhlizinin əhəmiyyəti barədə fikir bildirərkən bu nəqliyyat-logistikanın böyük tələbat duyulan beynəlxalq dəhlizə çevrilə biləcəyinə əminliyini ifadə edib. O, eyni zamanda, yüklərin Rusiyadan¬–Sankt-Peterburq limanından Azərbaycana, sonra isə İrana və Fars körfəzinin sahilinə göndəriləcəyini diqqətə çatdırıb. Rusiya lideri daha sonra sözlərinə əlavə edərək bunun Süveyş kanalından, təxminən, 10 gün daha tez olduğunu və layihənin gəlirliliyi ilə diqqət çəkəcəyini bildirib.

Rusiya Prezidenti deyib: "Biz hər iki tərəfdən iş aparırıq. Mən bilirəm ki, Prezident Əliyev bu layihəni dəstəkləyir. Biz bu məsələni onunla dəfələrlə müzakirə etmişik. İran rəhbərliyi də bu layihəni dəstəkləyir. Bu dəhliz çox sərfəli olacağına görə həmin layihəyə xarici investorlar, regional olmayan, lakin yaxın olan ölkələr, o cümlədən suveren ərəb fondları da maraq göstərir. Aydındır, çünki suveren fondlar həmişə etibarlı investisiya sahələri axtarır. Bu layihə etibarlı investisiyalardan biridir, çünki onun gəlirliliyinə təminat və zəmanət var".

Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə bağlı əlavə araşdırmalara ehtiyac duyulduğunu vurğulayan V.Putin sözügedən nəqliyyat-logistika sisteminin Azərbaycanın hansı əraziləri üzrə qurulacağı, onun necə maliyyələşdiriləcəyi, dəhlizin Azərbaycan ərazisindən Qərbə gedən yollarla necə birləşdiriləcəyi, habelə İran ərazisindən keçən bu yolun şaxələndirilmiş hissələrinin necə inşa ediləcəyi barədə müzakirənin aparılması zəruriliyini də xatırladıb.

Yeri gəlmişkən, ötən ayın əvvəlində Rusiya və Azərbaycan arasında Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə bağlı prioritetlər müzakirə edilib. Hər iki ölkə yüklərin stabil daşınmasını təmin etmək üçün zəruri tədbirlər kompleksinin həyata keçirilməsində maraqlı olduğunu və sözügedən dəhlizin prioritetlərini təsdiqləyib.

Xatırladaq bu məsələ Rusiya Baş nazirinin birinci müavini Andrey Belousovla Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev arasında danışıqlar zamanı müzakirə olunub. Müzakirədə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində dəmir yolu infrastrukturunun modernləşdirilməsi üzrə prioritet vəzifələr nəzərdən keçirilib. Eyni zamanda, hər iki ölkənin dəmir yolları ilə yüklərin stabil daşınmasını təmin etmək üçün zəruri tədbirlər kompleksinin həyata keçirilməsində maraqlı olduğu bildirilib. Həmçinin danışıqların yekunu olaraq dəmir yolu daşımalarının və Şimal-Cənub Nəqliyyat Dəhlizi infrastrukturunun inkişafı üçün zəruri olan normativ hüquqi bazanın yaradılması üzrə birgə tədbirlər planı təsdiqlənib.

Xatırladaq ki, 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında Şimal-Cənub Nəqliyyat Dəhlizinin təməli qoyulub. Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Ümumilikdə 13 ölkə tərəfindən sözügedən sənəd ratifikasiya edilib (Azərbaycan, Belarus, Bolqarıstan, Ermənistan, Hindistan, İran İslam Respublikası, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı, Rusiya Federasiyası, Tacikistan, Türkiyə, Ukrayna).

Sözügedən nəqliyyat dəhlizinin yaradılması ilə bağlı müvafiq saziş imzalayan ölkələr qarşısında 2030-cu ilə qədər bu infrastrukturla 30 milyon ton tranzit və ikitərəfli yüklərin daşınması mühüm vəzifə kimi qoyulub. Tərəflərin dəhlizin inkişafı kontekstində öz əraziləri vasitəsilə nəqliyyat və tranzit əməliyyatlarının, habelə prosedurlarının asanlaşdırılması məsələləri ilə məşğul olmaq üçün Birgə İşçi Qrup da yaradılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

Bu gün dünya ticarətində ən önəmli məsələlərdən biri və birincisi yüklərin vaxtında təyinat yerinə çatdırılmasıdır. Belə ki, yük təyinat yerinə nə qədər tez çatdırılarsa, investor da bir o qədər çox mənfət əldə etmiş olar. Bu baxımdan, son illər ərzində dünyada ənənəvi yük daşıma marşurutlarına alternativ layihələrin ortaya çıxması heç də təsadüf deyil. Kapital sahibləri onların yatrımları hesabına qurulmuş müəssisələrdə istehsal olunan məhsulların bazara daha tez çıxarılması yollarını axtarırlar.

Bu sırada yer alan maraqlı yükdaşıma marşurutlarından biri də Şimal- Cənub Beynəlxalq Nəqliyyat dəhlizi ola bilər. Bu dəhlizinin təməli 2000-ci ildə Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Bu günə qədər, ümumilikdə, 13 ölkə sözügedən sazişi ratifikasiya edib. Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub.

Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılması üçün hazırda sərf edilən zamanı 40-42 gündən 18-20 günə qədər – yəni iki dəfə qısaltmaqdır. Bu, yüklərin şimaldan cənub istiqamətində və əksinə daşınması sahəsində zaman baxımından inqilabi bir dönüş demək olacaqdır.

Azərbaycan hökuməti layihənin önəmini yüksək qiymətləndirərək beynəlxalq nəqliyyat dəhlizinin ölkəmizin ərazisindən keçən hissəsində öz üzərinə düşən işlərin vaxtında və yüksək səviyyədə icra edilməsi istiqamətində yaxşı nəticələrə imza atıb.

Lakin bu layihənin başa çatdırılması üçün hələ çox işlər görülməlidir. Bu zaman reallaşdırılacaq tədbirlər təbii ki, layihənin təşəbbüskarlarından biri olan Rusiyanın və marşrutun keçəcəyi digər ölkələrin məsələnin həllinə necə yanaşmasından asılı olacaqdır. Bütün hallarda, müasir şəraitdə yüklərin bir istiqamətdən digər istiqamətə daşınmasına sərf olunan vaxtın iki dəfəyə qədər qısaldılmasını təmin edən bir layihənin gec-tez başa çatdırılacağı şübhə doğurmur. Dünyada gedən proselər, böyük güclərin resurslara və kommunikasiyalara nəzarət uğrunda başlatdıqları mübarizə fonunda bu nəqliyyat dəhlizi də tezliklə qurulub başa çatdırılacaqdır.

Şimal-cənub, şərq-qərb nəqliyyat dəhlizlərini öz üzərindən keçirən Azərbaycan bu marurutların tam gücü ilə işə düşməsi ilə Avroasiya məkanında ən böyük nəqliyyat habına çevriləcəkdir.



## Ekspert rəyi

**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**



Şimal-Cənub Nəqliyyat Dəhlizi bütün region dövlətləri, o cümlədən qonşu İran üçün də mühüm önəm daşıyır. Bu baxımdan təkcə Rəşt-Astara dəmir yolu həm Rusiya, həm Azərbaycan, həm də İran üçün çox əhəmiyyətlidir.

Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xəttinin davamı olan Rəşt-Astara xətti İran, Azərbaycan və Rusiyanın dəmir yolu sistemlərini birləşdirəcək. Avropa və Rusiyadan Hindistana və digər Cənub Şərqi Asiya ölkələrinə yüklər məhz bu yolla daşınacaq. Yüklərin əks istiqamətə də bu yolla daşınması neft ixracatçısı olan Rusiya, İran və Azərbaycanın qeyri-neft sektorunun inkişafına təkan verəcək, bu ölkələr logistika mərkəzinə çevriləcək və büdcəyə əlavə valyuta axını təmin olunacaq.

Bir sıra dövlətlər, o cümlədən Rusiya tərəfindən ilk gündən Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun tezliklə inşa etdirilib başa çatdırılmasına böyük maraq göstərilib. Rusiya tərəfindən bu yolun elektrik xətlərinin çəkilməsi ilə yanaşı, onun tikintisinin sürətləndirilməsi üçün yardım ediləcəyi bildirilib.

Respublikamızın ərazisindən keçəcək bu marşrut Rusiya, Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək. Yol hazır olduqdan sonra hər 3 dövlətin ticarət və tranzit əlaqələri artacaq ki, bu da büdcə gəlirlərinə valyuta axınını reallaşdıracaq.

Planlaşdırılmaya əsasən, mühüm önəm daşıyan bu polad magistral Qəzvin-Rəşt-Ənzəli-Astara marşrutu ilə Azərbaycanın dəmir yolu xəttinə qoşulacaq. Bununla da Şimal-Cənub Nəqliyyat Dəhlizi beynəlxalq əhəmiyyətli dəmir yoluna çevriləcək. Çünki İran dəmir yolu xəttinin sözügedən marşrut ilə Azərbaycana birləşməsi ilə Hindistandan Avropanın Helsinki limanınadək olan 5 min 200 kilometrlik dəmir yolu xətti yaranacaq. Bu, təbii ki, beynəlxalq dəmir yolu xətti sayılacaq. Bu birləşmə ilə yüklərin daşınma müddəti 45 gündən 20 günədək azalacaq, məsafə isə təxminən 3 min kilometr qısalacaq.

Proqnozlara əsasən, layihənin yalnız birinci mərhələsinin başa çatması İranla Azərbaycan arasında yük daşımalarının 10 dəfəyədək artımını təmin edəcək. Bundan başqa, iki ölkənin dəmir yollarının birləşdirilməsilə mal mübadiləsinin həcmi ildə 5 milyon tonadək artacaq.

Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır (hazırkı marşrut üzrə çatdırılma vaxtı 6 həftədən artıqdır, Şimal-Cənub Nəqliyyat Dəhlizi vasitəsilə 3 həftə olması gözlənilir).

# PREZİDENT

## Savaş, söz və quruculuq cəbhələrində



**Sovet İttifaqından qopmaq istəyən respublikaların yolunu kəsmək üçün oyunlar qurulmuşdu. Litvada, Gürcüstanda, Moldovada, Azərbaycanda... Hərəsində bir cür. Ancaq ən qəddar tələ Azərbaycan üçün qurulmuşdu: ermənilərin torpaq iddiası və Dağlıq Qarabağın zorla Ermənistana birləşdirilməsi... SSRİ-nin dağılmasına səbəb olan amillərdən biri də elə bu erməni iddiası olmuşdur.**

1991-ci ildə köhnə Sovet respublikaları tək-tək Moskvadan qopub öz müstəqilliklərini elan edəndə hələ ortada bu yeni dövlətlərin idarəçilik mexanizmləri yox idi. Azərbaycanda və bir neçə başqa respublikada əsrin əvvəllərində qurulmuş cümhuriyyətlərin təcrübəsi hələ tam unudulmamışdı, bərpa prosesi nisbətən asan ola bilərdi. Lakin xalq hərəkatı dalğasında hakimiyyətə gələn liderlərin çoxu kütlə arasında hörmətləri olsa da, yüksək vətən sevgisinə, kommunist rejimindən fərqli təmiz mənəvi dəyərlərə söykənsələr də, idarəçilik təcrübələri yox idi.

O vaxt mən bu barədə yazarkən qeyd etmişdim ki "Bizə miras qalan dövlət köhnə arabaya bənzəyir və biz onun dilini bilmirik. Onu idarə etmək çətindir, ona görə də bu maşını sağa-sola vururuq". Köhnə idarə mexanizmlərini yeniləşdirmədən dövləti qorumaq mümkün deyildi; lakin bu işə böyük iradə, təcrubə intellekt, idarəçilik ağlı, siyasi səriştə tələb olunurdu. Təəssuf ki, bu təcrübə yox idi və nəticədə böyük ümidlərlə və sevgi ilə hakimiyyətə gətirilən xalq qəhrəmanları tezliklə, necə deyərlər, ipin ucunu itirdilər. Respublikaların Moskvaya – mərkəzi hakimiyyətə bağlı olduğu illərdə onlar bəlkə də sakitcə işləyə bilərdilər. Lakin yeni dövrdə, qarşısına xaricdən və daxildən kötüklər itələnən gənc dövlətin idarəçiliyi yüzlərlə suala cavab istəyir, problemin həllini tələb edirdi. Bu yolu tapa bilməyən prezidentlər tezliklə bir-birinin ardınca səhnəni tərk edib getdilər. Qamsaxurdiya və Əbülfəz Elçibəy kimi.

Sonra yeni dövlətlərin köhnə ənənələrdən qopma və keçid dövrü başladı. Azərbaycanda bu dövrə təcrübəli siyasətçi Heydər Əliyev başçılıq etdi. O, sovet dövrünün yetirməsi olsa da, Kreml rəhbərliyinin ikiüzlü siyasətini, ögey-doğmalığı görmüş, bu siyasətin ölkəni üçüruma apardığını, kommunist ideologiyasının sonunun gəldiyini içəridən, ilkin hiss eləyənlərdən biri idi. Buna görə də xalq hərəkatına rəğbətlə yanaşdı, 20 Yanvar qırğınıına görə Moskvadan Kreml rəhbərliyini ittiham etdi, siyasi həyatının Naxçıvandan başlanan növbəti mərhələsində əsas diqqəti dövlət müstəqilliyinin bərpasına verdi, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvanda dalğalandırdı. Səhvlər, çətinliklər, real vəziyyəti görməyənlərə qarşı sərt münasibətlər, də olmuşdu. Düzdür! Lakin başqa cür mümkün deyildi. Əsas dövlətin qorunması idi.

2020-ci ildə İkinci Qarabağ savaşından qələbə ilə çıxan, artıq 30 ilə yaxın ağır, lakin şərəfli dövlətçilik təcrübəsi olan Azərbaycan yeniləşmişdi. Onun ordusu da, əsgəri də, prezidenti də müstəqilliyin nə qədər çətin, məsuliyyətli bir iş olduğunu yaxşı bilirdilər. Və bir də onu yaxşı bilirdilər ki, işğal olunmuş ərazilərimizi geri qaytarmadan bu torpaqda rahat yaşaya bilmərik, kim isə bizim əvəzimizə savaşmayacaq, kim isə bizim üçün ordu qurmayacaq, bizim yerimizə şəhid olmayacaq və böyüklərimizin ruhu qarşısında cavab verməyəcək. 1988-ci ildən başlayan münaqişələr 1994-cü il atəşkəsinə qədər, müəyyən istisnalar nəzərə alınmasa, uduza-uduza gəlmişdik. Lakin savaş meydanındakı məğlubiyyətin təməli hələ sovet dövründə qoyulmuşdu. Düşmən silahlananda və silahlandırılanda bizim əlimizdən ov silahları da yığılmışdı və normal ordu yox idi. Ordu quruculuğundan, sərhədlərdə mühafizə xətləri, səngər qurmaqdan danışanlar lağa qoyulurdu; "erməni kimdir ki, onun qarşısında səngər qazaq". Nəzərə alınmırdı ki, düşmən bu savaşa əsgəri ilə, silahı ilə, generalları ilə çoxdan hazırlaşır. Nəfəs dərib, bu müharibənin gedişini dəyişmək üçün vaxt lazım idi. Düşmən həm psixoloji hazırlığı, həm silahı, həm də beynəlxalq dəstək baxımından bizdən üstün idi. Belə bir durumda BMT qətnamələrinin, ATƏT-in Minsk Qrupunun mənasız səyahətləri və bəyanatlarının heç bir nəticə verməyəcəyini görmək çətin deyildi. Sözdən başqa təsir mexanizmləri olmayan beynəlxalq təşkilatlar öz oyunları ilə bizim başımızın altına yastıq qoyur və nəticədə Ermənistanı müdafiə edirdilər. Bunu Azərbaycanda ağlı olan hər kəs bilirdi və təbii ki, ilk növbədə, bütün səmimi – qeyri səmimi, dürüst və ya riyakar qüvvələrlə üz-üzə dayanan Prezident də bilirdi. Bütün addımlar da bu çıxılmaz görünən labirintdən xalqı və dövləti üzüağ çıxarmaq istiqamətində atılırdı. Və bunun nəticəsində 30 il ərzində dünyanın müxtəlif kanalları ilə şişirdilmiş məğlubedilməz erməni ordusu mifi 44 gün ərzində darmadağın edildi. Müstəqil Azərbaycanın əsl simasını və ləyaqətini dünya həmin günlərdə gördü.

Erməni mifi ilə yanaşı, Azərbaycan prezidenti haqqında bir sıra yalan və böhtanlar da dağılıb getdi. İqtidarlı-müxalifətli cəmiyyətin əsas niyyəti itirilmiş torpaqların qaytarılması, Azərbaycanın ləyaqətinin qorunması idi və buna görə də mühabribə günlərində yaranmış vətəndaş həmrəyliyi hamı tərəfindən qəbul edildi və ölkədə böyük bir milli barışıq yarandı. Yenə də xırda istisnalar nəzərə alınmaqla. Çünki 1988 – cil ildən başlayaraq qarşıdurmaların, hakimiyyət dəyişikliklərinin əsas səbəbi həmişə Qarabağ məsələsinin həll edilməməsi olmuşdu. Amma həyat göstərdi ki, daxildəki bəzi qüvvələrin niyyəti heç də dövlətimizin möhkəmlənməsi və torpaqlarımızın azad edilməsi deyilmiş. Qələbə olmasa da olar, təki hakimiyyət dəyişilsin, Qərbin layihələri həyata keçirilsin...

Azərbaycan əsgərinin Şuşaya qalxması ilə müxtəlif beynəlxalq qurumların oyunbazlıq missiyaları öz mənasını itirdi və millətin mənəvi dünyasının başkəndlərindən biri olan Şuşadan Prezidentin gur səsi eşidildi. "Əziz Şuşa, biz qayıtmışıq!".

Bu tarixi bir an idi. Ordu və Prezidentlə yanaşı, bütün Azərbaycan o zirvəyə yüksəlmişdi. Hər sərkərdəyə, hər dövlət başçısına bu anları yaşamaq xoşbəxtliyi qismət olmur. Prezident uca boyu ilə Cıdır düzündə dayanmışdı və bütün Azərbaycana və bütün dünyaya müraciət edirdi.

Sonra Bakıya dönüb bu qələbə xəbəri ilə öz prezident xələfi və atası, general Heydər Əliyevin ruhuna baş əyib əsgər kimi raport verməsi də son dərəcə təsirli bir görüntü idi; dövlətimiz üçün böyük dönüş nöqtəsi olan qələbənin və ona doğru gələn yolların bütün ailələrimizin içindən, həyatından keçdiyini, illərlə ata-oğul arasındakı söhbətlərin də baş mövzusu olduğunu göstərirdi.

O günlərdə bu böyük qələbəni gözdən salmaq üçün dəridən-qabıqdan çıxanlar da az deyildi: "Gərək Xankəndinə də girəydik, İlham Əliyev yenə Moskvaya aldandı, rus sülhməramlılarının gəlməsi xəyanətdir. Onları bir də Azərbaycandan çıxarmaq olmayacaq. Və s..." Həyat bunun əksini göstərdi, baş verənləri bir də şərh etmək istəmirəm. Amma həmin ittiham olunan Prezident 24 saat ərzində Xankəndini də təmizlədi. Müqavilə müddəti başa çatmamış sülhməramlı qüvvələr də Azərbaycanı tərk edib getdilər.

Prezident əvvəllər yalnız beşinin qaytarılacağı vəd edilən on dörd Qarabağ rayonunun hər birinə Ali Baş Komandan kimi qədəm basdı. Hər birində bayrağımızı ucaltdı. "Qarabağ Azərbaycandır!" dedi. Xankəndidə təkbaşına Azərbaycan Ordusunun rəsmi keçidini qəbul etdi.

Xanımının, Birinci vitse-prezident, hörmətli Mehriban Əliyevanın əlindən tutub Xudafərin körpüsündə, babalarımızın yaratdığı sənət möcüzəsinə və Arazın gur sularına baxa-baxa ədalətsiz müqavilənin əlimizdən aldığı imkanları, bizə yaşatdığı ağrıları, iki yüzillik güney – quzey ayrılığının faciələrini düşündü.



Yeni azad olunmuş yollarda sükan arxasına keçib geri qayıdışın ləzzətini yaşadı, hər dağa, dağıdılmış olsa da, hər rayonumuza, hər gözəlliyə salam verib keçdi. Murovun zirvəsində sükanı başqasına etbar etmək olmaz!

Bütün bunlar qalib Prezidentin portretindən xırda cizgilərdir. O portreti bütövlüklə çəkmək çox çətindir. Lakin məncə, ən əsas çizgilər böyük Vətən sevgisidir, yüksək iradədir, cəsarət, özünəgüvən, heç bir riskdən çəkinməmək və sözünə sadiqlikdir!

İnsanın ən gözəl cəhətlərindən biri gördüyü yaxşı işlərdən sevinməsi, öz xeyirxah və xalqın xeyrinə olan əməllərindən zövq almasıdır. Prezidentin dağılmış yurdlarımıza hansı ürək ağrısı və düşmənin alçaqlığının dərəcəsindən necə böyük heyrətlə baxdığını dörd ildir görürük. Lakin dörd ildir, həm də onun üzündən qələbənin gətirdiyi qürur və doğma yurdlarımıza qayıtmağın sevinci, başlanmış quruculuq işlərinin qüruru əskik deyil!

Otuz beş ildir ölkə basqı altındadır. Himayədarlarının yardımı ilə bizim torpaqlarımızı işğal edənə işğalçı deyilmir, lakin biz öz qanuni yerlərimizi təmizləyəndə bizi durdurmağa, bacarsalar, bizə işğalçı damğası vurmağa çalışırlar. Bir milyon qaçqınımızı görmədən, bizə etnik təmizləyici damğası vurdurmaq üçün toy-bayrama gedirmişcəsinə torpaqlarımızı tərk edib gedən bir ovuc erməniyə yas saxlayırlar. Hər yerdə səsimiz boğulur. Hər yerdə sözün düzünü qoyub əyrisini deyirlər. Bütün bunlar azmış kimi hər tərəfdən gizli ideoloji, dini sızmalar var, demokratiya və insan haqları "bülbülləri" dağılmış yurdlarımızın halını görmədən getdikcə dinləyicisi azalan, saxtalığı üzə çıxan zəngulələr vurmaqda davam edirlər. İçimizdə də bu zəngulələrə aldananlar, Qərbin taleyimizə etinasızlığını, bizim üçün çəkilən yol xəritələrinin riyakarlığını və alçaldıcı olduğunu görə-görə yenə onları ideallaşdıranlar az deyil...

Prezidentin önündə bir cəbhə yox, bir neçə cəbhə var. Savaş cəbhəsini açıq gözlə görmək olur, ancaq gizli cəbhələr də var. Qərbin dezinformasiyadan yorulmayan media cəbhəsi bizə tuşlanan silahlardan az zərər vurmur. Onu tamamilə susdurmaq çətindir. Bir hissəsi də erməni kapitalından qidalanır. Hiylə və yalanla, bir az da jurnalist marağı ilə silahlanıb gəliblər.

Prezident Qarabağdakı zəfər və quruculuq yürüşündən vaxt tapanda onların qarşısına çıxır. Kim hansı niyyətlə gəlir-gəlsin, hamısı ilə üzbəüz oturur, hamısının gözünün içinə baxır, ordakı hiyləgərlikləri oxumağa çalışır, dolanbac suallara verdiyi cavablarla dünyaya siyasi likbez dərsi keçir, həqiqətin harda olduğunu göstərir.

Başqa bir cəbhə də var. Burda onun haqqında bir neçə söz demədən ötüb keçmək olmaz. Bu da ölkənin ümumi durumu, iqtisadiyyat, mədəniyyət, diplomatik əlaqələr sahəsində görülən işlərdir, bir sözlə, evin içidir. Prezidentin bu sahədə necə yorulmadan çalışdığı göz qabağındadır və bu barədə hər gün yazılır, mənim əlavə sözümə ehtiyac yoxdur. Lakin burada da mane olanlar var. Müharibə şəraitində olan bir ölkədə, yaxud viran qoyulmuş yurdlarımızın bərpasına start verilən bir durumda yenə gözü doymayan rüşvətxor məmurun, qaçqının, köçkünün, müharibə veteranının payına göz dikənlərin, hətta bərpa üçün, müdafiə üçün ayrılan vəsaitə diş qıcayanların, bu milli dirçəliş günlərində də ancaq özünü düşünüb əhalini narazı salanların mənim gözümdə işğalçı, quldur ermənidən elə də böyük fərqi yoxdur...

Yenə ümumi mənzərəyə Qarabağdan baxaq. Hələ torpaqlarımız tam təmizlənməmiş Şuşada ilk bərpa olunan abidələrdən biri böyük şairimiz Vaqifin məqbərəsi oldu. Vaqif poeziya günləri və Xarıbülbül festivalları yenidən həyata qayıtdı, bir vaxtlar Qafqazın Parisi sayılan, lakin düşmənin viran qoyduğu Şuşa öncə Türk dünyasının, sonra İslam dünyasının paytaxtı elan edildi və biz "Xarıbülbül" festivallarında yenidən Qarabağın yüksələn səsini Prezident qarışıq hamımız gözü yaşlı dinlədik. Qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla İlham Əliyevin tarixi Şuşa Bəyannaməsi də savaşdan yeni çıxmış bu şəhərdə imzalandı. Bakının bütün rəsmi qonaqları, prezidentlər, millət vəkilləri, nazirlər, diplomatlar, jurnalistlər Şuşaya aparıldı və erməni vəhşiliyinin tarixlərə görk olacaq dəhşətli izləri onlara göstərildi. Qonaqlar yorulsa da, Prezident yorulmadı.

İndi də o, hər iki gündən bir Qarabağdadır. Qarabağın ağır yaralarını sağaltmağa çalışır. Düşmənlərinin arxadan ona yara vurmalarına əhəmiyyət vermədən. Qısa müddətdə iki beynəlxalq hava limanı tikilib, üçüncüsü də bu yaxınlarda bitəcək. Yüz kilometrlərlə yol, onlarla tunel, bütün Qarabağ şəhərlərini əhatə edən və sıfırdan başlanan şəhərsalma işləri, hər gedişində dağıdılmış kəndlərdə təməlatma mərasimləri, addım-addım gəzdiyi qalalar, köhnə tarixi yerlər həm də saysız-hesabsız mina basdırılmış torpaqlarda... Allahın onu qoruyacağına dərin inamla gəzib dolanır. Qalib Prezidentin əsl siması budur. Mən saysız-hesabsız görüşləri, səfərləri, yeni iqtisadi proqramları, Azərbaycanın bütün bölgələrində gedən quruculuq işlərini də xatırlatmaq istərdim. Prezident millətin milli ideallarını dilə gətirir: "Bizim yerimiz türk birliyidir".

Prezidenti dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızın insan hüquqlarını siyasi kürsülərə daşıyır. Araz üstündə yeni su qovşağı sanki mənəvi bütövlüyümüzün simvoluna çevrilir. Bu qədər yol keçmək, bu qədər gərginliyə dözmək hər adamın işi deyil. Ancaq, sən demə, yorğunluğu unutduran amillər təkcə siyasi-diplomatik uğurlar deyil. Prezident Qarabağ adlı böyük evini qurub abadlaşdıra-abadlaşdıra həm də onun gözəlliklərindən zövq alır.

Bu gəzintilərin, işlərin, arası kəsilməyən görüşlərin yorğunluğunu nə unutdura bilər? Öz köhnə yurdlarında yeni tikilmiş evlərinə qayıdan insanların xeyir-duası, gözlərindəki sevinc yaşları, Şuşanın dikələn binaları. Yeni Füzulinin, yeni Ağdamın inanılmaz sürətlə dirçəlişi, Laçının dağlar qoynunda qol-qanad açması, bitməz dualar, önündə açılan qollar, önündə açılan yeni yollar... Lakin hər yolun bir dayanacağı da var, bulaq başında, çay qırağında, ağac altında. Ayaqqabılarını çıxart, ayaqlarını dağ çayının bumbuz sularına salla, dirsəklən Vətən torpağına, sinən dolusu nəfəs al, sənin Bakıda olmadığını fürsət bilib əyri işlərindən çəkinməyən quldurlara verməli olduğun dərsi də unutma, amma əsas fikrin doğma evin kimi bütün künc-bucağını bildiyin, bir cənnət güşəsinə çevirmək istədiyin Qarabağda olsun. Bumbuz sular bu qədər enişli-yoxuşlu dağ yollarından və bu qədər tələlər qurulmuş siyasət yollarından yorulmuş ayaqların yorğunluğunu unutdurur. Bu, Prezidentin gördüyü işlərin gələcəyini düşündüyü, fikrində təməlini atacağı kəndlərin adlarını sıraladığı qısa istirahətidir, çox insani və sirli bir andır. Bu, ən çətin mərhələnin yekunudur. Uzun, uçurumlardan adlayan bir yoxuşun yorğunluğunu çıxarırsan. Yeni yol başlamaq və ya böyük yolunu davam etdirmək üçün.

***Sabir RÜSTƏMXANLI,***
***Xalq şairi***

# Azərbaycana kənar baxışlar: əməkdaşlıq məmnunluğu və etimad



(əvvəli 1-ci səhifədə)

Azərbaycan özünün bəşəri təşəbbüsləri, dünya səviyyəli genişmiqyaslı layihələri ilə daim irəlidədir, necə deyərlər, ona yönəlmiş hücumlardan etibarlı mühafizə sisteminə malikdir. Buna görə qəbul edilir, onunla hesablaşırlar. Əslində, V.Putinin Sankt-Peterburq forumunda səsləndirdiyi fikirlər də qəbuledilmənin və hesablaşılmanın, münasibətlərdəki bərabərtərəfliliyin rasional ifadəsidir.

Cənab Putinin fikirləri, həmçinin qlobal siyasət nəhəngi Rusiyanın Cənubi Qafqazın lider ölkəsi Azərbaycanla təmaslarındakı pozitivliyin, məmnunluq və əminliyin vurğulanmasıdır. Yəni, Moskva özü üçün, kifayət qədər, strateji nöqtə sayılan Cənubi Qafqazla bağlı tam arxayındır. Məsələn, Putin bildirir ki, Rusiya–Azərbaycan dövlətlərarası əlaqələri məhz qarşılıqlı maraqlara və müəyyən dərəcədə qarşılıqlı simpatiyaya əsaslanır.

O, Azərbaycanda rus dilində 300-dən çox məktəbin fəaliyyət göstərməsinə başqa cür izah tapa bilmədiyini dilə gətirir.

Əlbəttə, Rusiyanın dövlət başçısı Azərbaycanla münasibətlər məsələsində digər məqamları da sadalayıb. Bu baxımdan, ikitərəfli iqtisadi əlaqələrin tempinin çox yaxşı inkişafın vurğulanmasından, iki ölkə arasında münasibətlərin diversifikasiyasından tutmuş, logistika sahəsindəki işbirliyinə qədər bir çox fundamental cəhətlərin üzərində dayanmaq mümkündür. Onlardan yalnız birini vurğulayaq: "Bu Şimal–Cənub yoluna gəlincə, o, çox yaxşı və məşhur beynəlxalq dəhlizə çevrilə bilər. Buradan birbaşa, Sankt-Peterburq limanından yüklər bütün Avropa hissəsindən keçərək Azərbaycana, oradan İrana və oradan da Fars körfəzi sahillərinə çıxacaq. Bu, Süveyş kanalı ilə yüklərin daşınmasından, demək olar ki, 10 gün tezdir".

Ancaq mövzumuzun girişindəki təqdimatdan göründüyü kimi, Azərbaycanla münasibətlərin önəmindən, ölkəmizin Cənubi Qafqaz müstəvisindəki tutduğu mövqedən bəhs edən yalnız Rusiyanın dövlət başçısı deyil. Bu baxımdan, ABŞ Prezidenti Cozef Baydenin fikirləri üzərində dayanmağı da vacib sayırıq. Cənab Bayden 28 May Müstəqillik Günü münasibəti ilə Azərbaycan xalqına ünvanladığı təbrikdə vurğulamışdı: "Diplomatik əlaqələrimizin 30 ildən artıq bir dövründə biz enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorçuluqla mübarizə də daxil olmaqla birgə maraqlara söykənən tərəfdaşlıq qurmuşuq. Hər iki ölkəmiz Əfqanıstanda çiyin-çiyinə döyüşmüş və birlikdə Cənub Qaz Dəhlizini inkişaf etdirməklə regional enerji təhlükəsizliyi ilə bağlı çağırışlara sinə gərmişdir".

C.Bayden təbrikində, həmçinin bildirib ki, İlham Əliyevin Prezidentliyinin beşinci müddətinin başladığı bir vaxtda, ABŞ Azərbaycanla regional və qlobal məsələlərdə, o cümlədən, iqlim dəyişikliyi və yaşıl enerjiyə keçid sahəsində qarşılıqlı əməkdaşlığı dərinləşdirməyə səy göstərəcək. Təbrikdə, eyni zamanda, Birləşmiş Ştatların Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi göz önündədir: "Biz Azərbaycan və Ermənistanın davamlı və ləyaqətli sülhün təmin edilməsinə yönəlmiş addımlarını alqışlayırıq və bu səyləri dəstəkləməyə hazırıq. Ən əsası isə biz Azərbaycan xalqı ilə tərəfdaşlığımızı inkişaf etdirməyi və əlaqələri möhkəmləndirməyi arzulayırıq".

Bəli, Baydenin dedikləri bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin məqsədyönlü və prinsipial siyasəti faydalarını verir. Bu siyasət ölkəmizin bütün dünyadakı nüfuzunu getdikcə yüksəldir. Əslində, mövcud həqiqət müxtəlif ölkə liderlərinin də dövlətimizin başçısına Müstəqillik Günü münasibəti ilə ünvanladıqları təbrik məktublarının leytmotivini təşkil etmişdi. Ancaq Birləşmiş Ştatlar Prezidentinin iyunun 4-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin açılış mərasiminin iştirakçılarına ünvanladığı məktubdakı fikirlər ölkəmizə dəyər baxımından daha parlaq idi: "Uzunmüddətli sülh sazişi illərlə davam edən münaqişələrə son qoyacaq, Cənubi Qafqazı dəyişdirəcək. Azərbaycanın regiondakı rolunu əsaslı şəkildə dəyişəcək. ABŞ bu cəhdi dəstəkləməyə hazırdır. Biz gələcək nəsillərə borcluyuq ki, sülh və firavanlıq bizim başlıca prinsiplərimiz olaraq qalsın".

Prezident İlham Əliyev 44 günlük müharibə başa çatar-çatmaz bildirmişdi ki, Cənubi Qafqazın tarixində yeni mərhələ başlayır. Dövlətimizin başçısının bütün fikirləri reallığa ciddi fiksasiya təbiətinə malikdir. Ölkəmizin liderinin səsləndirdiyi nəinki hər bir tezisin, hətta hər cümlənin da arxasında konkret iş dayanır. Belə qənaətə gəlirik ki, hazırda Baydenin Azərbaycan faktorunun əhəmiyyətini vurğulaması heç də təsadüf sayılmamalıdır və deməli, ölkəmizin getdiyi yol doğrudur.

Nəzərə alaq ki, Ağ Ev rəhbərinin düşüncələrində ölkəmiz regionun gələcəyinin, sülh və firavanlığın təminatçısı missiyasındadır. Əslində, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı səsləndirdiyi fikirlərə də mövcud prizmadan yanaşmaq mümkündür. A. Lukaşenko mayın 16-da Bakıda Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatında regional məsələlərdən, Qafqaz coğrafiyasındakı məsuliyyət və inkişaf kateqoriyalarından söz açarkən, ölkəmizin roluna daha açıq tərzdə qiymət vermişdi: "Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz – Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. ...Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız".

Bəli, Azərbaycanın dünyadakı nüfuzu artan trayektoriyaya malikdir. Bu isə onu göstərir ki, ölkəmizi perspektiv baxımından daha böyük uğurlar gözləyir. Uğur təminatı Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyev amallarına, böyük siyasət nəhənginin müəyyənləşdirdiyi kursa yüksək sadiqliklə reallaşdırdığı genişmiqyaslı fəaliyyət xəttidir. Elə bir fəaliyyət ki, xalqımızın maraq və mənafelərindən irəli gəlməklə, onu zirvələrə daşımaq kimi ali məqsədə hesablanıb. Elə bir məqsədə ki, onun reallaşması naminə görülən bütün işlərin məğzində Azərbaycanın dövlət müstəqilliyinin əbədilik faktoru dayanır. Əslində, dünya dövlətlərinin liderləri də səsləndirdikləri baxışlarla bu faktorun əhəmiyyətini vurğulayırlar. Əminik ki, gələcəkdə daha çox vurğulayacaqlar.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Ceyhun Bayramovun isveçrəli həmkarı ilə telefon danışığı

**İyunun 6-da Xarici İşlər naziri Ceyhun Bayramov ilə İsveçrə Konfederasiyasının Federal Xarici İşlər naziri İqnasio Kassis arasında telefon danışığı aparılıb.**




Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, Avropada geosiyasi vəziyyət və İsveçrə tərəfindən göstərilən səylər, eləcə də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın prezidentliyi çərçivəsində görülən işlər müzakirə edilib.

**XQ**

# Avropada türk kökənli tərəfdaşımız

## Budapeşt Avropa İttifaqının ədalətli olmasına çalışır

**Azərbaycanla Macarıstan arasında istər siyasi, istər iqtisadi, istərsə də mədəni əlaqələr ən yüksək səviyyədədir. Son illər iki ölkə arasında müxtəlif xarakterli tədbirlərdə, platformalarda qarşılıqlı hörmətə söykənən sağlam və faydalı dialoqa şahidlik edirik. Doğrudan da, bu münasibətlər dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf etməkdədir. Macarıstan Azərbaycanın Avropa İttifaqında (Aİ) ən çox güvəndiyi və etibar elədiyi tərəfdaşlarından biridir. "Qoca qitə"nin qədim mədəniyyətə və Azərbaycanla soykökü bağlılığına malik bu ölkəsi ilə əlaqələrin hərtərəfli inkişaf etdirilməsi rəsmi Bakının xarici siyasətinin prioritet istiqamətlərindən sayılır.**

Macarıstan Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesində özünün ədalətli mövqeyi ilə daim seçilib və sülh danışıqlarında əldə olunan irəliləyişləri alqışlayıb. Bunu həm Baş nazir Viktor Orbanın, həm də Xarici işlər naziri Peter Siyartonun çıxışlarındakı fikirlər, səsləndirdikləri bəyanatlar sübut edir.

Bakıya iki gün əvvəlki səfəri çərçivəsində azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi mətbuat konfransında nazir Siyarto Azərbaycan və Ermənistanın sülh yolunda atdıqları ciddi addımları dəstəklədiyini, bölgədə anlaşma və sabitliyin bərqərar olmasını arzu etdiyini dilə gətirib. Hər iki xalqın sülh şəraitində yaşamağa layiq olduğunu diqqətə çatdıran cənab nazir Macarıstanın Aİ-yə sədrliyi dönəmində Cənubi Qafqazda bütün sülh təşəbbüslərini dəstəkləməyə davam edəcəyini vurğulayıb.



Qeyd edək ki, Macarıstan Aİ-də özünün sanballı mövqeyi və çəkisi ilə fərqlənən ölkədir. Budapeşt yeri gələndə bu qurumda dominantlıq statusuna malik Fransanın anti-Azərbaycan siyasətinə qarşı çıxmağı, ikili standartlı qərarların qəbuluna veto qoymağı da bacarır. Elə Xarici İşlər naziri Siyartonun Bakıda verdiyi açıqlaması bunun bariz nümunəsi sayılmalıdır. Nazirin sözlərinə görə, Macarıstan Aİ-nin Cənubi Qafqaz regionu ilə bağlı balanslaşdırılmış siyasət yürütməsinə və "ocağa yağ tökməməsinə" diqqət yetirəcək: "Biz hesab edirik ki, Aİ-nin Sülh Fondu minalardan təmizləmə üçün Ermənistana 10 milyon avro ayırmaq istəyirsə, Azərbaycana da oxşar yardım ayırmalıdır. Qurum sülh prosesinə heç bir halda mane olmamalıdır".

**ARAYIŞ:** 2004-cü ildən Avropa İttifaqının üzvü olan Macarıstan 2007-ci ildən etibarən Şengen zonasına daxil edilib. Bu ölkə hazırda BMT, NATO, Dünya Ticarət Təşkilatı, Dünya Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı, Avropa Şurası və başqa beynəlxalq təşkilatların üzvüdür.

* * *

Oxuculara xatırladaq ki, 2018-ci ildən Türk Dövlətləri Təşkilatında (TDT) müşahidəçi olan və təşkilatla əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət verən Macarıstanın paytaxt Budapeştdə TDT-nin Nümayəndəlik Ofisi fəaliyyət göstərir. Macarıstanın Baş naziri Viktor Orbanın 2018-ci ildə verdiyi tarixi bəyanatı da yadımızdadır. Baş nazir çıxışında bildirmişdir ki, macarlar özlərini Hun hökmdarı Atillanın nəslindən hesab edirlər və macar xalqı hun-türk köklərinə əsaslanır.

Son illər Bakının evsahibliyi etdiyi beynəlxalq miqyaslı bütün tədbirlərdə rəsmi Budapeşt yüksək statusda iştirak edir. Budapeştin Aİ üzvü olan bəzi ölkə liderlərində qısqanclıq yaradan Bakı və Ankara, eləcə də TDT ilə iliq təmasları təkcə siyasi xarakterli deyil. Macarıstanın Azərbaycanla enerji daşıyıcıları ilə bağlı əməkdaşlığı da mövcuddur. Artıq bu ölkə Bakıdan mavi yanacağı qəbul edir. Bundan başqa, Macarıstan şirkətləri Qarabağda aparılan geniş bərpa və quruculuq layihələrində yaxından iştirak edirlər.

"Avropa İttifaqının (Aİ) Türkiyəyə ehtiyacı var". Bunu isə Macarıstan Xarici İşlər naziri Peter Siyarto Ankarada türkiyəli həmkarı Hakan Fidanla birlikdə keçirdiyi mətbuat konfransında deyib. Cənab nazir onu da vurğulayıb ki, təbii qaz tədarükü Türkiyəsiz mümkün deyil: "Ankara bu məsələdə bizim əsas tərəfdaşlarımızdandır. Onun terrora qarşı mübarizəsini də dəstəkləyirik".

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Avropa İttifaqı işğalçı dövlət olan Ermənistana bir avro da maliyyə ayırmamalıdır. Əgər ittifaq indiki İrəvan rejimini demokratik rejim kimi qələmə verirsə, onda ortaya belə bir sual çıxır: Paşinyana qədər Koçaryan və Sarkisyan prezident olanda da Ermənistanın demokratik dövlət sayılmırdısa, niyə onlara münasibət adekvat deyildi? Bu münasibət Avropanın Cənubi Qafqaz respublikalarına ikili yanaşmasının bariz nümunəsidir. Yəni, Aİ burada ikiüzlü, riyakar siyasətini nümayiş etdirir. Bu qurumun rəhbərliyi korrupsiyada ittiham olunur, bəzi yetkililəri həbs olunub, bir çox deputatlara qarşı cinayət işləri açılıb. Onlar özlərini çox obyektiv yanaşmaya malik subyektlər hesab edirlərsə, kökündən səhv edirlər, ciddi şəkildə yanılırlar.

Macarıstan obyektivliyi, şəffaflığı və ədaləti yüksək qiymətləndirərək, eləcə də Azərbaycanla münasibətlərin inkişafında maraqlı dövlət kimi, Ermənistana birtərəfli qaydada 10 milyon avro maliyyə ayrılması ilə, əlbəttə, razılaşa bilməzdi. Bu zaman rəsmi Budapeştin veto hüququndan istifadə etməsi olduqca düzgün addımdır.

Azərbaycan–Macarıstan münasibətləri çox yüksək səviyyədədir və bundan sonra da yalnız yüksələn xətlə inkişaf edəcək. Macarıstan Xarici İşlər naziri Peter Siyartonun Bakıya səfəri və burada verdiyi ismarıclar ikitərəfli münasibətlərin keyfiyyət göstəricisi sayıla bilər.

Mühafizəkar avropalıların qitənin "türkkökənli ölkəsi" adlandırdıqları Macarıstanın məhz Türk Birliyinin bir parçasına çevriləcəyi gün uzaqda deyil. Bunun üçün tarixi şərait və bütün zəruri şərtlər göz qabağındadır.

**İ.HƏSƏNQALA**
**XQ**

# Rusiya "Antey"in qüdrətini rəmzləşdirib

## Lakin o, Poseydonun "məğlubedilməz" oğluna bənzəmir

**Antey qədim yunan mifologiyasına görə dəniz allahı Poseydonun nəhəng oğlu idi. Onun ayağı torpağa dəyəndə (yəni, dənizdən kənara çıxanda) qarşısında heç kəs dayana bilməzdi. Dəniz allahının oğlu olsa da, torpaqdan güc alırdı. Məlum olduğu kimi, onun adı son iki əsrdə təkcə bizə məlum olan coğrafiyada bir sıra yeniliklərdə əbədiləşdirilib.**

Məsələn, 1883-cü ildə memar Fyodr Şextel Moskvada inşa etdiyi yay teatrına "Antey" adı vermişdi. Sovet aviakonstruktorları nəhəng yük təyyarəsini onun adıyla ( An-22) istehsal etmiş, rus sualtı qayıqlarının bir neçəsinə, bataqlıqda və qarlı ərazilərdə irəliləyə bilən ağır sovet texnikalarından birinə, Rusiya Hərbi Dəniz donanmasının Belarusdakı rabitə qurğusuna və eləcə də, Yekaterinburqdakı işğuzar dairələrin ofisinin yerləşdiyi möcüzəli göydələnə də Antey adı verilmişdir. Bu siyahını uzatmaq da olar. Ancaq fikrimizcə, ən maraqlı məqam "Antey" adlı xidmət itinə heykəl qoyulmasıdır.

Bəs "Antey" adlı it hansı xidmətlərinə görə bu ehtirama layiq görülmüşdür? Xatırladaq ki, 1983-cü ildə SSRİ məkanında itə qoyulmuş ilk ehtiram kimi qəbul edilən bu heykəltəraşlıq nümunəsi Novosibirsk şəhərindəki İnsk dəmir yolu stansiyasının yaxınlığında – Dəmir yolu nəqliyyatında dövlət mühafizəsi bölməsinin yanında qoyulmuşdur. Söhbət SSRİ Yollar Nazirliyi sistemində 13 il xidmət etmiş ( təlimçi İvan Litvinovun rəhbərliyi ilə) "Antey"adlı xidmət itinin sədaqətindən gedir. Təqdimatda qeyd edilir ki, "Antey"in köməyi ilə 100 cinayətkar ifşa edilərək saxlanılmış, 68 cinayət işinin üstü açılmışdır.

"Antey"n başının büst kimi hazırlandığı xatirə abidəsinin pyedestalında yazılır: "Sosialist əmlakının qorunması uğrunda gedən mübarizədə insanların sədaqətli dostu olmuş "Antey"ə".

Sən demə, bu Antey Poseydonun oğlu olmasa da, "Raket" adlı itin oğlu imiş. O kinoloqların iştirak etdiyi müxtəlif idman yarışlarında və sərgilərdə 18 mükafat qazanıbmış. Bu sədaqətli



dördayaqlının xatirəsinin əbədiləşdirilməsinin təşəbbüskarı isə Qərbi Sibir Dəmir Yolunun rəisi İvan Trubnikov olmuşdur.

**İttifaq MİRZƏBƏYLİ**

# Söhbət hansı "paritet"dən gedir?

## Rəsmi İrəvan sülh axtarışlarını ictimai-siyasi, hüquqi sapmalara çəkir

**Baş qanununda qonşularına qarşı ərazi iddialarının əks olunduğu Ermənistan hakimiyyəti indi Azərbaycan Konstitusiyasında paralellik aparmaq sevdasına düşüb. Məqsəd beynəlxalq ictimai rəydə qəsdən çaşqınlıq yaratmaqla danışıqlar masasında Bakının haqlı tələblərinə qarşı "əks-arqumentlər" ortaya qoymaqdır. Gündəmi zəbt etmiş mövzu ilə bağlı suallarımızı "Konstitusiya" Araşdırmalar Fondunun təsisçisi və prezidenti Əliməmməd Nuriyev cavablandırır.**



***– Əliməmməd bəy, sülh danışıqlarının indiki mərhələsində rəsmi İrəvan Azərbaycan Konstitusiyasında, guya, Ermənistana ərazi iddialarının yer aldığı 2-ci maddəni əllərində dəstavüz edib. Zəhmət olmasa, əvvəlcə bu məsələyə aydınlıq gətirin.***

– Son vaxtlar Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasına süni maneələrin yaradılması müşahidə olunur. Bu zaman rəsmi İrəvan iki ölkənin konstitusiyaları arasında paralellik aparmağa çalışır. Guya, Azərbaycan Konstitusiyasındakı bir sıra müddəalar sülh prosesinə mane olur. Amma onu qeyd etmək istərdim ki, belə müqayisələrin aparılması hüquqi cəhətdən qüsurludur. Bizim Konstitusiyamızın hər hansı müddəa və ya norması sülh müqaviləsinin imzalanmasına qarşı deyil. Əksinə, baş qanunumuzda sülh və əməkdaşlıq prioritet istiqamətlər kimi müəyyənləşdirilib. O cümlədən, təhlükəsizlik məsələləri, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı məsələləri öz əksini tapıb. Azərbaycan bütün beynəlxalq platformalarda bu prinsiplərə sadiq olduğunu hər zaman nümayiş etdirib. Həm özünə, həm də ayrı-ayrı ölkələrə münasibətdə həmin prinsipləri gözləyir və onlara səs verir. Bu, BMT-nin sessiyasında Gürcüstana, Ukraynaya münasibətdə, eləcə də digər beynəlxalq platformalarda özünü göstərib. Azərbaycan özü işğala məruz qaldığı üçün son otuz ildə daim beynəlxalq hüququn təməl prinsiplərinin vacibliyini qeyd edib. Amma Ermənistan tərəfindən suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərindən kənara sapmalar baş verib. Xatırladım ki, ATƏT-in Lissabon Sammitində bu quruma üzv dövlətlərin ərazi bütövlüyü ilə bağlı bəyannaməyə qol çəkməyən yeganə iştirakçı Ermənistan olub. Bununla bağlı hətta ATƏT-in o zamankı sədri xüsusi bəyanat vermişdi. Bəli, beynəlxalq hüquq baxımından məhz Ermənistan konstitusiyasında, digər hüquqi-normativ aktlarda qonşulara qarşı ərazi iddiaları var. Yəni, sülh prosesinə mane olan onlardır. Bütün hallarda Ermənistan konstitusiyasının preambulasında Müstəqillik aktına istinad olunur və həmin normalar digər ölkələrin ərazi bütövlüyünə və suverenliyinə birmənalı şəkildə xələl gətirən müddəalardır. Belə deyə bilərik ki, bunlar birbaşa qonşuya təcavüz imkanı yaradan normalardır.

Türkiyəyə qarşı genosidin tanınmasının yazıldığı on birinci maddədə onların "Qərbi Ermənistan"la bağlı iddiaları yer alır. 1989-cu ilin dekabrında Ermənistan SSR "Dağlıq Qarabağ"ın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edib. Şübhəsiz ki, bütün bunlar indiki vəziyyətdə sülhə münasibətdə Ermənistan konstitusiyasındakı normalar, eləcə də əvvəllər qəbul etdiyi bəyannamə, akt və qərarlar maneçilik cəhdləridir.

Azərbaycan Konstitusiyasının 2-ci maddəsində xalqın suverenliyindən danışılır. Yəni, bu, dünyanın bütün sivil dövlətlərinin baş qanununda təsbit olunmuş normadır. Həmin maddədə deyilir ki, Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir. Amma hayların konstitusiyasında yazılıb ki, Ermənistanda və Ermənistandan kənarda yaşayan ermənilər erməni xalqını təşkil edir. Orada vətəndaş məsələsi yoxdur.

***– Məlumdur ki, Ermənistan XİN-in başçısı Ararat Mirzoyanın dilindən səslənən bu iddia danışıqlarda, bir növ, "paritet" yaratmaq məqsədini daşıyır. Bununla İrəvan nəyə nail olmaq istəyir? Daxildə ona yönəlmiş etiraz dalğasını zəiflətmək, yoxsa beynəlxalq ictimai rəylə manipulyasiya etmək?***

– Doğrudan da, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan tərəfindən səsləndirilən fikirlər sülh danışıqlarında "paritet" yaratmağa hesablanan xüsusi ssenaridir. Bunun siyasi tərəfini başa düşürük, amma bu cür paralellik aparmaq kökündən yanlışdır. Hazırda Ermənistan daxilində təbəddülatlar baş verir, qarşıdurma yaşanmaqdadır. Revanşistlərin yenidən baş qaldırması nəticəsində Ermənistan hökuməti böhranqabağı duruma düşüb. Bu vəziyyətdə, şübhəsiz ki, rəsmi İrəvanın yüksək rütbəli dövlət xadimləri çalışırlar ki, üzləşdikləri problemlərin həlli ilə bağlı elə formalar seçsinlər ki, daxildə daha geniş etiraz dalğası yaranmasın. Baş nazir Paşinyanın özü Ermənistanın konstitusiyasındakı müddəaların ölkənin suverenliyinə, hətta dövlət kimi mövcudluğuna problem yaratdığını qeyd edib. Ermənitanın müstəqilliyi onun sərhədlərindən başlanır prinsipini məhz Nikol Paşinyan ürəli sürüb. Eyni zamanda, o, bütün çıxışlarında Ermənistanda yaşayan erməni xalqından bəhs edir. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında iki ölkə arasında sülhə mane olan əsas amillərdən biri kimi Ermənistan konstitusiyasında və bir sıra aktlarda yer alan yersiz ərazi iddialarının olduğunu vurğulayıb. Bu isə başqa ölkələrə münasibətdə təcavüzü körükləmək imkanını legitimləşdirir. Həmin norma və aktlar hər zaman sülh sazişinin imzalanmasına mane ola biləcək ciddi nüanslardır. Bu baxımdan rəsmi İrəvanın paritet yaratmaq, paralellik aparmaq cəhdləri uğurlu gediş deyil.

***– Paşinyan iqtidarının ölkə konstitusiyasında qonşularına qarşı ərazi iddiaları ilə bağlı maddələri referendum keçirməklə deyil, başqa yolla aradan qaldırmaq variantı varmı?***

– Ermənistan konstitusiyası 1995-ci ildə ümummilli erməni referendumunda qəbul olunub. Şübhə yoxdur ki, orada öz əksini tapmış normaların dəyişdirilməsi də Ermənistan konstitusiyasının müvafiq maddələrinə uyğun olaraq, yalnız referendum yolu ilə həll olunmalı məsələdir. Referendum konstitusiyadakı haqqında danışdığımız mövcud ziddiyyətləri aradan qaldırmağa imkan verəcək. Bəli, ermənilərin baş qanununun beynəlxalq prinsiplərə uyğun şəkildə hazırlandığı qeyd olunur, fəqət onun mətnində beynəlxalq hüquq normaları ilə ziddiyyət təşkil edən müddəalar var. Bu mənada, referendumda konstitusiyaya dəyişikliyin edilməsi zəruridir. Bu, Ermənistan hakimiyyətinin qonşularla münasibətlərini artıq beynəlxalq hüquqa, eyni zamanda, beynəlxalq prinsiplərə söykənən yeni baxışın formalaşmasına gətirib çıxaracaq.

Bir daha qeyd etmək istəyirəm ki, Ermənistanın süverenlik Bəyannaməsində qardaş Türkiyəyə qarşı açıq-aşkar ərazi iddiaları var. "Qərbi Ermənistan"la bağlı müddəanın ora salınması bunu göstərir. Əlbəttə ki, Ermənistan və Azərbaycan arasında gələcəkdə imzalanacaq sülh müqaviləsində sənədin üstün hüquqi qüvvəyə malik olduğu da qeyd oluna bilər. Saziş parlamentdə ratifikasiya olunduqdan sonra konstitusiyaya salınmış həmin ziddiyyətlərin aradan qaldırılmasına hüququ imkanları nəzərdən keçirmək olar. Əgər rəsmi İrəvan Azərbaycanla dayanıqlı və uzunmüddətli sülh müqaviləsinin olmasını istəyirsə, Bakının irəli sürdüyü beş prinsip əsasında özünün qanunvericilik aktlarına yeni yanaşmanı həyata keçirməlidir.

***– Sonuncu sualımız hüquqi deyil, siyasi xarakter daşıyır. Necə düşünürsünüz, Paşinyanın komandası indiki məqamda həm daxildən, həm də xaricdən edilən təzyiqlərin, hədə-qorxunun qarşısında duruş gətirərək sülh sazişini imzalaya biləcəkmi?***

– Bəli, bu gün Ermənistanda siyasi hərarət yüksəlməyə doğru gedir. Orada revanşistlərin kilsə ilə birləşməsi müşahidə olunur. Hayastanda kilsə və cəmiyyətin millətçi kəsimi bütün dövrlərdə erməni xalqını bəlalara aparıb çıxarıb. Buraya xaricdəki diasporun dəstəklədiyi daşnak-revanşitlərə başçılıq edən şəxslərin torpaqlarımızı işğal altında saxladıqları müddətdə hansı vəhşilikləri törətdiklərini unutmamışıq. Həmin qüvvələr yenidən baş qaldırıblar. Aydın məsələdir ki, onlar Paşinyan hökumətinə müəyyən problemlər yaradırlar. Elə iqtidar komandasının daxilində də bəzi məsələlərə münasibətdə fikir ayrılıqları var. Narazı qrupun xaricdəki havadarlarına, xüsusilə, Fransaya arxalandıqlarını görürük. Təsəvvür edin ki, Fransanın Ermənistandakı səfiri özünü, az qala, ölkənin baş naziri kimi aparır. Rəsmi qurumlara göstərişlər verir, görüşlər keçirir, ən yüksək səviyyədə qərarların qəbulunda iştirak edir. Bu isə Paşinyan hökumətinin tam müstəqil olmamasının göstəricilərindən sayılmalıdır.

Amma onu da deməliyik ki, iqtidar hələlik vəziyyətə nəzarəti əlində saxlamağı bacarır. Keşiş Baqratın başlatdığı etiraz aksiyalarının hərdən güclənməsini xaricdən gələn maliyyə yardımı, eks-prezidentlərin aşkar dəstəyi ilə izah edə bilərik. Bölgədə maraqları olan bəzi ölkələrin xüsusi xidmət orqanlarının dəstəyi də buraya əlavə edilməlidir. İntəhası, bütün bunlar Paşinayn hökumətini yıxmaq üçün yetərli görünmür. Bizim fikrimizcə, rəsmi İrəvan elektoratın ona güvənini qoruyub saxlayıb. Müharibədən məğlub ayrılan Paşinyan seçkilərdə qalib gəlməyi bacarıbsa, indiki durumda onun hakimiyyətdən getməsi ağlabatan görünmür.

***

Müsahibimizin sözünə qüvvət kimi onu da əlavə edək ki, Paşinyan iqtidarının düşdüyü böhranlı vəziyyətdən xilas yolu məhz Azərbaycanla sülh sazişini mümkün qədər tez imzalamasından keçir. O zaman indi üzləşdiyi sualların əksəriyyətinin cavabı sözsüz tapılacaq. Bir də ki, sülhün qaçılmaz reallıq olduğunu onun özü və xalqı kimi xaricdəki şovinistlərin də anlaması vaxt məsələsidir. Bir el məsəlimizdə deyildiyi kimi: "Örkən nə qədər uzun olsa, doğanaqdan keçər".

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

(əvvəli 1-ci səhifədə)

# Revanşistlər dalana yuvarlandıqlarını görsələr də, anlamaq istəmirlər

Artıq keçmiş zamanda danışan Qalstanyanın bu açıqlaması erməni media resurslarında revanşistlərin məqsədlərinə çatmadan geri çəkilmələri kimi şərh olunur. Qeyd edilir ki, keşiş aprelin sonlarında aksiyalara başlayanda qarşıdakı 7-10 gün ərzində baş naziri devirəcəklərini bəyan etmişdi. Hayastan jurnalistləri Baqratın, təxminən, bir ay əvvəl verdiyi "Aylarla küçələrdə dolaşmaq istəmirəm. Uzağı 7-10 günə məqədimizə çatacağıq. Söz verirəm, konkret tədbirlər görəcəyik" sözlərini xatırladaraq həmin sözlərin küləklə havaya sovrulduğunu qeyd ediblər.

Buna baxmayaraq, revanşistlər ortalığı qarışdırmaqdan, iğtişaş salmaqdan əl çəkənə bənzəmirlər. Onlar iyunun 9-da İrəvanın mərkəzindəki Respublika meydanında növbəti mitinq təyin ediblər. Bunu iyunun 1-də Gümrüdə keçirilən mitinqdə Baqrat özü bəyan etmişdi. Onun sözlərinə görə, iyunun 9-dan hərəkatın yekun mərhələsinə başlanılacaq ki, bu məsələni yekunlaşdırsın: "Biz iyunun 9-da böyük mitinq keçirəcəyik və bu, yəqin ki, həqiqətin qələbəsinin (?) son möhürü olacaq".

Revanşistlərin öz hərəkətlərini "müqəddəs mübarizə" adlandırmaları da diqqətdən yayınmır. Hərəkatın sosial şəbəkə hesablarında "Əziz həmvətənlər, qələbə çox yaxındır" sərlövhəsi ilə yerləşdirilmiş elanda deyilir: "Bu günlər çox mühüm iş günləridir. Biz sıralarımızı artırmalı, informasiya resurslarının imkanlarını genişləndirməli, yeni insanları cəlb etməli və iyunun 9-da keçiriləcək böyük mitinqə hazırlaşmalıyıq".

Elanda erməni xalqından "Müqəddəs mübarizə", "Milli cəbhə" adlı teleqram kanallarının və "Facebook" sosial şəbəkəsində "Vətən naminə Tavuş" adı ilə yaradılmış səhifənin paylaşılması xahiş olunur ki, onların sıralarına daha çox şəxs qoşula bilsin. Həmçinin, vətəndaşlardan "böyük mitinq" haqqında məlumat verən plakatlar paylaşmaq xahiş olunur: "Bizim artıq bildirdiyimiz kimi, ən böyük mitinqimiz iyunun 9-da Respublika meydanında olacaq. Əziz həmvətənlər, qələbə çox yaxındır. Biz birlikdə arzularımızın "ruhani Ermənistanı"nı quracağıq".

Dünən onlar növbəti dəfə İrəvandakı hökumət binası qarşısında etiraz və məlumatlandırma aksiyası keçiriblər. Təşkilatçılar hamını iyunun 9-da keçiriləcək mitinqdə iştirak etməyə çağırıblar. Bildiriblər ki, ölkədə uzun müddətdir baş verənlər indiki hakimiyyətin destruktiv siyasətinin nəticəsidir və "Azərbaycanın xeyrinə davamlı birtərəfli güzəştlər" (?) Ermənistanın dövlətçiliyinə ziddir. Fəallar özləri ilə içərisində buz parçaları olan qab gətiriblər. Deyiblər ki, bu buz parçaları Günəşin hərarətinə dözmədiyi və əridiyi kimi, indiki hakimiyyət də ədalətli etiraz hərəkatı dalğasına tab gətirməyəcək.



Ancaq radikalların hansı şüarla çıxış etmələrindən, əhaliyə nə kimi çağırış ünvanlamalarından asılı olmayaraq, onların fiaskoya uğradıqları gerçəklikdir. Eyni zamanda, onların etiraz aksiyaları keçirdikləri müddət ərzində Qazaxın 4 kəndinin işğaldan azad olunması prosesi baş tutub. Mayın 24-dən etibarən həmin kəndlərdə dövlət bayrağımız dalğalanmaqdadır. Bu isə revanşistlərin arxasınca gedənləri ruhdan salan, onların sıralarını seyrəldən amildir. Onlar artıq başa düşürlər ki, iş işdən keçib və heç nəyə nail ola bilməyiblər.

Bu həqiqəti Ermənistanın ictimai-siyasi sektorunda təmsil olunan az qala bütün rasional düşüncəli şəxslər qeyd etməkdədirlər. Politoloq Armina Manukyan da B.Qalstanyanın rəhbərlik etdiyi hərəkatın baş naziri devirə bilməyəcəyi qənaətindədir. Manukyan "Panorama.am" saytına açıqlamasında deyib: "Müxalifət çətin ki, Nikolun istefasına nail ola bilsin. Etirazların miqyası geniş olsa da, sistemli deyil. Məsələn, Paşinyanın 2018-ci ildə keçirdiyi aksiyalar sistemli idi. Bunun nəticəsində o, hakimiyyətə gələ bildi. Üstəlik, Paşinyan belə durumlarda necə davranmaq lazım olduğunu bilir. O, hakimiyyət uğrunda sona qədər mübarizə aparmağa öyrəşib. Hətta, İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra da indikindən daha güclü olan müxalifətə müqavimət göstərə bilmişdi".

"Hraparak" qəzeti isə yazıb ki, hakim "Mülki müqavilə" partiyasında erməni apostol kilsəsinin gəlirlərinin və əmlakının vergiyə cəlb edilməsi ilə bağlı qızğın müzakirələr gedir. Qəzet partiyadakı mənbəyə istinadən bildirib ki, bu barədə təklif baş nazirdən gəlib. Təklif edilən qanun layihəsinə görə, kilsə vergiyə cəlb olunmalı, qanunsuz mənimsənilmiş pullar qaytarılmalı və şəffaflıq təmin edilməlidir. Hakim fraksiyada kilsənin ianələrdən, şam satışından, vəftizdən (xaç suyuna salınma), toylardan və digər mərasimlərdən əldə etdiyi gəlirlərdən, habelə ritual aksesuarların idxalından və satışından vergilərin tutulması istiqamətində müxtəlif təkliflər səsləndirilib. Qəzet qeyd edib ki, layihənin parlamentin növbəti payız sessiyasında müzakirəyə təqdim ediləcəyi gözlənilir.

Qeyd edək ki, kilsənin vergiyə cəlb edilməsi ilə bağlı Paşinyan parlamentlə hökumət arasında qanunverici orqanda bir neçə həftə əvvəl keçirilən sual-cavab sessiyası zamanı danışmışdı. Buna səbəb isə kilsənin və katolikos II Qareginin öz iş-gücünü bir tərəfə ataraq, son vaxtlar siyasi proseslərə qarışması, o cümlədən etiraz aksiyalarına üstüörtülü dəstək verməsidir. Təsadüfi deyil ki, Nikolu devirməyə çalışanlara hazırda kilsənin yeparxiyalarından birinin rəhbəri başçılıq edir.



**"Qafqaz Strateji Araşdırmalar Mərkəzi"nin sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy** Ermənistandakı aksiyaların uğursuzluğa düçar olmasının səbəbləri barədə "XQ"-nin sualına cavab olaraq bildirdi ki, etirazçıların hakimiyyətə gələ bilmələri üçün daxili və xarici faktorlara ehtiyac var. Onun sözlərinə görə, xüsusilə daxili faktorların rolu əhəmiyyətli olur. Xarici faktorlar isə prosesə müəyyən dəstək verir. Ancaq Ermənistandakı aksiyalar zamanı biz həm daxili, həm də xarici faktorların yetərli effekt vermədiyini gördük: "Daxili siyasət baxımından məsələyə yanaşsaq, görərik ki, bu dəfə keyfiyyətcə yeni fiqurlar – keşiş üzərindən kilsə dövriyyəyə girmişdi. Mövzu kimi, Azərbaycanla sərhədyanı kəndlər məsələsini gündəmə gətirmişdilər. Regiondan başlayan proses gəlib paytaxt İrəvana çatmışdı. Müəyyən aktivlik var idi. Amma keşiş və onun arxasındakılar kütləni yetərincə səfərbər edə bilmədilər. Həmçinin, onlar sərhədyanı bölgədə gedən prosesi dayandıra bilmədilər. Zatən dayandıra da bilməzdilər. Bu da onlarda inamsızlıq yaratdı. Onların təbii müttəfiqi ola biləcək Koçaryan və Sarkisyan da prosesə kənardan yanaşmağa çalışdılar. Risk etmək istəmədilər. Çünki ən azı indiki mərhələdə onun uğuruna inanmadılar".

N.Cəfərsoy qeyd etdi ki, proseslərdə əsas fəallıq göstərəcək qüvvə Qarabağ klanı və ya bölgədən getmiş ermənilər ola bilərdi. Hazırda ölkənin daxili siyasətində Qarabağ erməniləri ilə İrəvan erməniləri arasında ciddi inamsızlıq var: "Erməni xalqı hazırda bu cür kasıb yaşamasının və problemlərinin çox olmasında iki səbəb göstərir. Onlar qeyd edirlər ki, birinci səbəb Qarabağ klanının 20 il ölkəni talan etmiş korrupsioner və rüşvətxor rejimidir. İkinci səbəb isə klanın Ermənistana "miras" qoyduğu Azərbaycan və Türkiyə ilə münaqişədir. Buna görə də erməni xalqının böyük əksəriyyəti bu məsələlərə passiv, seyrçi və neqativ yanaşır. Bu kimi səbəblər üzündən etiraz hərəkatı xalq tərəfindən yetərincə dəstək ala bilmədi".

Müsahibimiz bildirdi ki, digər tərəfdən müxalif siyasi qüvvələr prosesdə lazımınca fəallıq göstərə bilmədilər. Bundan əlavə, hakimiyyət bloku da monolit qaldı. Hakim düşərgədən heç kim istefa verib müxalifətə qoşulmadı. Eyni zamanda, proseslərin nəzarət altında saxlanılması üçün ölkənin hüquq-mühafizə və təhlükəsizlik orqanları ciddi əmək sərf etdilər. Onlar açıq mövqe ortaya qoydular və etirazçıların mümkün təxribatlarını əngəllədilər. Hakimiyyət ordunun proseslərdən kənarda qalmasına da nail oldu. Bundan əlavə, Paşinyan ictimaiyyəti yaxşı idarə edə, ictimai rəyi yaxşı yönəldə bildi. Nikol həmin dövrdə cəmiyyətlə dialoq qurdu, ictimai televiziyaya çıxdı, regionlara getdi. Paşinyan xüsusilə, mayın 26-da Lori və Tavuş bölgələrində sel fəlakətindən dərhal sonra həmin bölgələrə getməklə, təbii fəlakətin nəticələrinin operativ şəkildə aradan qaldırılmasına dair göstərişlər verməklə özünün populyarlığını gücləndirdi. Bir sözlə, Paşinyan ictimai diplomatiya yönündə vacib addımlar atdı. Bütün bunlar daxili siyasət baxımından Nikolun uğurunu təmin edən səbəblərdir.

Prosesin xarici amilləri barədə fikirlərini bölüşən N.Cəfərsoy dedi ki, Qərbin Paşinyana daha çox dəstək verdiyi aydındır: "Qərb, sadəcə olaraq, bəyan etdi ki, etirazçıları sərt şəkildə dağıtmayın, demokratiyaya xələl gəlməsin. Ancaq etirazçılara açıq dəstək vermədilər. Hətta, keşişin vətəndaşı olduğu Kanada da proseslərdə çox səssiz davrandı. Paşinyan isə onsuz da ehtiyac olmadığı təqdirdə sərt gücdən istifadə etməyərək Qərbin dəstəyini qazanmış oldu".

Politoloq, həmçinin bildirdi ki, Rusiya da ən azı indiki mərhələdə Paşinyanın hakimiyyətdən getməsində maraqlı deyil. Moskvanın istəyi Paşinyanın Zəngəzur dəhlizinin açılması istiqamətində addımlar atması, Rusiya–Ermənistan münasibətlərinin inkişaf etdirilməsi və İrəvanın KTMT-dən uzaqlaşmamasıdır.

***Səxavət HƏMİD***
***XQ***

# TÜRKPA-ya sədrlik Azərbaycana keçib

**İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyası Şurasının 13-cü iclası keçirilib. Qurumun fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş iclası açaraq qeyd edib ki, görülmüş işlərə nəzər saldıqda əminliklə demək olar ki, Türk əməkdaşlıq qurumları arasında xüsusi yerə malik olan TÜRKPA gündən-günə böyüməkdə və inkişaf etməkdədir.**




Sonra Numan Kurtulmuş quruma sədrliyi Milli Məclisin Sədri Sahibə Qafarovaya təhvil verib və Azərbaycan tərəfinə uğurlar arzulayıb.

*

Sahibə Qafarova Şuranın 13-cü iclasında giriş nitqi ilə şıxış edib. Spiker deyib ki, Türk birliyinin gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətini təşkil edir. Təşkilata sədrliyi dövründə səmərəli fəaliyyətinə, Türk dünyasında parlament diplomatiyası və əməkdaşlığın gücləndirilməsinə verdiyi töhfələrə görə Numan Kurtulmuş başda olmaqla Türkiyə Böyük Millət Məclisinə minnətdarlığını bildirən S.Qafarova Milli Məclisin qarşıdakı dövrdə qurumun məqsədlərinə nail olunmasına, əməkdaşlığın daha da inkişafı üçün lazımı tədbirlərin həyata keçirilməsinə çalışacağına əminliyini ifadə edib.

S.Qafarova türk əməkdaşlıq qurumlarının xalqlarımızın fikir və əməl birliyinin möhkəmləndirilməsi istiqamətində inamla fəaliyyət göstərdiyini məmnuniyyətlə qeyd edib və Azərbaycanın TÜRKPA-nın ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə verdiyi töhfələri yüksək qiymətləndirdiyini deyib.

Spiker Türk birliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən davamlı tədbirlərin Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətini təşkil etdiyini vurğulayaraq, Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" kəlamını xatırladıb.

İclasda təşkilatın seçki müşahidə missiyalarının yekun hesabatının layihəsinin də müzakirə ediləcəyi diqqətə çatdırılıb. Həmçinin "Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" ilə bağlı aparılacaq müzakirələrin və qəbul ediləcək qərarların iqlim dəyişmələrinə qarşı mübarizəyə, ölkələrimizin "yaşıl enerji" sahəsində əməkdaşlığına parlament dəstəyinin ifadəsi olacağı bildirilib.

*

Həmin gün Bakıda TÜRKPA-nın 13-cü plenar iclası çərçivəsində parlament baş katiblərinin birinci görüşü keçirilib. Görüşdə çıxış edən Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev TÜRKPA-nın həm üzv və tərəfdaş dövlətlər, həm də onların hüdudlarından kənarda böyük nüfuza malik olduğunu deyib.

Görüşdə "TÜRKPA çərçivəsində parlamentlərin aparat rəhbərləri arasında əməkdaşlığın perspektivləri" mövzusunda müzakirə aparılıb.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# Azərbaycanın sədrliyi ilə TÜRKPA-nın ilk iclası keçirilib



**İyunun 6-da Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının 13-cü Plenar iclası keçirilib. İclas "Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu" mövzusuna həsr olunub.**

İclasa Milli Məclisin Sədri Sahibə Qafarova sədrlik edib. O, qardaş türk dövlətlərinin parlament sədrlərini, bütün nümayəndə heyətlərini salamlayaraq, iclas çərçivəsində aparılacaq müzakirələrin əməkdaşlığımızın və birgə fəaliyyətimizin daha da genişlənməsinə təkan verəcəyinə inamını ifadə edib.

Prezident İlham Əliyevin cari il fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində səsləndirdiyi "Bizim ailəmiz Türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikrini iclas iştirakçılarının diqqətinə çatdıran Milli Məclisin Sədri vurğulayıb ki, Türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasət prioritetlərindən biri olaraq qalmaqda davam edəcək.

Ölkələrimiz arasında çoxtərəfli əlaqələrin dərinləşdirilməsində türk əməkdaşlıq təşkilatlarının hər birinin rolu olduğunu söyləyən S.Qafarova bildirib ki, bu təşkilatların ən böyük xüsusiyyəti onların ortaq mədəniyyətə, tarixə, dilə, mənəvi dəyərlərə malik xalqları və ölkələri birləşdirməsidir.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladan spiker Sahibə Qafarova qeyd edib ki, son illərdə ölkəmizdə enerji təchizatında bərpa olunan enerjinin payının əhəmiyyətli dərəcədə artırılması istiqamətində mühüm addımlar atılıb.

Sonra TÜRKPA-nın 13-cü plenar iclasının gündəliyi təsdiq edilib və gündəlikdəki məsələlərin müzakirəsi keçirilib.

TÜRKPA-nın 13-cü plenar iclasında Bakı Bəyannaməsi qəbul edilib.

## Mətbuat konfransı

Bakıda keçirilən TÜRKPA-nın 13-cü plenar sessiyası çərçivəsində mətbuat konfransı təşkil olunub. S.Qafarova deyib ki, Azərbaycan TÜRKPA-nın fəaliyyətdə olan sədri kimi əməkdaşlığın inkişafı naminə var gücü ilə çalışacaq.

TÜRKPA-nın 13-cü sessiyasının nəticələrinin ümumi işə, əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirən spiker deyib ki, TÜRKPA ortaq dəyərlərə sahib bir qurumdur və biz hamımız vahid güc kimi türk dövlətlərinin həmrəyliyi naminə birgə səylərimizi davam etdirəcəyik.

Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, tədbirdə "yaşıl enerji" sahəsində plenar sessiyada aparılan müzakirələr, irəli sürülən təkliflər öz töhfəsini verəcək.

*Ə.BƏDƏLOV*
*XQ*

# Sosial uğurlarımız Beynəlxalq Əmək Konfransında




**Cenevrədə Beynəlxalq Əmək Təşkilatına üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Beynəlxalq Əmək Konfransının 112-ci sessiyası keçirilir.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək təşkilatın yenilənmiş Qlobal Sosial Müqavilə təşəbbüsünün əhəmiyyətini qeyd edib. O, BƏT-in prinsiplərinə uyğun olaraq ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahələrində sosial tərəfdaşlığa xüsusi önəm verildiyini vurğulayıb.

Nazir DOST konsepsiyasının və son illər sosial sahədə icra edilən geniş elektronlaşdırma proqramının, əmək və məşğulluq sahəsində aparılan siyasətin BƏT-lə sıx əməkdaşlıqda həyata keçirildiyini vurğulayıb.

Sahil Babayev Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edəcəyi, COP29-un BƏT-in gündəliyini daha irəli aparmaq üçün faydalı platforma olacağını diqqətə çatdırıb.

***

Sahil Babayev sessiya çərçivəsində Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhanla görüşüb. Söhbət zamanı iki nazirlik arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın bu il mayın 30-da Bakıda keçirilən 11-ci iclasının əlaqələrin daha da genişlənməsində önəmi qeyd edilib. Sonra S.Babayev Moldovanın sosial müdafiə naziri Aleksey Buzunu Beynəlxalq Əmək Konfransının builki sessiyasının prezidenti seçilməsi münasibətilə təbrik edib. İsveçrə Konfederasiyasının dövlət katibi Boris Zürxerlə görüşdə iki ölkə arasında əmək və məşğulluq sahəsində əməkdaşlığın genişləndirilməsi, fəal təcrübə mübadilələrinin aparılması üçün böyük potensial olduğu bildirilib.

*Z.HÜSEYNOVA*
*XQ*

# Bakı Enerji Forumunda "yaşıl" müzakirələr

**Azərbaycan paytaxtının ev sahibliyi etdiyi Enerji Həftəsi çərçivəsində keçirilən Bakı Enerji Forumunun ikinci günündə "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Neft axınları: Kross-logistika və Azərbaycanda infrastrukturun inkişafı" və "Uğurlu enerji keçidində insan kapitalının rolu" mövzuları müzakirə edilib. Eyni zamanda, COP29 ərəfəsində Bakı Enerji Forumunun proqramına "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiya da əlavə olunub. Sessiyada digər ölkələrdən dəvət olunan xüsusi qonaqlar məruzəçi qismində iştirak ediblər.**




Xarici siyasət və Xəzər regionu üzrə enerji eksperti Brenda Şafferin moderatorluğu ilə keçirilən "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu" mövzusunda keçirilən panel iclasda SOCAR-ın vitse-prezidentinin müşaviri Səriyyə Bünyatova çıxış edərək deyib ki, "yaşıl enerji"nin inkişafına baxmayaraq, təbii qaza olan tələbat azalmır. 2040-cı ildə Avropada qaza olan tələbatın nəzərəçarpacaq dərəcədə azalmayacağını vurğulayan S. Bünyatova bildirib ki, buna görə də SOCAR hasilat sektorunda işləri daha da sürətləndirməyə çalışır. 2023-cü ilin iyul ayında "Abşeron" yatağında qaz hasilatının istehsalı istiqamətində işə başladığını diqqətə çatdıran müşavir hazırda yatağın tam işlənməsi üzrə işlərin aparıldığını bildirib. Onun sözlərinə görə, bundan məqsəd növbəti illərdə təchizatı gücləndirmək və ixracı yüksəltməkdir. "Biz getdikcə xarici investorların hasilat sektoruna marağının artdığını görürük. Əminik ki, bu maraq davamlı olacaq. Həmçinin başqa yeni layihələr də planlaşdırırıq. Biz hasilat portfelimizi inkişaf etdiririk ki, həm yerli, həm də regional tələbatı qarşılaya bilək", – deyə o, əlavə edib.

BP-nin qaz və qaz karbonlu enerjinin inkişafı üzrə regional (Azərbaycan, Gürcüstan və Türkiyə) vitse-prezidenti Katerina Papaleksandri təmsil etdiyi şirkətin Səngəçal terminalının karbonsuzlaşdırılması istiqamətində gördüyü işlərdən bəhs edib. Onun sözlərinə görə, BP günəş enerjisi ilə bağlı layihənin icrasına başlamağa hazırdır və bu, karbonsuzlaşmaya kömək edəcək amillərdəndir. BP-nin vitse-prezidenti, həmçinin qeyd edib ki, hazırda "Şahdəniz" yatağından gündəlik 79,5 milyon kubmetr təbii qaz hasil olunur və bu, Azərbaycanı, eləcə də regionu və Avropanı "mavi yanacaq"la təmin edir.

Daha sonra mövzu ətrafında Almaniyanın "Uniper" şirkətinin vitse-prezidenti Mixael Himler, Macarıstanın "MVM Group"un baş direktoru Karoly Tamas Matrai, Almaniyanın "VNG Handel & Vertrieb GmbH" şirkətinin idarəedici direktoru Konstantin Herzoq von Oldenburq və başqaları qaz təchizatının təhlükəsizliyi və dayanıqlığı, təbii fəlakətlər, kiberhücumlar və ətraf mühitə təsiri ilə bağlı risklər, Azərbaycanın zəngin qaz ehtiyatları və strateji mövqeyi Avropanın nöqteyi-nəzəri baxımından, mövcud qaz boru kəmərlərinin və saxlanma terminallarının modernləşdirilməsi və genişləndirilməsi yolu ilə qazın nəqli və saxlanmasının səmərəliliyinin artırılması, eləcə də enerji böhranı dövründə Avropanın enerji təhlükəsizliyinə və sabitliyinə qaz təchizatının töhfəsi ilə bağlı fikirlərinin çatdırıblar.

"Xəzər regionunda kəşfiyyat və hasilat imkanları" mövzusunda keçirilən panel müzakirələrdə çıxış edən SOCAR-ın vitse-prezidenti Babək Hüseynov geoloji kəşfiyyat işlərinin aparılması üçün təmsil etdiyi qurumun yaxşı komandaya malik olduğunu diqqətə çatdırıb. Hazırda "Ümid" yatağının 6 quyusunun olduğunu bildirən vitse-prezident deyib ki, aparılan kəşfiyyat işləri bu quyuların böyük potensialı olduğunu göstərir. O, "Total" şirkəti ilə əməkdaşlıq çərçivəsində həmin quyuların işlənməsinin həyata keçiriləcəyini vurğulayıb. B. Hüseynov, həmçinin "Qarabağ","Abşeron", "Naxçıvan" və "Babək" yataqlarında da geoloji kəşfiyyat işləri həyata keçirildiyini və böyük həcmdə neft və qaz ehtiyatlarının müəyyən edildiyini diqqətə çatdırıb.

Mövzu ətrafında çıxış edən SOCAR-ın vitse-prezidenti Arzu Cavadova, BP-nin geologiya və işlənmə üzrə vitse-prezidenti (Azərbaycan, Gürcüstan və Türkiyə) Roşni Musai, GL GROP-un Məşvərət Şurasının üzvü Qilbert Bühler, "TotalEnergies" şirkətinin birgə müəssisə və inkişaf direktoru Ceyson Fiş, ABŞ-nin "Baker Hughes" şirkətinin Xəzər və Ukrayna üzrə direktoru Karlo Beltrame və başqaları Xəzər regionunda cari və gələcək hasilat, istifadə olunmamış karbohidrogen ehtiyatlarının qiymətləndirilməsi, Azərbaycanın onşor və ofşor zonalarında yeni yataqların və imkanların araşdırılması, mövcud yataqlarda hasilat səmərəliliyinin və bərpa əmsalının artırılması, Xəzər regionunda yeni qlobal oyunçular və digər məsələlərdən ətraflı bəhs ediblər.

Daha sonra "Neft axınları: Kross-logistika və Azərbaycanda infrastrukturun inkişafı" və "Uğurlu enerji keçidində insan kapitalının rolu" mövzularında keçirilən panellərdə SOCAR-ın vitse prezidenti Zaur Qəhrəmanov, AD Ports GROUP-un kommersiya direktoru Fridrix Portner, Atlantik Council Qlobal Enerji Mərkəzinin baş direktoru Landon Derentz, ADA Universitetinin dövlət, xarici tələbə işləri üzrə prorektoru Fariz İsmayılzadə, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva, Birləşmiş Ərəb Əmirliklərini ADNOC şirkətinin daxili, mədəniyyət və dəyişiklik kommunikasiyaları üzrə vitse-prezidenti Ali al Sayeq və başqaları çıxış ediblər.

Bütövlükdə isə, 600-dən çox nümayəndənin iştirakı ilə keçirilən forumda iki gün ərzində 80-dən çox məruzə dinlənilib. Bununla yanaşı, yerli və xarici şirkətlərin nümayəndələrinin ünsiyyət qurmasına və mümkün əməkdaşlığın bütün aspektlərini ətraflı müzakirə etməyə imkan verən ikitərəfli B2B işgüzar görüşlər keçirilib. Bununla da, Bakı Enerji Həftəsi öz işini başa çatdırıb.

Yeri gəlmişkən, enerji sənayesinin aparıcı nümayəndələri ilə görüşmək, yeni səmərəli və qarşılıqlı əlaqələr qurmaq və mövcud əlaqələri genişləndirmək üçün unikal imkanlar yaradan Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Energetika Nazirliyi dəstək göstərib. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti isə tədbirin baş tərəfdaşı qismində çıxış edib.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Güney Azərbaycan kitabı Türk dünyası festivalında



**Bugünlərdə Bakıda başa çatmış III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında türk ölkələri və toplumlarının sırasında Güney Azərbaycan da ayrıca ekspozisiya ilə təmsil olundu. İsveçdə Azərbaycan diasporu fəalı, Güneydə milli varlığımızın təsdiqi mövzusunda qəzetimizdə maraqlı yazılarla çıxış edən Abdulla Əmir Haşimi Cavanşir də bu bölmədə öz kitablarını təqdim etdi.**

Soydaşımızla redaksiyamızda növbəti görüşün mövzusu da Güney Azərbaycanın türk dünyasının söz və kitab bayramında ayrıca yer alması oldu.

**– Abdulla bəy, Güney Azərbaycanın III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında müstəqil ədəbi-mətbu vahid kimi təmsil olunması hansı zərurətdən irəli gəlib?**

– Bu, təbii bir ehtiyac, ədalətli bir seçim olaraq Güney Azərbaycan yazarlarının sevindirici uğurudur. Arazın o tayında – İran dövlətində və dünyada Güney mənşəli 40 milyona yaxın Azərbaycan türkü yaşayır. Zəngin ortaq folklor örnəkləri, “Kitabi-Dədə Qorqud”, Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Sabir, Vurğun, Şəhriyar irsi üzərində Güney əbəbiyyatı və kitabı da yaşayır və zənginləşir. Bu çoxmilyonlu milli-mədəni toplum Türk dünyası, Dünya azərbaycanlıları kimi, onların ədəbiyyat və kitab mədəniyyətinin də ayrılmaz tərkib hissəsidir.

Festivalda biz də öz kitablarımızı sərgilədik, oxucularla müxtəlif görüşlər keçirdik. Türk ölkələrinin yaradıcı insanları, naşirləri ilə ünsiyyətimiz tərəflər üçün maraqlı və faydalı oldu. Mənim son illərdə ərsəyə gətirdiyim Azərbaycan–İran münasibətləri barədə əsərim, Güney azadlıq hərəkatının qəhrəman liderləri olmuş Səttar xan və Şeyx Məhəmməd Xiyabani haqqında irihəcmli kitablarım, Güneydə milli hərəkat barədə məqalə və çıxışlar toplum festivalın qardaş ölkələrdən olan iştirakçılarında böyük maraq doğurdu. Bu əsərlərin Türk dünyasında da yayılması barədə razılıqlar əldə edildi.

Festival misilsiz bir mədəniyyət bayramı təsiri bağışlayırdı. Çoxsaylı qonaqlarla bərabər, Azərbaycanın hər yerindən minlərlə kitabsevər də əsl türklük coşqusu ilə təntənələrə qoşulmuşdu. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın, Milli Akademiyanın prezidenti, akademik İsa Həbibbəylinin, ölkədə fəxri qonaq olan türk Nobel mükafatçısı, hamımızın iftixarı Əziz Səncərin festivalda iştirak etmələri, dəyərli sözlər demələri nəhəng kitab auditoriyasında yüksək duyğu-düşüncələr yaratmışdı.

Mən bu festivalda ikinci dəfə idi iştirak edirdim. Ötənilki təəssüratım da unudulmazdır. Azərbaycan türk ortaqlığı çağırışları və təşəbbüsləri ilə Türk dünyasının mənəvi cazibə mərkəzinə çevrildiyi kimi, Bakı ədəbiyyat və kitab festivalı da qardaş xalqların söz adamlarını 3 ildir bir araya toplayır, yeni hədəflərlə kitab mədəniyyətimizin zənginləşməsinə, türk oxucu auditoriyasının genişlənməsinə xidmət edir. Bu, yeni bir tarix, imperialist dairələrinin Türk birliyinə vurduğu yaraların sürətlə sağaldılması, Türk sözünün yeni zəfəridir. Bakı Türk Ədəbiyyatı və Kitabı Festivalı özünü təsdiq edən bir mədəni formata çevrilib.

**– Abdulla bəy, tanıyanlar sizi Cavanşir adı ilə də çağırırlar...**

– Cavanşir mənim ədəbi, türklər demiş, taxma adımdır və belə çağırılmaq mənə çox xoş gəlir. Cavanşir erkən orta əsrlərdə Azərbaycanı Sasani fars əsarətindən çıxarmış, yeni ərəb işğalınadək dövlət müstəqilliyini yaşatmış qəhrəman hökmdarımızdır. Onun tarixi hünəri bizm dövrdə ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasını xatırladır. Mən onun adını Azərbaycanın azadlığı, bütövlüyü timsalı olaraq daşıyıram və bu amala xidmət edirəm. 40 milyonluq bir toplumun söz, kitab təmsilçisi olmaqdan hədsiz öyünc duyuram. Bu gün Güney Azərbaycanın nicatı ana dilini, milli varlığını qoruyub yaşatmaqdan, mənəvi dirçəlişdən keçir.

**– Söz, ədəbiyyat, kitab sərin-sazaqlı skandinav ölkəsində soydaşlarımızın qərib könlünü necə isindirir?**

– Bəli məhz isindirir və hər şeydən çox soyuq təsirlərdən qoruyur. Yad məmləkətdə biz mühacirlər nəslinin və övladlarımızın sığındığı mənəvi məkan ana dilimiz, doğma sözümüz, öz kitablarımızdır. Biz anadilli kitablara milli-mənəvi dəyərlərin saxlancı və tükənməz mənbəyi kimi baxırıq. Stokholm bələdiyyə kitabxanasında ana dilində kitablar bölməsi yaratmışıq. Burada mindən artıq dəyərli nəşr toplanıb. Evlərimizdə də xeyli kitabımız var, bir-birimizlə mübadilə edirik. Hər Bakıya gələndə ən qiymətli hədiyyəm kitablarım, ən dəyərli yüküm isə apardığım yeni nəşrlər olur. İsveçdəki Azərbaycan səfirliyi də bizə vaxtaşırı dəyərli kitablar hədiyyə edir.

**– Yeri gəlmişkən, elektron mühacir kitabxanası yaratmaq olmazmı?**

– Əlbəttə, olar. Biz intrnetdə anadilli kitablarımızla tanış ola bilirik. Amma ayrıca mühacirlər seriyası da yaratmağın vaxtı çatıb. Milli Kitabxana bu işi daha mükəmməl yerinə yetirə bilər. Ayrı-ayrı müəlliflər də əsərlərini bu elektron ünvana yerləşdirsə, yaxşı olar.

**– Bakı Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı sizə yeni mövzu verdimi?**

– Səttar xan və Şeyx Məhəmməd Xiyabani haqqında kitablarımın maraqla qarşılanması məndə XX əsrdə Güneydə ikinci dəfə dövlətçiliyimizi bərpa etmiş Seyid Cəfər Pişəvəri və Milli hökumət barədə də belə bir mənbə yaratmaq istəyini qətiləşdirdi. Arzum növbəti festivalda da iştirak etmək və həmin kitabı türk dünyası oxucularına çatdırmaqdır. Sonda bütün soydaşlarımızı kitabı sevməyə, fəal oxucu olmağa çağırıram. Bizə dilimizi anamız öyrədir, kitablar isə soydaşlarımızı vətəndaş kimi yetişdirir. Bu mənada, kitab dilmizin və milli varlığımızın mənəvi anasıdır.

**– Abdulla bəy, söhbətiniz oxucularımız üçün də maraqlı olacaq. Redaksiyamızda görüşümüzün geniş videovariantı isə “Xalq qəzeti” TV-nin tamaşaçılarına təqdim ediləcək. Qərib diyarda soydaşlarımıza anadilli kitab dünyamızın, qəzetimizin və internet televiziyamızın fəal izləyiciləri olmağı arzulayırıq.**

***Söhbəti yazıya aldı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Borçalının sonuncu sazbəndi



**Gürcüstanın Borçalı mahalının əhalisi şifahi xalq yaradıcılığının əsas qollarından biri olan ozan sənətinə yüksək qiymət verir, saz ifaçılığının ənənələrini sevə-sevə yaşadır. Burada saz aləti müqəddəs hesab edilir. Hətta yeni doğulan körpənin adına saz bağlanır, uşaqlar ana laylası ilə yanaşı, aşıq havalarının sədaları ilə böyüyürlər.**

Təəssüf ki, bu gün Borçalıda saz alətinin hazırlanması – sazbəndlik sahəsində vəziyyət ürəkaçan deyil. Aldığımız məlumatlardan bəlli oldu ki, hazırda bu sənətlə məşğul olan yalnız Bafəli Adıgözəlovdur. Onunla söhbət zamanı dedi:

– Uzun illərdir ki, Gürcüstanda sazımızın, sözümüzün, musiqimizin və mədəniyyətimizin qorunub yaşadılması sahəsində fəaliyyətimi davam etdirirəm. İki qardaş ölkə arasında ədəbi-mədəni əlaqələrin inkişafına, eləcə də Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliğinə verə bildiyim töhfələr “Diaspor fəaliyyətində xidmətə görə” medalına layiq görülüb. Buna görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm. Bu medal dövlət başçısının Gürcüstanda yaşayan soydaşlarımıza, sənət adamlarına göstərdiyi qayğı və diqqətin bariz nümunəsidir.

Bafəli Adıgözəlov soydaşlarımız arasında həm də aşıq, zurna ifaçısı kimi məşhurdur. Bafəli müəllim bu gün Borçalı ətrafında sazbəndlik sənətinə marağın olmamasından çox narahatdır:

– Kim istəyirsə, gəlsin, öyrədim. Mən hamıya deyirəm, heç kimdən heç nə güdmədən bu sənəti öyrədərəm, istək olsun, yetər, təki sənət yaşasın.

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə rəhbərləri Marneulidə olarkən onunla sazbənd sənətinin inkişafı üçün müasir tipli emalatxananın açılması barədə fikir mübadiləsi aparıblar. B.Adıgözəlov da ümidvardır ki, komitənin dəstəyi ilə sazbəndlik sahəsində yeni nəsil sənətkarların yetişməsi üçün lazımi şərait yaradılacaq və o da bu işə öz töhfələrini verəcək.

***XQ***

# Rəssamların rəngkarlıq hesabatı

**Azərbaycan Milli İncəsənət Muzeyində ekspozisiyanın açılışında mədəniyyət naziri Adil Kərimli, respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.**



Muzeyin direktoru Şirin Məlikova qeyd edib ki, burada, ümumilikdə, 157 rəngkarlıq, qrafika, heykəltəraşlıq və keramika nümunəsi təqdim olunur. Əsərlər XX əsrdə təsviri sənətdə gedən gərgin yaradıcılıq axtarışlarını əks etdirir. Ötən əsrin ilk yarısında milli qrafika sənətinin formalaşmasına böyük töhfələr vermiş, özünəməxsus dəst-xəttə malik rəssamların müxtəlif janr və texnikalarda yaratdıqları silsilə əsərlər təşkil edir. Sərgidə ilk dəfə olaraq Bəhruz Kəngərlinin portret, mənzərə eskiz və rəsmlərindən ibarət albomlar yer alıb.

İnteraktiv xarakter daşıyan sərginin ekspozisiyasında, həmçinin XX əsrin müxtəlif onilliklərində ərsəyə gəlmiş, qrafik əsərlərlə həmahənglik yaradan müəlliflər tərəfindən işlənilmiş keramik fiqurlar və dekorativ boşqablar da nümayiş olunur. Hər bir zalda tamaşaçılar QR kod vasitəsilə aid olduqları yaş qrupunu qeyd edib bəyəndikləri əsərə səs vermək imkanına malikdirlər.

Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov sərgidə yer alan əsərlərin hər birinin xüsusi əhəmiyyətə malik olduğunu söyləyib. O vurğulayıb ki, muzeydə keçirilən hər görüş, hər yeni sərgi təqdirəlayiq bayrama çevrilir.

Sonda qonaqlar sərgilənən eksponatlarla yaxından tanış olublar.

***XQ***

# Naxçıvanda “Qərbi Azərbaycana qayıdış”a növbəti dəstək



**Ötən il Naxçıvanda keçirilmiş “Qərbi Azərbaycana qayıdış” festival-konqresi hərəkata geniş ümumxalq dəstəyi qazandırmaqla yanaşı, yaddaşlarda unudulmaz izlər qoymuşdu. Bu il iyunun 21-22-də isə Şahbuz rayonunun Batabat yaylağında II “Qərbi Azərbaycana qayıdış” festival-konqresi keçiriləcək.**

Bu barədə jurnalistlərə açıqlama verən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, festival-konqresdə Qərbi Azərbaycanda xalqımızın uzun illər ərzində yaratdığı mədəni irs, tarixi keçmişimiz təbliğ ediləcək. Festival-konqresdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, mətbəx, musiqi və yallı nömrələri, sərgilər, ədəbi-bədii kompozisiyalar təqdim olunacaq.

Rektor bildirib ki, festival-konqres çərçivəsində iyunun 21-də qaçqın ailəsindən olan 2 gəncin toy məclisi də olacaq. Mərasim Qərbi Azərbaycanın adət-ənənəsinə uyğun keçiriləcək. Festivalda Qərbi Azərbaycan kulinariya sərgisi də təşkil ediləcək, qədim diyarın 11 mahalını canlandıran çadırlar qurulacaq.

***XQ***

**Münəvvər Rzayeva – 95**

# Nazim Hikmətin mənəvi qızı

## *Daşları insanlaşdıran sənətkar*

**Dəfələrlə şahidi olmuşdum ki, Mikayıl Müşfiqin abidəsi önünə toplaşanlar şairin nakam taleyindən, yaradıcılığından danışıblar. Xəyala dalmış Müşfiqin daş obrazının müəllifini isə xatırlayan olmayıb. Bir gün özüm maraqlanıb öyrəndim ki, müəllif Azərbaycanın ilk monumentalçı qadın heykəltəraşı, Əməkdar rəssam Münəvvər Rzayevadır.**



Bir dəfə də R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində görkəmli tişə ustasına həsr edilmiş sərgidə onun əsərləri, həyat və yaradıcılığını əks etdirən fotolar, məktublar, məqalələrlə tanış oldum. Həmin sərgidə mərhum yazıçı Aqşin Babayevin, heykəltəraş Fəxrəddin Əliyevin xatirələrini dinlədim...

Münəvvər Rzayeva 1929-cu il iyunun 6-da Şuşada tanınmış xalça ustası Məcid kişinin ailəsində doğulub. Abidələrlə zəngin şəhərdə böyüyə-böyüyə sənətə könül verib. Bu sevgi onu Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə gətirib. Ardınca Moskvada V.Surikov adına Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsində oxuyub.

Özünəməxsus dəst-xəttə malik heykəltəraş olan Münəvvər Rzayeva əsasən psixoloji portret ustası idi. Yaratdığı obrazların daxili aləmini, psixoloji durumunu, dünyaduyumunu əks etdirmək üçün heykəlin gözlərini xüsusi incəlik və dolğunluqla işləyirdi. Bu, onun yaradıcılıq üslubunun əsas cəhəti idi. İstedadı, zəngin təxəyyülü, yüksək professionallığı və texniki ustalığı sayəsində qranit, mərmər, bürünc, ağac və s. materiallardan istifadə edərək yaratdığı heykəllərdə bədii ideyanın orijinallığı diqqəti cəlb edir. Əsasən, dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəlləri, büstləri, barelyef və başqa bu kimi əsərlərinin hər biri nadir sənət nümunələri kimi qiymətləndirilib. Yaradıcılığında ədiblərə xüsusi məhəbbətlə yanaşıb və Məhsəti Gəncəvinin, Şah İsmayıl Xətainin, Hüseyn Cavid, Sergey Yesenin, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Nazim Hikmətin heykəl və büstlərini ərsəyə gətirib.

Onun yaradıcılıq nümunələrinin hər birinin öz maraqlı tarixçəsi var. Məsələn, Münəvvər xanım düz 70 il əvvəl, 25 yaşında ikən Moskvada dünya şöhrətli şair Nazim Hikmətlə tanış olub. Qürbət mühitində yurd həsrəti çəkən, ömür-gün dostu Münəvvər üçün darıxan şair azərbaycanlı tələbə qıza doğma balası kimi yanaşır. Ata-övlad münasibətləri o həddə olur ki, Nazim Hikmət bir neçə il sonra ağır sətəlcəm keçirən qızın müalicəsi üçün ən bacarıqlı həkimləri gətirir və Münəvvər sağalandan sonra ona “Mənim bir oğlum var, sən də qızım ol”, – deyir. Münəvvər təklifi qəbul edir və böyük şairin yanına köçür. Nazim Hikmət mənəvi övladına xatirə olaraq verdiyi portretin arxasına bu sözləri yazır: “Adaşın mənə görə bəxtiqara oldu, sənə faydam toxunar inşallah, qızım”.

Münəvvər xanım institutu bitirəndə şair ondan ayrılmaq istəməsə də, gənc məzun razılaşmır. Çünki Bakıda onu anası gözləyirdi. Bir də ki, dünyada tanınmış şəxsiyyətin sayəsində deyil, öz zəhməti ilə irəliləmək istəyir. Eyni zamanda, Nazim Hikmətin bu vəsiyyətini də unutmur: “Bilirəm, mən öldükdən sonra abidəmi hazırlayacaqsan. Onun üstündə uzaqda qalmış bir qadın surəti, bir də mənim gözlərimi həkk elə...” Təbii ki, Münəvvər mənəvi atasının sözünə əməl edir. Həmin büst hazırda Zaqatala muzeyindədir.

Münəvvər Rzayeva 100-dək müxtəlif səpkili sənət əsəri yaradıb, mötəbər sərgilərdə iştirak edib. Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü, AMEA Nizami adına Ədəbiyyat Muzeyində bərpaçı rəssam kimi çalışıb. Əsərləri küçə və meydanları bəzəməklə bərabər, Azərbaycan Dövlət İncəsənət Muzeyində, AMEA Nizami adına Ədəbiyyat Muzeyində, Bədii Fondda və bölgələrimizin mədəniyyət ocaqlarında saxlanılır. Onun sonuncu işlərindən biri Şahdağ silsiləsində 3 min 763 metr hündürlükdə olan “Heydər zirvəsi”nə bərkidilən Heydər Əliyevin tunc barelyefidir. Barelyefi 1998-ci ildə mayın 10-da Ulu öndərin 75 illik yubileyi münasibətilə alpinistlər dəstəsi fəth etdiyi dağ zirvəsinə bərkidib.

Münəvvər Rzayeva ilə bağlı bir fakt da budur ki, 2004-cü il iyunun 6-da – məhz doğum günündə dünyasını dəyişib. Amma onun həyatı yaradıcı əllərindən yoğrulmuş, ədəbiləşmiş heykəllərlə, büstlərlə bərabər davam edir.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Dağılan tifaq” Şuşaya qayıdır

**İki gündən sonra – iyunun 9-da Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” tamaşası ilə sənətsevərlərin görüşünə gələcək.**



Tamaşanın quruluşçu rejissoru Əməkdar artist, teatrın direktoru Yadigar Muradov, rejissoru Lalə Şirinova, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artisti Azad Məmmədovdur.

Rolları Xalq artisti Şükufə Musayeva, əməkdar artistlər Teymur Məmmədov, Nazir Rüstəmov, Azad Məmmədov, teatrın aktyorları Rasəf Mehdiyev, Xanirə İsgəndərova, Türkay Cəfərli, Cavidan Kəsəmənli, Məmməd Məmmədov, Gündüz Qasımov və başqaları, uşaq rollarını isə məktəblilər Şəms Cahangirzadə və Kənan Rzazadə ifa edəcəklər.

Tamaşada görkəmli bəstəkar Fikrət Əmirovun əsərlərindən, xalq musiqi nümunələrindən, eləcə də 30 ildən artıq Şuşa Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmiş mərhum sənətkar, Əməkdar mədəniyyət işçisi tarzən Nəsib Məhərrəmovun lent yazısından istifadə olunur.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Modi Hindistana 5 il də rəhbərlik edəcək

## Lakin indi onun müxalifəti daha güclüdür

(əvvəli 1-ci səhifədə)

Bununla belə, daha 5 il müddətinə ölkə rəhbərliyində qalan Modi builki seçkilərdə ölkənin ən qocaman siyasi qüvvəsi olan Hindistan Milli Konqresi Partiyasının rəhbərlik etdiyi İ.N.D.I.A milli və regional partiyaların müxalifət ittifaqının daha inadkar mübarizəsi ilə üzləşib. Belə ki, I.N.D.I.A-nın 28 partiyasının koalisiyası da palatada iştirakını xeyli artırıb. Rəsmi məlumatların açıqlanması ərəfəsində Hindistan televiziya kanalları və sosioloji xidmətlərin exit-polları hakim ittifaqın Lok Sabhada 359-371 yer arasında qalib gələcəyini proqnozlaşdırırdı. Lakin hakim koalisiyanın əldə etdiyi səs çoxluğu son nəticədə o qədər də təsiredici olmadı. 2019-cu il seçkilərində Modinin partiyası təkbaşına 303 mandat qazanaraq hökuməti təkbaşına formalaşdırmağı bacarmışdı. 2019-cu il seçkilərində tarixində ən pis nəticə göstərən, cəmi 52 mandat əldə edən Hindistan Milli Konqres Partiyası bu dəfə Lok Sabhada təmsilçiliyini iki dəfədən çox artırdı. Bununla da müxalifətin İ.N.D.İ.A alyansı ona növbəti rüsvayçılıq vəd edən proqnozları təkzib etməyi bacardı.



Müxalifətin Narendra Modi partiyasına qarşı güclü mübarizə apara bildiyi əsas ştatlardan birinin Hindistanın biznes paytaxtı Mumbayın yerləşdiyi Maharaştra ştatının olduğu bildirilir. Seçki nəticələrinin hər kəs üçün sürpriz olmasının təsdiqi bazar ertəsi–çərşənbə axşamı birjanın dalğalanan dinamikası oldu. Bazar ertəsi Hindistan maliyyə bazarı Modinin partiyası üçün böyük bir qələbə gözləntiləri dalğasında rekord artım göstərdi. Lakin çərşənbə axşamı səhər saatlarından etibarən ştatlarda və digər ərazilərdə səslərin hesablanmasının nəticələrinə dair hakim alyans üçün o qədər də ürəkaçan olmayan məlumatlar real vaxtda gəlməyə başlayandan sonra Hindistan birja indeksləri 6 faizdən çox ucuzlaşdı. Rupi də dollara nisbətdə dəyər itirdi.

İnamlı qələbə ilə bağlı fərziyyələr təsdiqlənmədi. Müxalifət daha yaxşı nəticələr qazandı. Modinin müxalifətin uğurlu çıxışını gözləmədiyini X sosial şəbəkəsindəki səhifəsində paylaşdığı məlumat da təsdiqləyir: “Əminliklə deyə bilərəm ki, Hindistan xalqı bu hökumət altında yoxsulların həyatı yaxşılaşdığı üçün hakim Milli Demokratik Alyans hökumətini yenidən seçmək üçün rekord sayda səs verdi. Seçicilər bizim nələrə nail olduğumuzun və işimizin yoxsul, təcrid olunmuş və məzlum insanların həyatında necə keyfiyyət dəyişikliklərinə səbəb olduğunun siyahısını gördülər”. Modi müxalifət I.N.D.I.A ittifaqından olan siyasətçiləri “kastapərəst, icma və korrupsioner” adlandırır. Amma Modi siyasi təvazökarlığı “unudaraq” NDTV-yə verdiyi son müsahibədə baş nazir kimi xidmət etmək üçün Tanrı tərəfindən göndərildiyini bildirir.

BJP-nin seçki proqramı hazırda ÜDM-ə görə dünyanın beşinci ən böyük iqtisadiyyatı olan Hindistanın üçüncü ən böyük iqtisadiyyata çevriləcəyini proqnozlaşdırır. Lakin hökumət 10 ildə kifayət qədər iş yeri yarada bilmədi. Apreldə işsizlərin sayı mart ayı ilə müqayisədə artdı. Doğrudur, Modi yeni magistral yollar və hava limanları kimi nəhəng infrastruktur layihələri həyata keçirdi ki, bu da orta təbəqəyə müsbət təsir göstərdi. Lakin Hindistanda böyük əksəriyyəti təşkil edən yoxsulların həyatında dəyişikliklərə gətirib çıxarmadı. Orta təbəqə gözlədiyindən az faydalandı. Kasıblar isə faydalardan praktiki olaraq kənarda qaldılar və real vəziyyətə uyğun da səs verdilər. Modi məscidlərin yerində hindu məbədləri ucaltmaqla induslların dini hissləri üzərində populyarlığını artırmağa çalışsa da, gözlədiyi güclü dəstəyi ala bilmədi. Son seçkilər göstərdi ki, iş yerlərinin yaradılması, normal qidalanmaq arzusu daha vacibdir.

*SE LAY*
*XQ*

# Sertifikasiya: Bilikli müəllimə zaval yoxdur





**Elm və Təhsil Nazirliyi iyunun 6-da təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı media nümayəndələri üçün məlumatlandırıcı sessiya keçirdi. STEAM İnnovasiya Mərkəzində keçirilən sessiyada nazirliyin səlahiyyətli şəxsləri müəllimlərin sertifikatlaşdırılması ilə bağlı son proseslərə aydınlıq gətirdilər.**

Tədbiri açan Elm və Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzazadə dedi ki, keçən il sertifikasiya göstəricisi zəif olan 743 müəllimin əmək müqaviləsinə xitam verildi. Bu il 2023-cü ildə uğur qazanmayan, təxminən, 8 mindən çox müəllimə yenidən şans veriləcək.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov çıxışında bildirdi ki, bu gün ölkədə sertifikasiya imtahanından uğurla keçən müəllimin orta aylıq əməkhaqqı 1300 manatdır: “Belə müəllimlərin sayı 8 minə yaxındır. Bu il keçiriləcək sertifikasiya imtahanı nəticələrinə görə yeni tədris ilində 20 mindən çox şəxsin tam statuslu müəllim sırasına qoşulması nəzərdə tutulur. Bundan əlavə, 60 yaşdan yuxarı 600 nəfərə yaxın müəllim sertifikasiyada könüllü iştirak etmək istəyir”.

Agentliyin direktoru açıqlamasında qeyd etdi ki, bu mərhələdə uğur qazana bilməyənlərin əksəriyyəti orta yaş qrupuna aid təhsilverənlərdir. Onun sözlərinə görə, gənc namizədlərin müsabiqədə uğurlu nəticə göstərməsindən aydın olur ki, burada problem öyrətmə metodu ilə bağlıdır.

E.Bağırov xatırlatdı ki, iyunun 8-də 8 minə yaxın müəllim təkrar sertifikasiya imtahanına cəlb olunacaq: “Son 6 ay ərzində onlar üçün inkişafetdirici təlimlər keçirilib. Böyük əksəriyyətin uğur qazanacağına inanırıq”.

MÜTDA-nın ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli isə bildirdi ki, məktəblərin 4-cü və 6-cı siniflərində keçirilən monitorinqlərin nəticələri sertifikasiya imtahanlarında uğur qazanan müəllimlərin şagirdlərinin göstəricilərinə təsirinin müsbət olduğunu deməyə əsas verir. Onun sözlərinə görə, sertifikasiya imtahanlarında uğur qazanan və yüksək bal toplayan müəllimlərin göstəriciləri nəzərə alınmaqla direktor və direktor müavini olmaq üçün əsas yaradacaq. Bunun üçün direktorların işə götürülməsi ilə bağlı yeni yanaşma hazırlanır.

Təhsil İnstitutunun Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinin direktoru Nəzakət Mehdiyeva test imtahanı mərhələsində sualların məzmununda heç bir fərqin olmadığını bildirdi və qeyd etdi ki, müsahibə mərhələsində kəsilən müəllimlərin öyrətmə üsulu qaneedici olmur. Keçən il 30-a yaxın müəllim müsahibə mərhələsindən keçə bilməyib.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Audiovizual Şura elektron siqaret reklamını qanun pozuntusu sayır

**Audiovizual Şura televiziya və ya radio kanallarında elektron siqaretlərin təbliğinin ölkə qanunvericiliyinin pozulması kimi dəyərləndirib.**

Qurumun bu barədə açıqlamasında bildirilir ki, son zamanlar bir sıra yayımçılara ödənişli əsasda bir məlumatın yayımlanması barədə təkliflər daxil olur. Həmin məlumatda bir sıra xarici xəbər agentliklərinə istinadla son zamanlar daha çox amerikalı siqaret aludəçilərinin alternativ nikotin məhsullarına keçmələri haqqında məlumatlar öz əksini tapıb. Belə informasiyalarda mütəxəssislərin daha çox insanın siqareti tərgitməsi və zərərli kimyəvi maddələrin təsiri guya az olan daha yaxşı məhsullara keçməsi tendensiyasına müsbət yanaşmaları iddia olunur.

Audiovizual Şura müvafiq media subyektlərinin sorğularına cavab olaraq və məsələnin ciddiliyini nəzərə alaraq bildirir ki, belə məlumatların televiziya və ya radio kanallarında yayımlanması “elektron siqaret”lərin təbliği hesab olunduğundan ölkə qanunvericiliyinin pozulmasıdır. Xatırladılır ki, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Qanununa əsasən bütün növ qəlyanlar və elektron siqaretlər tütün məmulatları hesab olunur. “Reklam haqqında” Qanunda da tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanlarının reklamı qadağandır.

Audiovizual Şura bildirir ki, qed edilən məlumatları yayan audiovizual media subyektinə inzibati sanksiya tətbiq ediləcək.

*XQ*

# Bakı və Tbilisi – qardaşlaşmış paytaxtlar

**XIV Tbilisi Yerli İqtisadi İnkişaf Forumunda (Sağlam şəhər – yaşıl, ekoloji təmiz mühit, çevik və dayanıqlı şəhər inkişafı) iştirak edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iyunun 6-da Gürcüstan paytaxtının meri Kaxa Kaladze ilə görüşüblər.**



Söhbət zamanı qardaşlaşmış iki paytaxt – Bakı və Tbilisi şəhərləri arasında əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Kaxa Kaladze dost, qardaş ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin olduğunu vurğulayıb. Eldar Əzizov Prezident İlham Əliyevin dost Gürcüstanla bağlı həyata keçirdiyi siyasət, işğaldan azad edilən ərazilərdə aparılan geniş bərpa-quruculuq işləri barədə məlumat verib. Vurğulanıb ki, Bakı ilə Tbilisi arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyəti və AMEA Tarix İnstitutunun birgə hazırladığı, 8 dildə çap olunmuş “Vətən müharibəsi tarixi – Şəxsiyyət faktoru” kitabını, Bakı haqqında nəşrləri Kaxa Kaladzeyə təqdim edib.

*XQ*

## Həyatın içindən

**Cavan pinəçi dostum Mətləblə söhbətə tez-tez gedirəm. Onunla işim olmasa da, bəzən çalışıram ki, yolumu köşkünün yanından salım. Çünki yoxlamışam, hansı gün Mətləblə salamlaşıram, o gün işlərim avand olur. Belə insanlar həyatda çox deyil. Görünür, bu da bir Allah vergisidir və hər kəsə qismət olmur. Bəlkə, ona görə ki, Mətləb vicdanlı, təmənnasız adamdır. O, çörəyini zəhmətlə qazanır, çətin dolanıb, kirayədə yaşasa da, çalışır ki, müştəridən çox pul almasın. Qəribədir, bu adam elə bilir ki, indi hamı çətin dolanır. Tanıyanlar deyir ki, Mətləb bu zəmanənin adamı deyil.**

Bir neçə gün əvvəl Mətləbə salam verib keçmək istədim. O isə məni görən kimi, əlindəkiləri iş stolunun üstünə qoyub ayağa durdu və qarşıma gəldi. Sonra dedi ki, işim azdı, gəl otur, söhbət eləyək. Onun sözünü yerə salmadım.

Mətləb əvvəlcə gülümsər gözlərini üzümə zillədi və bir az baxandan sonra günahkar adamlar kimi dedi:

# 300 manatın sərgüzəşti

## Kiminə şalvar-köynəkdir, kiminə isə acı göynəkdir



– Müəllim, yaman sınıxmısan ee. Ya işin ağırdı, ya da özünə fikir vermirsən. Belə olmaz, bu dünyanın malı bu dünyada qalacaq...

Onun ərkyana sözləri mənə çox xoş gəldi. Elə bildim ki, o sözləri söyləyən mənim əziz adamımdır. Zarafatla bildirdim ki, ay Mətləb, qocalıram daa...

Mətləb, deyəsən, mənim son sözlərimi yaxşı eşitmədi...Axı, o, uşaqlıqda aldığı hansısa zərbədən sonra çox zəif eşidir.

Birdən dedi ki, hə, həkimə getmişdim, ancaq işim düzəlmədi.

Soruşdum ki, niyə getmişdin?

– Qulağlma görə. İstəyirdim ki, ya qulağımı müalicə etdirim, ya da aparat alım. Çünki qızım neçə dəfə deyib ki, ata, mən istəyirəm səninlə çoxlu söhbət eləyim, sən də məni yaxşı eşitmirsən. Gərək qışqıra-qışqıra danışım...

Özümə qalsa, heç bundan sonra hər söz-söhbəti eşitmək istəmirəm. Onsuz da dünyanın xoşagəlməz söhbətləri o qədər çoxalıb ki, hamısını eşitməsəm, yaxşıdı. Amma bilirsən, bircə balam var...

– Həkim nə dedi?

– Yoxladı, sonra dedi ki, bir aparat verərik eşidərsən. Verdi də. Ancaq nə illah elədim o aparat qulağımda dayanmadı, həm də səs çox zəif gəlirdi, deyiləni əməlli-başlı ayırd edə bilmirdim. Buna görə qaytardım. Sonra balaca bir aparat da göstərdi, ancaq dedi ki, bunu biri satır, gərək pulunu verəsən. Qulağıma qoydum, çox rahat eşitdim. Sevndim. Həkim dedi ki, qiyməti 300 manatdır. Dedim, ay həkim, cəmi 170 manatım var. Pinəçiyəm, güclə dolanıram. Razılaşmadı. Gülüb dedi ki, pinəçisənsə sənə eşitmək elə də vacib deyil, başını aşağı sal, işini gör...Əsəbiləşib çıxdım oradan. Amma qızımın sözləri yadıma düşəndə ürəyim pis olur, neynim.

Mətləbin dedikləri məni də kövrəltdi. Lakin özümü sıxdım və ona ürək-dirək vermək istədim:

– Darıxma, Allah bir qapı açar.

Həmyerlim, dərzi Hicranın yanına getmişdim. O, mənim üçün tikdiyi şalvarı ütüləyə-ütüləyə gün-güzərandan danışırdı:

–Əvvəllər gəlir pis deyildi – xərcləri çıxandan sonra beş-on manat qalırdı. Yığıb ev-eşiyə də əl gəzdirə bilirdim. Uşaqların məktəb xərclərini də verirdim, xeyir-şərə də ürəklə gedirdim. Ancaq hər şeyin qiyməti qalxandan sonra başımızı birtəhər girləyirik. Bahalığa görə kostyum tikdirən də azalıb...

Bu vaxt binanın qarşısında bahalı avtomobil dayandı. Maşından kök, qarayanız biri düşdü. O, arxa oturacaqdan bir torba görürüb atelyeyə doğru gəldi. İçəri girib salam verdi və əlindəkini stolun üstünə qoyub dedi:

– Hicran, bu şalvardı, ancaq uzundu. Ölçümü özün bilirsən...

Hicran şalvarı açıb baxdı və sonra bildirdi:

– Çox gözəl parçası var, tikilişi də əladı.

Oğlan dedi:

– Elə parçasına görə ona 300 manat vermişəm. Bilirsən ki, evdə, azı, 40 şalvarım var...Yaxşı, mən getdim, sabah gəlib götürəcəm.

Oğlan getdikdən sonra Hicran dedi ki, bax, yenə təzə maşın alıb. Bakıya yeni marka gələn kimi, maşını dəyişir. Özü də heç yerdə işləmir. Qardaşının biri vəzifədədi, bu da dəllallıq eləyir. Adam var 300 manar tapmır ki, dərdinə, dərmanına versin, beləsi də o pulu bir şalvara verir.

300 manat söhbəti yadıma pinəçi Mətləbin göynəyə-göynəyə dediyi sözləri saldı və yenə ürəyimdən küt ağrı qopdu.

**Səməd MƏLİKZADƏ**


## “Hədiyyələr” ASC-nin 2024-cü il yanvarın 1-nə maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatı

ölçü vahidi: manatla

| Maddələrin adları | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| Qeyri-birja əməliyyatlarından gəlir | 127127.00 | 111340.00 |
| Birja əməliyyatlarından gəlir | | |
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | | |
| Təşkilat tərəfindən yerinə yetirilmiş və kapillaşdırılmış işlər | | |
| Pul formasında verilmiş yardımlar (xəsarət müavinəti) | 2484.00 | 2160.00 |
| Natural formada verilmiş yardımlar | | |
| Xammal və istifadə olunmuş materiallar | | |
| **Əmək haqqı xərcləri (hesablama)** | 38286.00 | 31561.00 |
| Köhnəlmə və amortizasiya xərcləri | 7478.00 | 8041.00 |
| Sair əməliyyat xərcləri | 84324.00 | 68342.00 |
| Uzunmüddətli aktivlərin xaric olmasından qazanc və itkilər | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | (2961.00) | 3396.00 |
| Maliyyə gəlirləri | 127127.00 | 111340.00 |
| Maliyyə xərcləri | 130088.00 | 107944.00 |
| Mənfəət vergisi | 0.00 | 679.00 |
| Hesabat dövrü üzrə xalis mənfəət (zərər) | (2961.00) | +2717.00 |

## “Sumqayıt Ərzaq-73” ASC səhmdarlarının nəzərinə!

25 iyul 2024-cü il, saat 10.00-da “Sumqayıt Ərzaq-73” ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. ASC-nin bölünməsi və bölünmə şəklində yenidən təşkili.
3. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil edilən MMC-nin təsis edilməsi və nizamnamə kapitalının formalaşması.
4. Bölünmə balansının təsdiq edilməsi.
5. ASC-nin bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
6. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
7. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanışlıq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi (050) 345-57-08.

Ünvan: Sumqayıt şəhəri, 17-ci mikrorayon, bina 62.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 119 (30523) 7 iyun 2024-cü il, cümə

İDMAN

## Millimiz Avropa çempionatında mübarizəni dayandırıb




**Azərbaycanın minifutbol millisi Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda 1/4 finalda Qazaxıstanla görüşüb.**

Qarşılaşmanın əsas vaxtında hesab açılmadığından qalibi müəyyən etmək üçün penalti zərbələri təyin edilib. Burada daha dəqiq olan Qazaxıstan (7:6) Azərbaycan millisini məğlub edib. Bununla da, millimiz Avropa çempionatında mübarizəni dayandırıb.

Qeyd edək ki, yığmamız qrup mərhələsində Belçikaya 3:0, İtaliyaya 2:1, Fransaya 3:1 hesabı ilə qalib gəlib. 1/8 finalda isə Bolqarıstanı 3:1 hesabı ilə məğlub edib.

## Dünya çempionatı: şahmatçımız liderdir



**Hindistanın Qandinaqar şəhərində şahmat üzrə gənclər arasında dünya çempionatında təmsilçilərimizin çıxışı davam edir.**

Turnirin 4-cü turunda komandamızın üzvləri Nərmin Abdinova qazaxıstanlı Liya Kurmanqaliyevanı, Səbinə Rzalı hindistanlı Şanmati Srini məğlub edib. Ayan Allahverdiyeva isə ermənistanlı Məryəm Mkrtçyan ilə heçheçə edib.

4 xalla N.Abdinova liderliyə yüksəlib. A.Allahverdiyeva 3,5 xalla 2-10-cu yerləri bölüşdürür. S.Rzalının isə 2,5 xal var.

Qeyd edək ki, İsveçrə sistemi ilə keçirilən turnir 11 turdan ibarətdir.

## Güləşçimiz finalda



**Macarıstanın paytaxtı Budapeştdə güləş üzrə reytinq turniri keçirilir.**

Yarışda iştirak edən Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedov (97 kq) finala yüksəlib.

Qeyd edək ki, Azərbaycan millisi iyunun 9-dək davam edəcək reytinq turnirində 14 güləşçi ilə təmsil olunur.

*L.QURBANOVA*
*XQ*

"Xalq qəzeti" təqdim edir

# Mirzə Ələkbər Sabirin tarixi açıqlaması

*Dahi şairin bizə çatan yeganə müsahibəsi*





**Dahi Azərbaycan şairi Mirzə Ələkbər Sabir ötən əsrin əvvəllərində böyük ədəbiyyatşünas Salman Mümtaza müsahibə verib. Görkəmli folklorşünas həmin müsahibəni sonralar "Sabir haqqında xatirələr" məqaləsinə daxil edib. Bu, Sabirin üzə çıxarılan ilk və yeganə müsahibəsidir. Onu da deyək ki, müsahibə görkəmli media xadimi, professor Şirməmməd Hüseynovun transliterasiyası ilə "Günay" qəzetinin 20 aprel 2002-ci il tarixli nömrəsində dərc olunub.**

**"Xalq qəzeti" Sabir ümmanından bir damla olan həmin tarixi müsahibəni oxuculara təqdim edir:**

**Salman Mümtaz:** – Sizin ilk təxəllüsünüz olan "Hop-hop" sözünün mənası nədir və nə səbəbdən bunu qəbul etmisiniz?

**Mirzə Ələkbər Sabir:** – Bu təxəllüsü mənə əziz dostum Məşədi Həbib verib. "Hop-hop" quş adıdır. Bu quşun bundan başqa, el arasında yenə bir neçə adı vardır ki, ona Fatmabacı, Bupbu və Şanapipik də deyirlər. Məşədi Həbib mənə "Fatmabacı" deyə xitab etmək üçün bu adı seçib. Mən də bunun əvəzində onun təxəllüsünü "Qızdırmalı" qoymuşam ki, mənasını hələ bu günə kimi anlaya bilməyib.

**S.M.:** – Niyə təxəllüsünüzü tez-tez dəyişirsiniz?

**M.Ə.S.:** – Bunu şirvanlılardan və mühitdən soruşmalısınız.

**S.M.:** – Abbas Səhhətin neçə yaşı var? Siz böyüksünüz, yoxsa o?

**M.Ə.S.:** – Başda o böyükdür, yaşda mən.

**S.M.:** – Səhhət dərin savadlıdırmı?

**M.Ə.S.:** – Mən onun şagirdiyəm, o, mənə ustaddır.

**S.M.:** – Osmanlıların klassik şairlərindən kimləri bəyənirsiniz?

**M.Ə.S.:** – Ziya Paşa ilə Namiq Kamal bəyi.

**S.M.:** – Tofiq Fikrəti bəyənirsiniz, düzdür?

**M.Ə.S.:** – Siz, Osmanlı şairlərini soruşdunuz, mən də fikrimi dedim. Fikrət ərəb şairidir. Onun əsərlərində ərəb sözləri çox işlədilir. Bu adda türk şairi yoxdur. Yaxşı olardı ki, bunu Məhəmməd Hadi əfəndidən soruşaydınız. Yaxşısını o, bilər.

**S.M.:** – "Molla Nəsrəddin" jurnalının 18-ci nömrəsindəki "Gözəlim" ünvanlı şeirinizin 3-cü və 5-ci bəndləri ayrı bəhrdədir. Bunun səbəbi və hikməti nədir?

**M.Ə.S.:** – Hikməti və səbəbi mürgüləməkdir. Mən gecələr Haşım bəy Vəzirovun nəşr etdiyi gündəlik "Səda" qəzetində işləyirəm. Orada korrektorluq edirəm. İdarə xüsusi teleqramlar almır. O qədər gözləyir ki, "Kaspi", "Həqiqət" və sair qəzetlər çapdan çıxır. Onlar çıxandan sonra teleqramlar tərcümə olunur, düzülür, basılır, mən də korrekturasına baxıram. Mən də o şeiri Haşım bəyin mətbəəsində gecə yarısı yazmışam və yazarkən mürgüləyib sonra da yuxulamışam. Yuxudan ayılandan sonra da davamını yazmışam. Şeir təb olub gələndən sonra səhvimi başa düşmüşəm ki, bu da çox gec idi.

**S.M.:** – Mətbu şeirlərinizin hansını çox bəyənirsiniz?

**M.Ə.S.:** – Heç birini. Bəyəniləsi şeirləri sonra yazacağam.

**S.M.:** – Sonra, nə vaxt?

**M.Ə.S.:** – Mürgüləməyəndə.

**S.M.:** – Nə üçün şeirlərinizi heca vəznində deyil, əruz bəhrində yazırsınız və şeirin əski formalarını, şəkillərini şiddətli surətdə mühafizə edirsiniz.

**M.Ə.S.:** – Bu, çox mühüm məsələdir. Görüm, öz fikrimi izah edə biləcəyəmmi? Məncə, yeni fikirləri və yeni mövzuları mütləq əski formada və əruz bəhrində vermək və yazmaq lazımdır. Bu, həm də vacibdir. Bunları birdən-birə dəyişib, oxucunu ədəbiyyatdan yadırğatmaq və soyutmaq olmaz. İri-iri toplarla hücuma keçən düşmənin qabağına sədəf dəstəli və qızıl suyu ilə yazılı gümüşü xəncəl ilə çıxmaq ağılsızlıqdır. Əruz bizim deyil, bunu hamı bilir. Lakin 13 əsrdir ədəbiyyatımızı mühasirəyə almışdır. Bu mühasirə də böyük-böyük ustadların planı, nəqşəsi və əlləri ilə olmuşdur. Bu mühasirəni yarıb ədəbiyyatımızı xilas etmək, yenə də yuxarıdakı ustadlar kimi böyük ustadların əlləri ilə mümkün olacaqdır. Böyük şairləri də, ustadları da ancaq bilik və xalq yetirə bilər. Şair elin, xalqın hökmranı və gözünün işığı olmalıdır ki, o, nə desə xalq ona baxsın və nə yazsa, el oxusun. Bu hökmranlıq da yalnız elin ruhunu bilməklə və tələblərini ödəməklə olar. Elin halına yanmayıb, güclə hökmranlıq edənlər "dostlarım" Əbdülhəmid və Məmmədəlinin gününə düşərlər.

Şeir ilə musiqi birdir. Bunların hər ikisi də insanların ruhu ilə əlaqədardır. Lakin şeir yüksəkdir və onun məqamı ucadır. Şeir musiqisiz olar, musiqi şeirsiz olmaz. Elin ürəyindən deyilən şeirlər başdan-başa musiqidir. Çünki hər bir kəs onu öz ahənginə görə uydurub oxuyacaqdır. Musiqimizdə Segah, Çahargah, Şur, Rast və sair muğamlar vardır. Bunlar bizim deyil, gəlmədir, amma bizimdir, ruhumuza kök salmışdır, ruhumuzun qidasıdır. Bu muğamlar əruz bəhrləri ilə bir tarixdə yurdumuza gəlmişdir və bir tarixdə də gedəcəkdir. Bunların həyatı bir-birinə bağlıdır.

Dörd yüz ildən bəridir Füzulinin şeirlərinin şöhrəti bütün Şərqi qapsamışdır. Hamı o şeirləri əzbərdən bilir və istədiyi zaman sevə-sevə də oxuyur. Halbuki bu şeirlər başdan-başa əruz bəhrlərində yazılmışdır. Sədinin, Hafizin qəzəllərinin qabağına ancaq qəzəllə çıxmaq olardı ki, Füzuli bunu duymuş, çıxmış və onların nüfuzlarını qırmışdır.

Mən Füzuli "Divan"ına, Füzuli qəzəllərinə başdan-başa nəzirə yazmaq fikrindəyəm. Yəni, o formada və o bəhrlərdə olmaq şərti ilə yeni-yeni mövzularda qəzəllər yazacağam. Hələ bir neçə nəzirə də yazmışam. Şeir odur ki, mövzusu həyatdan götürülüb, özü də açıq və aydın yazılsın, həm də xalqın ruhuna uyğun şəkildə. Beş gün, üç gün ömür eyləyib yaşayan şeirlərə şeir deyilməz. Xalqın oxumadığı, əzbərləmədiyi şeir, şeir deyildir. Çünki onların əsası və bünövrəsi yoxdur, yağış yağanda su üzünə çıxan qabarcıq, köpük kimi tez çıxıb, tez də batır. Elin ruhundan, ürəyindən qopmayan şeirlər xalqın ruhunda heç bir zaman həyəcan əmələ gətirə bilməz. Bir adamı rahat oturduğu yerdə yerindən durğuzub oynatmaq üçün onun könlü istədiyi və sümüyünə düşən hava çalınmalıdır. Belə olmasa, o, qollarını açıb süzə bilməz.

Əziz dostum və ustadım olan Səhhət mənim fikrimin bəzi nöqtələriylə şərik olmursa da, eybi yoxdur. Bunu gələcək göstərəcəkdir.

*Təq+dim etdi:*
***Qüdrət PİRİYEV***
***XQ***

Hava

# Yenə də Aranda günəşli, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 7-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 758 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 45-55 faiz olacaq.**



**Azərbaycanın rayonlarında**: Əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq, əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 34-39°, dağlarda gecə 12-17°, gündüz 20-25° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

Texnologiya

**Yazıçının ampluası həmişə sadə olmur. Bunun üçün vaxt, bilik, ilham lazımdır. Bu məsələdə yazıçılara neyroşəbəkələr–süni intellektin nəzarəti altında fəaliyyət göstərən qabaqcıl onlayn xidmətləri kömək edə bilər. Onlar kitabda süjet konturunu yaradır, başlıq seçir, mətnin bir fəslini və ya daha kiçik hissəsini yekunlaşdırır, personajın imicini inkişaf etdirməyə kömək göstərir. Kitaba realist səhnələr əlavə etmək də onların xidmətinə aiddir.**

## Süni intellekt mirzəlik edir



İstənilən ölçülü və müxtəlif süjetli sənət əsərlərini yazmaq üçün istifadə oluna bilən ən yaxşı neyroşəbəkələrdən biri "AI Search" xidmətidir. Bu xidmət mövzu ilə bağlı məqalələr və ya kitab fəsilləri yazır, təsvir əsasında şəkillər yaradır, məqalələri yenidən yazır. Həmçinin, neyron şəbəkə hətta səsli video və ya audio ilə mətn yaza bilir.

Rytr.me xidməti isə funksionallıq və yaradılan mətnin kifayət qədər yüksək keyfiyyəti (süjetin ətraflı təsviri ilə) ilə xarakterizə olunan süni intellekt alqoritmlərinə əsaslanır. Mətnlərin yaradılması zamanı AIDA və PAS modellərindən istifadə olunur. Eyni kontekstdə hekayənin bir neçə versiyasını yaratmağı bacarır. Bunun üçün "Süjet" şablonunu seçmək, bir neçə cümlə yazmaq kifayətdir. Sonra neyron şəbəkə hekayəni daha ətraflı təsvir edəcəkdir.

Shortly.ai xidməti də maraqlı hekayələr yaratmaq üçün əla vasitədir. Bu neyron şəbəkənin özəlliyi ondan ibarətdir ki, o, böyük həcmli mətnlərin (bloq, kitab və ya digər tapşırıq üçün) hazırlanması üzrə ixtisaslaşıb. Ancaq yenidən yazmaq kimi daha kiçik tapşırıqların öhdəsindən də gəlir. Onlayn xidmət mətni azaltmaq, genişləndirmək və ya dəyişdirmək üçün güclü funksiyaya malikdir.

Qeyd edək ki, süni intellektin köməyi ilə yazılmış bədii əsərlər bir çox müsabiqələrdə yer tutub. Pekin Tsinghua Universitetinin professoru Shen Yang robotlar haqqında elmi fantastika romanı yazmaq qərarına gəldikdə, ilham üçün süni intellektə müraciət edib. 6 minə yaxın simvoldan ibarət roman ("Land of Memories") Gənclərinin Populyar Elmi Fantastika Müsabiqəsində qalib olub.

Professor Filip M. Parker isə internetdən alınan məlumatlardan istifadə edərək şablondan avtomatik olaraq kitablar yaradan "yazıçı" bot yaradıb. Parker iddia edir ki, onun proqramı artıq 200 mindən çox kitab "yazıb". Onların arasında tibbi dərsliklər, iqtisadi kitabçalar, lüğətlər və hətta şeir kitabları var.

***PÜNHAN***
***XQ***

Sağlamlıq

## Gülü tikandır – şirəsi dərmandır

**Almaniyalı alimlər adi çöl gülü – knikusun sinir toxumasını bərpa etdiyini üzə çıxarıblar. Tədqiqatlar təsdiqləyib ki, "Cnicus benedictus"un tərkibində olan knisin adlı birləşmə sinir toxumasını bərpa edir.**



Araşdırmanın nəticələri "Phytomedicine" jurnalında dərc olunub. Knikus, həm də aptek Benedikti adlanır və isti çöllərdə yayılıb. Buna Qafqazda da çox rast gəlinir.

Bitkidən qədimdən xalq təbabətində geniş istifadə olunub. Daha çox həzm sisteminin müalicəsində təsirli olduğu deyilir. Çayı, dəmləməsi və məlhəmlərindən istifadə edilir.

Lakin alman alimləri yeni eksperimentdə bitkidə olan birləşmənin sinir liflərini – aksonların böyüməsini sürətləndirdiyini sübut ediblər. Onlar bu təsiri heyvan və insan hüceyrələrində apardıqları təcrübədə əldə ediblər.

***Z.HÜSEYNLİ***
***XQ***

✓ *"Zemu Company" MMC bağlandığını bildirir. VÖEN – 1806668531*

✓ *Lerik rayonu Əliabad bələdiyyəsinin möhürü və ştampı itdiyi üçün etibarsız hesab edilsin.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4048
SİFARİŞ 1230
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00